# AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ GENDER MÜNASİBƏTLƏRİ: MÖVCUD VƏZİYYƏT VƏ İMKANLAR

Kişilərin gender bərabərliyinə münasibətinə dair
Tədqiqatın (IMAGES) nəticələri üzrə Hesabat

BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı Nümayəndəliyi
Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
"Promundo" Beynəlxalq təşkilatı
Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəz (STBM)

*Bakı, Azərbaycan*
*2018*

## KİŞİLƏRİN GENDER BƏRABƏRLİYİNƏ MÜNASİBƏTİNƏ DAİR TƏDQİQAT (IMAGES) HAQQINDA:

“Promundo” Beynəlxalq təşkilatının və Qadınlar üzrə Beynəlxalq Tədqiqat Mərkəzinin (ICRW) tərtib etdiyi “Kişilərin gender bərabərliyinə münasibətinə dair Tədqiqat” (IMAGES) kişi və qadınların gender normaları ilə bağlı təcrübəsi və bu məsələlərə dair yanaşma tərzi, gender bərabərliyi siyasətinə münasibət, qayğı göstərmə və kişilərin ata qismində iştirakı da daxil olmaqla ev təsərrüfatındakı dinamika, ailə daxili zorakılıq, sağlamlıq və iqtisadi təzyiq kimi məsələləri əhatə edən ən müfəssəl araşdırma hesab olunur. 2016-cı ildə başlamış bu tədqiqat artıq 17 ölkədə keçirilib, 7 ölkə yaxın gələcəkdə tədqiqatın keçirilməsi üçün məlumatların toplanmasını təsdiqləyib və əlavə olaraq 10 tərəfdaş təşkilatın apardığı tədqiqat “IMAGES” tədqiqatının metodologiyasına uyğun həyata keçirilib .

## TƏDQİQAT ÜZRƏ TƏRƏFDAŞLAR:

### BMT-nin ƏHALİ FONDUNUN (UNFPA) AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİ

UNFPA hər bir hamiləliyin arzu edilən olduğu, hər bir doğuşun təhlükəsiz keçdiyi və hər bir gəncin potensialının reallaşdığı dünya naminə fəaliyyət göstərən BMT agentliyidir.

UNFPA qadınların və gənclərin sağlam və produktiv həyat yaşamaları üçün imkanları artırır. UNFPA-nın fəaliyyətə başladığı 1969-cu ildən etibarən hamiləlik və doğuşların ağırlaşması nəticəsində baş verən ana ölümü hallarının sayı iki dəfə azalıb. Ailələr daha kiçik və sağlamdır. Əvvəlki illərlə müqayisədə gənclər daha şəbəkələşmiş və səlahiyyətlidir.

### AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) ailə ilə iş və gender bərabərliyi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli Fərmanı ilə yaradılmış və nazirlik səlahiyyətlərinə malik olan Komitə 1998-ci ildən etibarən qadın problemləri ilə iş sahəsində fəaliyyət göstərmiş başqa bir dövlət orqanını, Qadın Problemləri üzrə Dövlət Komitəsini əvəz etmişdir. “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyanın (CEDAW) yerinə yetirilməsi ilə yanaşı AQUPDK qadın hüquqları və səlahiyyətlərinin genişləndirilməsinə aid bütün aspektlər üzrə dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsinə məsuliyyət daşıyan yeganə milli mexanizm hesab olunur.

### “PROMUNDO” BEYNƏLXALQ TƏŞKİLATI

1997-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində təsis edilmiş “Promundo” Beynəlxalq təşkilatı qayğıkeş, qeyri-zorakı və ədalətli kişilik, habelə bərabər gender münasibətləri məsələlərinin beynəlxalq təşviqi sahəsində fəaliyyət göstərir. Bu beynəlxalq təşkilatın ABŞ-da “Promundo-US”, Braziliyada “Instituto Promundo” və Portuqaliyada “Promundo-Europe” adı ilə fərdi qaydada qeydiyyata alınmış filialları, həmçinin Ruanda və Konqo Demokratik Respublikasındakı nümayəndəlikləri kişilik və gender bərabərliyi məsələlərinə dair biliklərin artırılması üçün tətbiqi tədqiqatlar aparmaqla, gender yönümlü tədbirlər və proqramlar işləyib hazırlamaqla, qiymətləndirməklə və genişləndirməklə, habelə gender bərabərliyinə və sosial ədalətə nail olmaq məqsədi ilə milli və beynəlxalq səviyyələrdə vəkilliyin aparılması ilə qarşıya qoyulmuş vəzifələrə çatmaq üçün əməkdaşlıq edir.

### SOSİAL TƏDQİQATLAR ÜZRƏ BEYNƏLXALQ MƏRKƏZ (STBM)

STBM məlumatların toplanması və tədqiqatların aparılması sahəsində ixtisaslaşmış yerli qeyri-hökumət təşkilatıdır.

## TƏDQİQAT QRUPU

*Yerli mütəxəssislər:*
***Tahir Fərədov,*** *Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəz (STBM)*
***Rəcəb Səttarov,*** *STBM*
***Aynur Raşidova,*** *STBM*
***Aynur Veysəlova,*** *Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi*

*Beynəlxalq mütəxəssislər:*
***Ruti Levtov,*** *"Promundo-US" Təşkilatı*
***Jane Kato-Wallace,*** *"Promundo-US" Təşkilatı*
***Kristina Vlahovicova,*** *"Promundo-US" Təşkilatı*

*Layihə rəhbəri/əlaqələndiriciləri:*
***Fərid Babayev,*** *BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı Nümayəndəliyinin Baş müşaviri*
***Bəhicə Əliyeva,*** *BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı Nümayəndəliyinin Gender Məsələləri üzrə Proqram müşaviri*
***Nərminə Məlikova,*** *BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı Nümayəndəliyinin Əhali və İnkişaf Məsələləri üzrə Proqram müşaviri*

## MİNNƏTDARLIQ

BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi "IMAGES" Tədqiqatının Azərbaycanda aparılması üçün veridiyi töhfə və dəstəyə görə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə öz dərin minnətdarlığını bildirir.

Biz belə bir vacib layihənin başlanması və həyata keçirilməsi üçün göstəridiyi dəyərli dəstəyə görə BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisinə (UNFPA EECARO) təşəkkür edirik.

Biz bu layihənin gerçəkləşməsi üçün göstərilmiş birgə səylərə görə BMT-nin Əhali Fondunun icraçı tərəfdaşları olan "Promundo" Beynəlxalq təşkilatı və Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəzə öz minnətdarlığımızı bildiririk.

Biz, həmçinin, öz fikirlərini, təcrübəsin və vaxtını əsirgəməyərək tədqiqat qrupu ilə birgə ölkə üzrə sorğuda iştirak etmiş təxminən 1000 qadın və kişiyə, habelə sorğunun həyata keçirilməsi üçün müvafiq müsahibələr aparmış əməkdaşlara göstərdikləri əvəzedilməz səylərə görə xüsusilə təşəkkür edirik.

Biz tədqiqata dair hesabatın ingilis dilindəki nüsxəsini redaktə etdiyinə görə xanım Jill Merrimana, azərbaycan dilindəki nüsxəsini redaktə etdiyinə görə isə Vüsal Behbudova minnətdarıq.

**Hesabata istinad aşağıdakı qaydada olmalıdır:**
UNFPA/AQUPDK (2018) "Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. *Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Tədqiqatın (IMAGES) nəticələri üzrə Hesabat*", Bakı, Azərbaycan.

*Bu hesabatda əks olunan fikir və mülahizələr müəlliflərə aiddir və BMT-nin Əhali Fondunun və ya Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəsmi mövqeyini əks etdirməyə bilər.*

# MÜNDƏRİCAT

İXTİSARLARIN SİYAHISI 9
NƏTİCƏLƏRİN XÜLASƏSİ 10
Ümumi məlumat 10
Əsas nəticələr 10
1. GİRİŞ 12
1.1. Azərbaycanda kişilərin gender bərabərliyinə münasibəti 12
1.2. Problemin qoyuluşu və tədqiqat sualları 13
1.3. Konseptual çərçivə 13
2. TƏDQİQAT METODLARI 14
2.1. Tədqiqat əraziləri və seçmə prosesi 14
2.1.1. Kəmiyyət əsaslı tədqiqat 14
2.1.2. Keyfiyyət əsaslı tədqiqat 14
2.2. Metodlar və prosedurlar 15
2.2.1. Kəmiyyət əsaslı tədqiqat 15
2.2.2. Keyfiyyət əsaslı tədqiqat 15
2.3. Etik mülahizələr 16
2.4. Məlumatların təhlili 16
3. TƏDQİQATIN NƏTİCƏLƏRİ 16
3.1. Seçmənin xüsusiyyətləri 16
3.1.1. Keyfiyyət sorğusu seçməsinin xüsusiyyətləri 17
3.2. Gender məsələlərinə münasibət 18
3.2.1. Kişilərin Gender Bərabərliyinə Dəstəyi (GEM) Şkalası 19
3.2.2. Gender bərabərliyinə münasibət 20
3.2.3. Qadınların rəhbər vəzifələrdə olmasına münasibət 21
3.3. Uşaqlıq təcrübəsi 22
3.3.1. Nüvə ailəsinin xüsusiyyətləri 22
3.3.2. Uşaq ikən böyüdüyü evdə gender dinamikası 23
3.4. Cari əlaqələrin dinamikası 26
3.4.1. Ər-arvad cütlüklərinin xüsusiyyətləri 26
3.4.2. Ev təsərrüfatında qərar qəbuletmə və səlahiyyət dinamikası 27
3.4.3. Kişilərin ev işlərində iştirakı 28
3.4.4. Münasibətlərin keyfiyyəti 29
3.4.5. Qarşılıqlı münasibət, nikah və uşaq məsələlərinə münasibət və yanaşma 30
3.5. Ailə planlaşdırılması, cinsi və reproduktiv sağlamlıq və hüquqlar 31
3.5.1. Cinsi davranış və kondomlardan istifadə 31
3.5.2. Digər qoruyucu vasitələr 33
3.5.3. Ailə planlaşdırılması və qoruyucu vasitələrdən istifadə etmə ilə bağlı qərar qəbuletmə 35
3.5.4. Qoruyucu vasitələrə münasibət 36
3.5.5. Qoruyucu vasitələrdən istifadə imkanları 37
3.5.6. Abort (qərarlar, davranış formaları və dəstək) 39
3.6. Valideynlik və qaygı göstərmə 40
3.6.1. Kişilərin antenatal qaygı prosesində iştirakı 41
3.6.2. Atalıq məzuniyyəti 41
3.6.3. Qaygının göstərilməsi prosesində kişilərin iştirakı 41

3.6.4. Kişilərin öz uşaqları ilə münasibəti 44
3.7. Rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən zorakılıq 45
3.7.1. Uşaqlıqda zorakılığa məruz qalma 45
3.7.2. Zorakılığa münasibət 46
3.7.3. Ailə münasibətlərində davranışa nəzarət 47
3.7.4. Rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən zorakılıq 48
3.7.5. Rəsmi və ya qeyri-rəsmi nikahda olmadığı şəxsə qarşı cinsi zorakılıq 49
3.7.6. Rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən zorakılıq hallarına məruz qalma və müvafiq cavab tədbirləri 50
3.7.7. Qadınlara qarşı zorakılıqla mübarizə üzrə qanunlara münasibət 50
3.8. Oğlan uşağına verilən üstünlük və uşağın cinsinə görə seçimi 50
3.8.1. Uşaqların sayına dair üstünlük 50
3.8.2. Oğlan uşağına üstünlüyün verilməsi məsələsinə münasibət 51
3.8.3. Cinsə görə seçim məsələsinə münasibət 53
3.9. Sağlamlıq vəziyyəti və səhiyyə xidmətlərindən istifadə 55
3.9.1. Ümumi sağlamlıq vəziyyəti 55
3.9.2. Sağlamlıq problemləri və sağlamlığın yaxşılaşdırılması üzrə davranış 56
3.9.3. Səhiyyə xidmətlərindən istifadə 56
3.9.4. Spirtli içkilərdən istifadə 56
3.9.5. Psixi sağlamlıq 57
3.9.6. İİV üzrə tibbi müayinə 58
3.9.7. Kişilər üçün xüsusi səhiyyə xidmətləri 59
4. NƏTİCƏLƏR 60
5. ƏSAS TÖVSİYƏLƏR 62
5.1. Təxirəsalınmaz tövsiyələr 62
5.2. Uzunmüddətli tövsiyələr 62
ƏDƏBİYYAT 64
ƏLAVƏLƏR 65
ƏLAVƏ 1. SEÇMƏ STRATEGİYASI 65
ƏLAVƏ 2. “IMAGES” SORĞU-ANKETİNİN AZƏRBAYCAN ŞƏRAİTİNƏ UYĞUNLAŞDIRILMASI 67
ƏLAVƏ 3. KEYFİYYƏT SORĞUSUNUN MƏZMUNU 67
ƏLAVƏ 4. QANUNLARA MÜNASİBƏT 68
Atalıq məzuniyyəti 68
Nikah, boşanma və himayə 68
ƏLAVƏ 5. QADINLARA QARŞI ZORAKILIQ 70
ƏLAVƏ 6. PSİXİ SAĞLAMLIQ 71

## CƏDVƏLLƏR, DİAQRAMLAR VƏ HAŞİYƏLƏRİN SİYAHISI


*Cədvəl 1. Kəmiyyət seçməsinin xüsusiyyətləri* **17**
*Cədvəl 2. Gender rolları və vəzifələrinə münasibət* **18**
*Cədvəl 3. Kişilərin Gender Bərabərliyinə Dəstəyi (GEM) Şkalası üzrə orta ballar* **20**
*Cədvəl 4. Gender bərabərliyinə münasibət* **21**
*Cədvəl 5. Respondentlərin ana və atalarının təhsil səviyyəsi* **23**
*Cədvəl 6. Uşaq ikən böyüdükləri evdə ev təsərrüfatı işlərində atanın iştirakı* **25**
*Cədvəl 7. 18 yaşına qədər olan şəxslərin ev təsərrüfatı işlərində iştirakı* **26**
*Cədvəl 8. Cari və ya ən son rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxsin xüsusiyyətləri* **27**
*Cədvəl 9. Cari və ya ən son ailə münasibətlərində qəbul edilən qərarla bağlı son söz* **28**
*Cədvəl 10. Kişi və qadınların qarşı cinslə münasibət təcrübələri üçün müvafiq yaş* **30**
*Cədvəl 11. Yaş, yaşayış yerinin növü və ailə gəliri üzrə son cinsi əlaqə zamanı kondomlardan istifadə* **32**
*Cədvəl 12. Qoruyucu vasitələrdən istifadə edən kişi və qadınların faiz nisbəti* **34**
*Cədvəl 13. Müxtəlif qoruyucu vasitələrdən istifadə edən kişi və qadınların faiz nisbəti* **34**
*Cədvəl 14. Qoruyucu vasitələrdən istifadə məsələsinə münasibət* **37**
*Cədvəl 15. Abort və abortla bağlı qərar qəbuletmə* **39**
*Cədvəl 16. Ailənin xüsusiyyətləri* **40**
*Cədvəl 17. Sonuncu və ya cari hamiləlik zamanı antenatal qayğı ilə bağlı həkim qəbulunda iştirak* **41**
*Cədvəl 18. Qayğının göstərilməsi ilə bağlı iş bölgüsü* **43**
*Cədvəl 19. Kişi respondentlərin uşaq ikən böyüdükləri evdə atalarının ev işlərində iştirakı səviyyəsindən asılı olaraq qayğının göstərilməsi ilə bağlı iş bölgüsü* **44**
*Cədvəl 20. 18 yaşı tamam olmamış şəxslərin zorakılığın konkret formalarına məruz qalma halları* **46**
*Cədvəl 21. Qadınlara qarşı zorakılıq və zorlamaya münasibət* **47**
*Cədvəl 22. Ailə planlaşdırılması - cinsinə görə uşaqların arzuolunan sayı* **51**
*Cədvəl 23. Oğlan uşağına üstünlüyün verilməsi məsələsinə münasibət* **51**
*Cədvəl 24. Uşağın cinsinə görə seçimə əsasən oğlan uşağına üstünlüyün verilməsi məsələsinə münasibət* **52**
*Cədvəl 25. Hamiləliyin dayandırılmasının səbəblərinə münasibət* **54**
*Cədvəl 26. Öz məlumatına əsasən sağlamlıq vəziyyətinin dəyərləndirilməsi* **55**
*Cədvəl 27. Ötən 12 ay ərzində spirtli içkilərdən istifadə* **57**
*Cədvəl 28. Sonuncu İİV testinin tarixi və testin nəticələrinə dair məlumat* **59**
*Cədvəl 29. Səhiyyə xidmətlərinə münasibət* **59**

*Diaqram 1. Səlahiyyətli vəzifələr üzrə qadınlar üçün kvotalara münasibət* **22**
*Diaqram 2. Uşaq ikən böyüdükləri evdə qəbul edilən qərarlarla bağlı son söz* **24**
*Diaqram 3. Ev təsərrüfatı işlərində gender əsaslı bölgü* **29**
*Diaqram 4. Ən son cinsi əlaqə zamanı kondomlardan istifadə ilə bağlı qərar qəbuletmə* **36**
*Diaqram 5. Qoruyucu vasitələrdən istifadə ilə bağlı son söz* **36**
*Diaqram 6. Qoruyucu vasitələrdən istifadə imkanlarına dair münasibət* **38**
*Diaqram 7. Son uşağa qayğı göstərmə ilə bağlı işlərin bölgüsü* **42**
*Diaqram 8. Kişi respondentin uşaq ikən böyüdükləri evdə atasının ev işlərində iştirakından*

| | |
|---|---|
| asılı olaraq uşaqlara gündəlik qayğının göstərilməsində iştirakı | |
| Diaqram 9. Öz uşaqları ilə rəftara münasibət | 44 |
| Diaqram 10. Davranışa nəzarət məsələsinə münasibət | 45 |
| Diaqram 11. Rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən zorakılığın törədilməsi | 48 |
| və ya zorakılığa məruz qalma barədə məlumat (həyatı boyu və ya son bir il ərzində) | |
| | 49 |
| | |
| HAŞİYƏ 1: ERKƏN NİKAHA MÜNASİBƏT | |
| HAŞİYƏ 2: AİLƏ PLANLAŞDIRILMASI | 31 |
| HAŞİYƏ 3: QORUYUCU VASİTƏLƏR | 33 |
| HAŞİYƏ 4: QORUYUCU VASİTƏLƏRDƏN İSTİFADƏ | 35 |
| HAŞİYƏ 5: ABORT MƏSƏLƏLƏRI | 38 |
| HAŞİYƏ 6: OĞLAN UŞAĞINA ÜSTÜNLÜYÜN VERİLMƏSİ | 40 |
| HAŞİYƏ 7: CİNS ƏSASINDA EDİLƏN SELEKTİV ABORTLAR | 53 |
| | 54 |

# İXTİSARLARIN SİYAHISI

| | |
|---|---|
| **QİÇS** | Qazanılmış İmmun Çatışmazlığı Virusu |
| **CEDAW** | Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiya |
| **CES-D** | Epidemiologiya Mərkəzinin Depressiya Şkalası |
| **DSS** | Demoqrafiya və Səhiyyə Sorğusu |
| **GEM** | Kişilərin Gender Bərabərliyinə Dəstəyi Şkalası |
| **IMAGES** | Kişilərin Gender Bərabərliyinə Münasibətinə Dair Beynəlxalq Tədqiqat |
| **İİV** | İnsan İmmun Çatışmazlığı Virusu |
| **STBM** | Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəz |
| **QTBM** | Qadınlara dair Tədqiqatlar üzrə Beynəlxalq Mərkəz |
| **İPZ** | İntim partnyor tərəfindən törədilən zorakılıq |
| **UDV** | Uşaqlıq daxili vasitə |
| **İSV** | İlkin Seçmə Vahidi |
| **AQUPDK** | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| **SY** | Standart yayınma |
| **CYÖİ** | Cinsi yolla ötürülən infeksiya |
| **UNDP** | BMT-nin İnkişaf Proqramı |
| **UNFPA** | BMT-nin Əhali Fondu |
| **UNFPA EECARO** | BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisi |
| **UNICEF** | BMT-nin Uşaq Fondu |
| **WHO** | Ümumdünya Səhiyyə Təşkilatı |

# NƏTİCƏLƏRİN XÜLASƏSİ

***Ümumi məlumat***

2016-cı ilin aprel-iyul aylarında Azərbaycanda Kişilərin gender bərabərliyinə münasibətinə dair Tədqiqat (IMAGES) aparılıb. Tədqiqat kişilərin gender bərabərliyi, gender rolları və dinamikası, valideynlik və qayğı məsələləri, ev təsərrüfatı daxilində münasibətlərin dinamikası, sağlamlıq (o cümlədən, cinsi və reproduktiv sağlamlıq və hüquqlar) və oğlan uşağına verilən üstünlük məsələləri ilə bağlı təcrübə və münasibətlərini öyrənmək məqsədi daşıyıb. Tədqiqat kəmiyyət sorğusu, habelə şəhərlərdə yaşayan respondentlərlə yarımstrukturlaşdırılmış müsahibələrdən ibarət keyfiyyət komponenti əsasında təşkil olunub. Tədqiqatın keyfiyyət komponentində cinsi və reproduktiv sağlamlıqla (o cümlədən, oğlan uşağına verilən üstünlük) bağlı qərar qəbuletmə, rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən edilən zorakılıq, erkən nikah və ailə planlaşdırılması baxımından kişi və qadınların gender rolları, inancları və düşüncələrinin araşdırılmasına xüsusi diqqət ayrılıb.

***Əsas nəticələr***

***Gender və gender bərabərliyi ilə bağlı stereotiplər hələ də mövcuddur.*** Kişi və ya qadın olmaqla bağlı ənənəvi gözləntilər Azərbaycan kişi və qadınlarının şüurunda dərin köklər salıb. “IMAGES” tədqiqatının nəticələri göstərir ki, Azərbaycanda gender rolları ilə bağlı ənənəvi fikirlər əsasən kişilər tərəfindən dəstəklənir. Ənənəvi olaraq “kişilik”* anlayışı kişinin öz ailəsini ilk növbədə maddi cəhətdən təmin etmək bacarığı ilə əlaqələndirilir.

***Kişilərin çoxu gender bərabərliyi və qadınların hüquqlarının təmin olunduğunu vurğulasa da, digərləri gender bərabərliyi üzrə hələ görüləcək çox işin olduğuna inanır.*** Tədqiqatda iştirak etmiş kişi və qadınların böyük bir hissəsi gender bərabərliyinin yetərincə yayıldığını zənn etsə də, əksəriyyət bərabərliyin təşviq edilməsi üçün daha çox işlərin görülməsinin zəruriliyi qənaətindədir. Buna baxmayaraq, bu sahədə kişilərlə daha çox iş aparılmalıdır çünki qadın hüquqlarının təşviqi məsələsinə kişilər daha mənfi münasibət nümayiş etdirir.

***Qayğı göstərmə işinin çox bir hissəsinin hələ də qadınlar tərəfindən yerinə yetirilməsinə baxmayaraq, kişilər məhdud şəkildə olsa da, bu prosesdə iştirak edirlər.*** Kişilər qayğı ilə bağlı işlərdə öz iştirak səviyyəsinin yüksək olması barədə məlumat verməyə meylli olsa da, qadınlar bununla bağlı fərqli fikirlər nümayiş etdirir və tədqiqat nəticələrinə əsasən qadınlarla müqayisədə kişilərin bütün qayğı işlərində iştirak səviyyəsi daha aşağıdır. Respondentlərin verdiyi cavablara əsasən, qadınlar uşaqlara əsasən fiziki qayğının göstərilməsi ilə əlaqədar işləri yerinə yetirir. Uşaqla vaxt keçirməyi tələb edən işlər isə adətən bərabər əsasda bölüşdürülür və ya birgə edilir.

***Bir çox kişi “kişilik” anlayışının mənfi aspektlərindən uzaqlaşır və bu gender bərabərliyinin təminatları baxımından müsbət dinamikanın olduğunu nümayiş etdirir.*** Kişilərin yarıdan çoxu əmindir ki, kişilər ev işlərinə (məsələn, yemək hazırlamaq, təmizlik və mətbəx işləri) kömək etməlidir. Kişilərin demək olar ki, hamısı razıdır ki, uşaqlar üçün gündəlik qayğının göstərilməsi onların maddi təminatı qədər vacib bir işdir. Eyni zamanda, kişilərin çoxu tərəfindən birmənalı şəkildə qəbul olunur ki, onların bu cür işlərdə ata qismində iştirakı yalnız iqtisadi və ya “produktiv” vəzifələrin yerinə yetirilməsi ilə məhdudlaşmamalıdır. Kişi respondentlərin üçdə birindən çoxu işinə görə uşaqları ilə çox az vaxt keçirdiyini qeyd edib və təxminən elə o qədər kişi öz uşaqları ilə daha çox vaxt keçirmək üçün daha az işləməyə razı olduğunu bildirib.

***Ailə münasibətlərində qərar qəbul etmək səlahiyyətləri baxımından kişilərin üstünlüyü davam etməkdədir.*** Qadınların daha çox iştirakını nəzərdə tutan sahələri, məsələn, uşağın sağlamlıq məsələlərini istisna etməklə, kişilər ənənəvi olaraq qərar qəbuletmənin tələb olunduğu bütün sahələrdə daha böyük təsirə malikdir. Bununla yanaşı, cavabların müqayisəli təhlili qərarların kim tərəfindən qəbul edilməsi ilə bağlı ifadə olunmuş fikirlər arasında uyğunsuzluqların olduğunu göstərir. Belə ki, cinsi və reproduktiv sağlamlıqla bağlı qərar qəbuletmə məsələlərinə gəldikdə, kişilərin çoxu qoruyucu vasitələrdən istifadə etmə qərarını təkbaşına və ya birgə qəbul etdiyini bildirsə də, sorğuda iştirak etmiş qadınların hamısı sözügedən qərarın onlara məxsus olduğunu və ya birgə qəbul edildiyini qeyd edib.

* Hesabatda istifadə olunan “kişilik” konsepsiyası kişilərin, ənənəvi olaraq, əsas maddi təminatçı, ailə başçısı, valideyn, ailədə qərar qəbul edən əsas şəxs olması ilə bağlı gözləntiləri özündə ehtiva edir

***Kişilərin müvafiq işlərdə ata qismində iştirakı onların gender bərabərliyinin təşviqi prosesinə cəlb edilməsi məqsədilə geniş şəkildə istifadə edilməlidir.*** Kişilərin əksəriyyəti öz həyat yoldaşlarını antenatal qayğı ilə bağlı tibbi müayinələr zamanı müşayiət etdiyini bildirib və oxşar məlumat müvafiq olaraq qadınlar tərəfindən də verilib. Təxminən beş kişidən biri isə sözügedən tibbi müayinələrin hamısında öz həyat yoldaşını müşayiət etdiyini qeyd edib. Bununla belə, çox az sayda kişi müayinə prosesində faktiki olaraq iştirak edib. Kişilərin çoxu yoldaşını müvafiq məntəqəyə gətirdikdən sonra məkanı tərk edib və ya məntəqənin çıxışında və ya gözləmə otağında gözləyib. Bu isə öz növbəsində səhiyyə xidmətlərinin göstərilməsi, habelə anaya və yeni doğulmuş uşağa qayğı, uşağın sağlamlığı və gender bərabərliyinin təşviqi proseslərinə kişilərin mümkün qədər cəlb olunması baxımından həm itirilmiş imkan, həm də giriş nöqtəsi hesab oluna bilər: kişlərin çoxu bu kimi proseslərdən kənarda qalır, halbuki onların cəlb olunması üçün bu fürsətlərdən istifadə edilməlidir

***Ataları qayğının göstərilməsində və ev işlərində iştirak etmiş, habelə gender bərabərliyinə daha müsbət yanaşan kişilər böyük ehtimalla gender məsələlərini dəstəkləməyə daha meyllidir.*** Gender bərabərliyini daha çox dəstəkləyən kişilərin uşaqlara gündəlik qayğının göstərilməsində daha çox iştirak etdiyinə dair məlumat əldə edilib. Atalarının ev işləri ilə məşğul olmasını uşaq ikən müşahidə etmiş kişilərin öz uşaqlarına gündəlik qayğının göstərilməsində yaxından iştirak etməyə daha meylli olması qayğı məsələlərinə dair nəsillərarası dəyişikliklərin baş verdiyini nümayiş etdirir.

***Kişilərin uşaqlıqda zorakılığa məruz qalması ciddi gender fərqlərinin olmasını göstərir.*** Kişilər uşaqlıqda xüsusilə fiziki zorakılığın daha ağır formalarından əziyyət çəkdiklərini qeyd ediblər. Belə ki, kişilər qadınlardan daha çox ağır əşyalarla döyülüb və döyülmə nəticəsində bədənlərində çapıq və zədələrin qalması barədə məlumat verib.

***Kişilər tərəfindən zorakılığın istənilən formasının törədilməsini ardıcıl qaydada bir neçə amillə əlaqələndirmək olar.*** 1) Öz analarına qarşı zorakılığın şahidi olma və uşaqlıqda fiziki zorakılığa məruz qalma halları ilə rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən törədilən zorakılıq arasında bağlılıq müşahidə olunur və bu nəticə dünyanın müxtəlif yerlərində zorakılığın nəsillərarası zərərli təsiri ilə bağlı aparılmış tədqiqatların nəticələri ilə üst-üstə düşür. 2) "GEM" Şkalasına əsasən gender bərabərliyini daha az dəstəkləyən və xüsusilə də qadınlara qarşı zorakılıq barədə bəzi fikirlərin (məsələn, "qadın öz ailəsini qoruyub saxlamaq üçün zorakılığa dözməlidir" və "bəzi hallarda qadın döyülməyə layiqdir") tərəfdarı olan kişilər rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxslərə qarşı daha çox zorakılıq törədən şəxslərdir. 3) İqtisadi təzyiq də sözügedən amillər sırasındadır: maliyyə çətinlikləri olan və daimi iş və ya gəlirin olmaması (bəzi hallarda isə işin çox olması) səbəbindən stress və psixoloji sarsıntı keçirən kişilər zorakılığa daha çox meylli olur. 4) Nəhayət, adətən aşağı təhsilli kişilərin ümumilikdə daha çox zorakılıq etməsi müşahidə olunur.

***Tədqiqat seçməsini təşkil edən kişi və qadınlardan heç biri qadınlara qarşı şahidi olduğu zorakılıq halları barədə müvafiq instansiyalara məlumat verməyib.*** Bu nəticə onu göstərir ki, kişi və qadınların böyük əksəriyyəti zorakılığı qınayaraq müdaxilə etməyə hazır olsa da, faktiki olaraq onların çox az bir hissəsi bununla bağlı rəsmi orqanlara müraciət edir. Kişi və qadın respondentlərin 60%-dən az hissəsi məişət zorakılığına qarşı qanunlar barədə məlumatlı idi.

***Qız uşaqları ilə müqayisədə oğlan uşaqlarının sayının çox olmasına üstünlük verən kişi və qadınlar arasında əhəmiyyətli fərqin olması Azərbaycanda kişilərin oğlan uşaqlarına üstünlüyün verilməsi məsələsində nə dərəcədə güclü aparıcı qüvvə olmasını nümayiş etdirir.*** Əldə edilmiş məlumatlara əsasən qeyd etmək mümkündür ki, soyadın gələcək nəsillərə ötürülməsi və nəslin davam etdirilməsi, habelə kişi və qadınların çoxu tərəfindən qız uşaqlarının yük hesab edilməsi oğul övladına verilən üstünlüyün əsas səbəbini təşkil edir. Bu məlumatlar bir sıra Qafqaz ölkəsində keçirilmiş tədqiqatların nəticələri ilə üst-üstə düşür: oğlan uşaqları dəyər və ailənin dayağı kimi qəbul edilir, qızlar isə ailə quracaqları vaxtdan etibarən artıq doğulduqları ailələrinə aid olmayacaq əlavə öhdəlik hesab olunur.

***Kişilərin fiziki və psixi sağlamlıq ilə bağlı səhiyyə xidmətlərinə ehtiyacı olsa da, onlar qadınlarla müqayisədə bunu daha az edirlər.*** Aparılmış tədqiqat göstərir ki, kişi və qadınların öz ümumi sağlamlıq vəziyyətinə nə cür yanaşması ilə bağlı aşkar gender fərqləri mövcuddur. Ümumilikdə qadınlarla müqayisədə kişilər öz sağlamlıq vəziyyətini daha qənaətbəxş qiymətləndirib. Buna baxmayaraq onların səhiyyə xidmətləri, o cümlədən, profilaktik xidmətlər üçün nə vaxtsa müraciət etməsinə dair məlumata çox az təsadüf edilib. Kişi və qadınlar arasında sağlamlığın yaxşılaşdırılması davranışı ilə əlaqədar müşahidə olunan bu fərqlər yaşa dolduqca daha da artır.

# 1. GİRİŞ

## 1.1. Azərbaycanda kişilərin gender bərabərliyinə münasibəti

Son bir neçə onillik ərzində Azərbaycanda gender bərabərliyinin təşviqi istiqamətində əhəmiyyətli işlər görülüb. Bütün kişi və qadınlar arasında hüquq bərabərliyi ölkə Konstitusiyasında birmənalı şəkildə təsbit olunub. Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının təşviqi üzrə Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya da daxil olmaqla bir sıra beynəlxalq sazişləri ratifikasiya edib, gender bərabərliyinin təşviqi və məişət zorakılığı ilə mübarizə üzrə qanunlar qəbul edilib. Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyi siyasətini həyata keçirən mərkəzi icra orqanı yaradılıb. Eyni zamanda, müvafiq müddəalar sonradan qəbul olunmuş və təkmilləşdirilmiş bir sıra normativ hüquqi aktlarda da əks olunub. Demoqrafik vəziyyətin ən son icmalına əsasən ölkədə kişi və qadınların gözlənilən ömür uzunluğunun, habelə qadınların savadlılıq səviyyəsinin artması da daxil olmaqla bir sıra irəliləyişlər müşahidə olunur. Eyni zamanda, əldə olunmuş nəticələr göstərir ki, 20-ci əsrin əvvəlləri ilə müqayisədə cari dövrdə qadınlar daha yetkin yaşlarında ailə qurur, daha az sayda uşaq dünyaya gətirir, kənd və ya şəhərdə yaşamaq üçün təxminən eyni imkanlara malikdir və ev təsərrüfatından kənarda gəlir gətirən fəaliyyət növlərinə daha çox cəlb olunurlar.[1]

Bununla belə, aparılan tədqiqatın nəticələri göstərir ki, gender bərabərsizliyi hələ də ailənin formalaşması və ailədaxili münasibətlər, həmçinin bütövlükdə cəmiyyətə mənfi təsir göstərən amillər sırasındadır. Hüquq bərabərliyinə aid bir sıra qanunvericilik normalarının mövcud olmasına baxmayaraq, qadınların iqtisadi resurslara çıxışı və şəxsi, ictimai və siyasi həyatda qərar qəbuletmə prosesində hərtərəfli iştirak imkanları kişilərlə müqayisədə daha məhduddur. Gender, ictimai normalar və təsisatlar da daxil olmaqla müxtəlif amillərin kompleks şəkildə qarşılıqlı təsiri nəticəsində qadın yalnız reproduktiv potensialına görə dəyərləndirilməyə davam edir və onun rolu ailə çərçivəsi ilə daha da məhdudlaşdırılır.[2]

Ev təsərrüfatı daxilində vəzifələrin qeyri-bərabər bölgüsü ilə yanaşı qadınların üzərində ailələrini dəstəkləmək üçün gəlir əldə etmək yükünün də olması vəziyyəti daha da gərginləşdirir. Bu cür vəziyyətdən irəli gələn çətinlikləri aradan qaldırmaq üçün şəxsi və içtimai normalar sahəsində önəmli dəyişikliklərin olması zəruridir.

Son onillik ərzində mütəxəssislər, tədqiqatçılar, qərar qəbul edənlər və ictimai fəallar arasında gender bərabərliyinin təşviqində kişilərin rolunun əhəmiyyəti daha çox vurğulanır. Kişilərin zorakılıq, sağlamlıq və ailə həyatı ilə bağlı gender bərabərsizliyini gücləndirən yanaşma və təcrübələrini kökündən dəyişərək bu xoşagəlməz halların əsasını təşkil edən və onların törədilməsinə şərait yaradan amillərin aradan qaldırılması istiqamətində müvafiq müdaxilələrin zəruriliyi gender bərabərliyinə dair qlobal gündəlikdə artıq öz əksini tapıb. Bu onunla əlaqədardır ki, kişilərin gender normalarına dair yanaşması onların davranışına böyük təsir göstərərək adətən qadın və qızlara ciddi zərərlə nəticələnir. Məsələn, əgər kişilərin cinsi əlaqələrdə əsas söz sahibi olması bir norma kimi qəbul edilirsə, qadınların bu baxımdan öz sərbəstliyini müəyyən dərəcədə itirərək fiziki və cinsi zorakılığa məruz qalması mümkündür. Adətən bu cür normalar eyni zamanda kişilər və oğlanlar üçün də zərərlidir: əgər gender əsaslı iş bölgüsünə dair normalar uşağa qulluğun kişiyə yaraşan iş olmadığını nəzərdə tutursa, nəsillər boyu kişilərin gənclərlə qura biləcəyi empatik bağlar yetərincə formalaşmayacaq. Bundan başqa, kişilərin gender bərabərliyinin təşviqində tərəf-müqabili və müttəfiq kimi cəlb olunmaması qadınların və qızların bununla əlaqədar olan yükünü daha da artıraraq onların qlobal ədalətsizliklərlə təkbaşına üzləşməsi və kişilərin dəyişən mənafelərinə uyğun hərəkət etmək imkanlarının azalması ilə nəticələnə bilər.[3] Əsas tərəfdaşların böyük əksəriyyəti kişi və oğlanların gender bərabərliyinin təşviqi işinə cəlb olunmasının vacibliyini qəbul etsə də, Azərbaycan kontekstində kişilərin bu məsələyə yanaşması, davranışı və qarşıya qoyulmuş məqsədə hansı yollarla nail olmasını müəyyən edən tədqiqat aparılmayıb. Kişilərin atalıq məzuniyyəti götürməklə usağın tərbiyəsi və

[1] UNFPA/BMTİP "Əhalinin vəziyyətinin təhlili: Azərbaycanda demoqrafik keçiddən sonra", 2015-ci il, Bakı, Azərbaycan.

[2] Yuxarıda qeyd olunan mənbə.

[3] Barker və başqaları (2011); Heilman və başqaları (2014).

ev işləri ilə əlaqədar öhdəlikləri qadınlarla ədalətli şəkildə bölüşdürməklə, gender bərabərsizliyinin onların da imkanlarını məhdudlaşması yolları barəsində danışmaqla, gender bərabərliyini təmin etmək məqsədilə müvafiq qanunvericilik aktlarının və siyasətlərin işlənib hazırlanması və tətbiq edilməsini dəstəkləməklə, ailədə, işdə və ümumiyyətlə cəmiyyətdə gender bərabərliyinin təşviqi üçün bir nümunə rolunu oynamaqla gender bərabərliyinə nə üçün və necə dəstək verməsini dərk etmək çox vacibdir. Başqa sözlə, müasir Azərbaycan cəmiyyətində gender bərabərliyi ilə bağlı mövcud münasibətləri, fikirləri və təcrübəni özündə əks etdirən konkret, etibarlı empirik məlumatların çatışmazlığı müşahidə olunur. Kişilərin gender bərabərliyinə münasibətinə dair Tədqiqatın (IMAGES) məqsədlərindən biri bu sahədəki biliklər baxımından mövcud boşluqları dolduraraq, müvafiq müdaxilələrin formalaşması məqsədilə işlək tövsiyələri müəyyən etməkdən ibarətdir.

## 1.2. Problemin qoyuluşu və tədqiqat sualları

"IMAGES" tədqiqatının əsas məqsədi gender bərabərliyi, cinsi və reproduktiv sağlamlıq, zorakılığın qarşısının alınması, o cümlədən, kişi və oğlanların maarifləndirilməsi də daxil olmaqla onların iştirakını nəzərdə tutan tədbirlərin həyata keçirilməsini təşviq edən siyasət və proqramlar işləyib hazırlamaq üçün kişi və qadınların bu məsələyə yanaşma və münasibətini öyrənməkdən ibarətdir. Azərbaycanda gender münasibətlərinə həsr olunmuş bir neçə tədqiqat olsa da, yuxarıda qeyd olunduğu kimi, gender münasibətlərinin çoxsaylı aspektlərinə dair kişi və qadınların nöqteyi-nəzərini əks etdirən yeni və müfəssəl məlumatlar hələ ki, mövcud deyildir. Gender bərabərliyinə aid çoxsaylı vacib məsələlərlə bağlı kişi və qadınların fikir və yanaşmalarını araşdıran kəmiyyət və keyfiyyət əsaslı tədqiqat üsullarından ibarət "IMAGES" tədqiqatı öz əhatə dairəsinə görə unikal və önəmli xarakter daşıyır. Bu tədqiqat Azərbaycanda gender bərabərliyi ilə əlaqədar kişilərin rolu barədə əsaslı biliklər baxımından mövcud boşluqların doldurulmasını mümkün edir.

Aparılmış tədqiqat və bu tədqiqat nəticəsində hazırlanmış hesabatın əsas məqsədi aşağıda qeyd edilmiş iki əsas sualı cavablandırmaqdan ibarət olub:

- Azərbaycan kontekstində "kişilik" anlayışı və kişilərə xas rollar da daxil olmaqla gender rolları, münasibətlər və gender dinamikası necə formalaşır?
- Bu proses gender əsaslı zorakılıq, cinsi və reproduktiv sağlamlıq və hüquqlar, habelə ev, qayğı, ictimai həyat və bir sıra digər sahələrdə təzahür edən bərabərlik məsələləri ilə nə şəkildə əlaqəlidir?

Tədqiqat gender münasibətləri, uşaqlıq təcrübəsi, ev təsərrüfatının dinamikası, valideynlik və qayğı təcrübəsi, zorakılıqdan istifadə və zorakılığa məruz qalma, cinsi və reproduktiv sağlamlıqla bağlı inanclar və təcrübə, həmçinin gender bərabərliyini təşviq edən siyasətə kişi və qadınların münasibəti kimi məsələləri əhatə edib.

## 1.3. Konseptual çərçivə

"Gender" termini "cəmiyyət daxilində müvafiq kişi və qadın rolları, vəzifələri və davranışı, habelə qadınlarla kişilər arasında olan qarşılıqlı münasibətlərlə bağlı geniş şəkildə qəbul olunmuş gözlənti və normaları" ifadə edir.[4] Bu baxımdan "gender" termini "kişilik" və "qadınlıq" anlayışları, qadınlarla kişilər arasında mövcud olan münasibətlər iyerarxiyası və bu münasibətlərə zəmin yaradan mühiti əhatə edir. Beləliklə bu tədqiqat genderin münasibətlər və struktural kontekst çərçivəsi, həmçinin "kişilik" prizması ətrafında qurularaq, kişilərin nə cür sosiallaşması, kişi rollarının sosial cəhətdən nə cür təşkil olunması (qadın rolları ilə daimi qarşılıqlı əlaqəni nəzərə alaraq) və bu rolların və müvafiq güc münasibətləri dinamikasının həyat boyu və müxtəlif sosial kontekstlərdə nə cür dəyişməsini araşdırır.[5] Öz növbəsində "kişilik" konsepsiyasının bu cür qoyuluşu müxtəlif kişilər və onların əsas maddi təminatçı və daimi işi olan şəxslər olması ilə bağlı gözləntilər də daxil olmaqla "kişiliyin" müvafiq tələblərinə uyğun olmaq üçün üzləşdikləri təzyiqlər, eyni zamanda, bu rollar və güc münasibətləri dinamikasının tarixən müxtəlif sosial kontekstlərdə və gender və gender əsaslı bərabərsizliyin müxtəlif formalarının təzahür etdiyi müxtəlif sahələrdə necə dəyişməsini tədqiq etməyə vadar edir.[6] Qeyd etmək lazımdır ki, son zamanlar dünyanın müxtəlif yerlərində aparılmış tədqiqatlar nəticəsində kişilik konsepsiyasının yeni formalarının yaranması müşahidə olunub ki, bu formalar nisbətən

[4] Qupta (2000), Barker və başqalarından götürülmüşdür (2011).
[5] Konnell (1994).
[6] Barker və Polak (2011).

daha az zülmkarlıq və avtoritarlıqla seçilən "kişiliyin" yenidən müəyyən edilməsi ilə səciyyələnir. Bütün bu amillər bir daha təsdiq edir ki, xüsusən də inkişafın zəif olduğu mühitlərdə kişilərin gender bərabərliyinə münasibəti və təcrübəsini daha yaxşı dərk etmək həddindən artıq zəruridir.[7]

Nisbi perspektivlərin mahiyyətini nəzərə alaraq, "IMAGES" tədqiqatı kişi və qadınların bu məsələlərə dair düşüncə tərzi və təcrübələrində olan fərqləri nəzərə alaraq, həm kişiləri, həm də qadınları əhatə etmişdir.[8] Biz, qadınlar və kişilər tərəfindən verilmiş cavabları müqayisə edib bu hesabata daxil edərək qadınlara və ya kişilərə məxsus cavabların daha etibarlı olduğunu müəyyən edən yanaşmadan istifadə etmirik. Hər hansı bir məsələ ilə bağlı qadınlar və kişilər tərəfindən verilmiş məlumatlar əhəmiyyətli dərəcədə fərqləndikdə bunun səbəbləri araşdırılıb.

# 2. TƏDQİQAT METODLARI

"IMAGES" Azərbaycan tədqiqatının aparılması zamanı həm kəmiyyət sorğusundan, həm də keyfiyyət əsaslı müsahibələrdən ibarət qarışıq metodlardan istifadə olunub. Hesabatın bu hissəsində, məlumatların toplanması və təhlilili zamanı tətbiq edilmiş metodlar təsvir edilir.

## 2.1. Tədqiqat əraziləri və seçmə prosesi

***2.1.1. Kəmiyyət əsaslı tədqiqat***

Kəmiyyət məlumatları Azərbaycanın üç şəhər və əyalət bölgəsində yaşayan 18-59 yaş arası kişi və qadınlardan toplanıb:

* Bakı və Sumqayıt şəhərləri və Abşeron rayonu daxil olmaqla Bakı-Abşeron regionu;
* Gəncə şəhəri, Ağstafa, Qazax və Tovuz rayonları daxil olmaqla Gəncə-Qazax regionu;
* Şirvan şəhəri, Sabirabad, Saatlı və İmişli rayonları daxil olmaqla Aran regionu.

Bu ərazilər tədqiqat zamanı coğrafi və ya şəhər/rayon müxtəlifliyini təmsil edəcək məlumatların toplanması məqsədi ilə seçilib.

Tədqiqat zamanı ikimərhələli təsadüfi seçmə üsulundan istifadə olunub. Birinci mərhələdə 30 əsas seçmə vahidi təsadüfi olaraq seçilib (21 kişi və 9 qadın respondentin seçilməsi üçün). Bu cür seçim sorğunun keçirildiyi üç ərazinin hər birində yaşayan əhalinin sayına mütənasib qaydada aparılıb. İkinci mərhələdə əsas seçmə vahidlərindən 30 potensial respondent təsadüfi seçim əsasında müəyyən olunmuş və 10 müsahibə aparılıb. Əvvəlcədən seçilmiş respondentlərin sayının çox olması cavab verməmə hallarının ehtimal edilməsi ilə izah olunur.

Ümumi cavab vermə səviyyəsi 73,8% təşkil edib (71,1% kişilərdə və 80,7% qadınlarda). Respondentin xəstə olması, əlçatan olmaması (məsələn, şəhərdə və ya evdə olmaması), qapını açmaması və ya sorğuda iştirak etməkdən imtina etməsi, habelə sorğunun vaxtından əvvəl başa çatması sorğuda iştirakdan imtina hallarının səbəbləri kimi verilib. Seçmə prosesi barədə ətraflı məlumat Əlavə 1-də verilib.

***2.1.2. Keyfiyyət əsaslı tədqiqat***

Keyfiyyət əsaslı tədqiqatin əsas məqsədi nəsilartırma, ailə planlaşdırılması, kontrasepsiyadan istifadə, erkən nikah, oğlan uşağına verilən üstünlük və ailənin formalaşması məsələləri ilə bağlı qadınların və kişilərin təcrübəsini dərindən öyrənməkdən ibarət olub.

[7] Barker (2000); Konnell (2005); Sideris (2004), Levtov və başqalarından götürülmüşdür (2014).
[8] Barker et al. (2011).

Keyfiyyət əsaslı məlumatların toplanması uşaq sahibi olan 29-40 yaş arası 12 kişi və 12 qadın arasında aparılmışdır. Tədqiqatın parametrlərini nəzərə alaraq gənc və subay kişi və qadınlar sorğunun bu komponentinə daxil edilməyib.

Keyfiyyət əsaslı müsahibələr üçün aparılmış seçmə prosesi qeyri-formal xarakter daşıyıb və iştirakçılar tədqiqatçının şəxsi əlaqələri əsasında müəyyən edilib. Bununla yanaşı, müsahibələrdə iştirak etmiş respondentlər kəmiyyət əsaslı tədqiqatda iştirak etmək üçün seçilməyib. Respondentlərin məxfiliyini və təhlükəsizliyini təmin etmək məqsədilə müsahibənin qadın və kişi iştirakçılarının bir ailədən olmaması şərti əsas götürülüb. Bəzi mövzuların mədəni baxışlar səbəbindən həssas olduğunu nəzərə alaraq iştirakçıların şəxsi hekayələri, baxışları, təcrübə və münasibətlərinə dair məlumatların toplanması məqsədi ilə müfəssəl müsahibələrin keçirilməsi optimal variant hesab olunub. Üç növ məlumatın – ərazilərdə edilmiş qeydlərin, audio yazıların və stenoqramların təhlili aparılıb. Müsahibəyə başlamazdan əvvəl iştirakçılar tədqiqat barədə məlumatlandırılıb və onların razılığı əldə olunub. Keyfiyyət əsaslı müsahibələrin hər biri şəhərlərdə (Bakı və Sumqayıt şəhərlərində) aparılıb.

## 2.2. Metodlar və prosedurlar

### *2.2.1. Kəmiyyət əsaslı tədqiqat*

Kəmiyyət əsaslı məlumatların toplanılması məqsədi ilə tədqiqatçılar "IMAGES" sorğu-anketinin Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı ilə "Promundo-US" təşkilatı, Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəz (STBM) və BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi (UNFPA) tərəfindən yerli şəraitə uyğunlaşdırılmış variantından istifadə ediblər. Bu sorğu-anketi Azərbaycanın mövcud kontekstinə uyğun olaraq gender, erkən nikahlar və cins əsasında edilən selektiv abortlara olan münasibətlər də daxil olmaqla xüsusi aktuallıq təşkil edən məsələləri əks etdirmək məqsədi ilə yerli şəraitə uyğunlaşdırılıb. Sorğu-anketləri Azərbaycan dilinə tərcümə edildikdən sonra müxtəlif sosial-demoqrafik qruplara mənsub olan 20 respondentlə ilkin sınaqdan keçirilib. İlkin sınaqdan keçirilmiş sorğu-anketinin mətninə yenidən baxılaraq düzəlişlər edilib.[9]

2016-cı ilin fevral-aprel aylarında 18-59 yaş arası 631 kişi və 271 qadın respondentdən məlumat toplama işi aparılıb. Kəmiyyət sorğularının aparılması və gender məsələləri sahəsində təcrübəsi olan və təlim keçmiş 14 müsahibəçi kağız sorğu-anketindən istifadə etməklə hər bir respondentlə onun evində üz-üzə sorğu keçirib. Sualların həssas xarakterini nəzərə alaraq, habelə səciyyəvi İMAGES prosedurlarına uyğun olaraq müsahiblərin və müsahibəçilərin həmcins olması təmin olunub və beləliklə qadın müsahibəçilər yalnız qadınlardan, kişi müsahibəçilər isə yalnız kişilərdən müsahibə götürüblər.

Layihə əlaqələndiricisi və sahə işləri üzrə nəzarətçilər doldurulmuş sorğu-anketlərini nəzərdən keçirməklə və bütün sorğu məlumatlarının təxminən 20%-ni təkrar yoxlamaqla məlumatların keyfiyyətini mütəmadi olaraq dəyərləndiriblər. Məlumatların sistemə daxil olunması zamanı buraxılmış texniki səhvləri aşkar etmək məqsədi ilə məlumatların sistemə iki dəfə daxil edilməsi prosesi həyata keçirilib.

### *2.2.2. Keyfiyyət əsaslı tədqiqat*

Respondentlərlə onların evində həmcins müsahibəçi tərəfindən aparılmış yarımstrukturlu, müfəssəl müsahibələr vasitəsilə kəmiyyət əsaslı məlumatlar toplanıb. Məlumatların toplanması 2015-ci ilin dekabr və 2016-cı ilin yanvar aylarında həyata keçirilib. Respondentlərə onların nikah münasibətlərinin və təcrübəsinin tarixi, nəsilartırma və kontrasepsiya, hamiləlik və uşaqların tərbiyəsi barədə suallar verilib. Təxminən 25-30 dəqiqə davam edən müsahibələrin protokolu və audioyazısı aparılıbdır. Tədqiqatçılar müxtəlif sahələr üzrə toplanmış məlumatların etibarlılığını və mötəbərliyini təmin etmək məqsədi ilə kəmiyyət sorğusu vasitəsilə əldə olunmuş məlumatları trianqulyasiya etmək üçün keyfiyyət əsaslı məlumatların təhlilindən əldə edilmiş nəticələrdən istifadə ediblər. Müsahibələr respondentlərlə həmcins müsahibəçilər tərəfindən məxfi şəkildə aparılıb. Keyfiyyət əsaslı məlumatlar ailənin formalaşması, oğlan uşağına verilən üstünlük, erkən nikah və gender bərabərliyi kimi məsələlər də daxil olmaqla cinsi və reproduktiv sağlamlıqla bağlı qərar qəbuletməyə dair bəzi nüanslı proseslərin kontekstləşdirilməsi və mənimsənilməsində yardımçı olub.

[9] Sorğu-anketin uyğunlaşdırılması prosesinin təfərrüatları ilə tanış olmaq üçün Əlavə 2-yə baxın.

## 2.3. Etik mülahizələr

Tədqiqatın aparıldığı müddətdə zorakılıq məsələlərininin araşdırılmasına dair standart etik prosedurlara riayət olunub. Tədqiqatçılar eyni evdə yaşayan kişi və qadınlarla müsahibələrin aparılmaması üçün fərqli qruplara aid olan kişi və qadınlar arasında seçim aparıblar. Respondentlərin hər biri sorğunun məqsədi və prosedurları, onların müsahibələrdə könüllü iştirakı, istənilən anda müsahibəni dayandırmaq və hər hansı sualı cavablandırmaqdan imtina etmək hüququna malik olmaları barədə tam olaraq məlumatlandırılıb. Müsahibələrin məxfiliyi ciddi şəkildə təmin olunub. Məlumatların toplanması prosesinə başlamazdan əvvəl müsahibəçilərə gender, zorakılıq, habelə gender və kişilik məsələlərinin araşdırılmasına dair etik prosedurlar, həssas sualların verilməsi yolları, və çətin vəziyyətə düşmüş respondentlərlə işləmək metodlarına dair təlimlər keçirilib.

## 2.4. Məlumatların təhlili

Bu hesabatda həm keyfiyyət, həm də kəmiyyət əsaslı tədqiqatın nəticələri təqdim olunur. Kəmiyyət əsaslı tədqiqatın tərkib hissəsi əsasən təsviri statistika və iki ölçülü təhlildən ibarətdir. Məlumatların təhlili zamanı Sosial Elmlər üçün Statistika Paketindən (SPSS) istifadə edilmiş və təsviri cədvəllər və diaqramlar yaradılıb. Bundan əlavə, t-testləri və X2-testlərindən istifadə edilib və maraq doğuran dəyişənlər arasında əlaqələri sınaqdan keçirmək üçün reqressiya təhlili metodu tətbiq edilib.

Keyfiyyət əsaslı tədqiqatın aparılması zamanı tədqiqatçılar deduktiv yanaşmadan və çərçivə təhlilindən istifadə ediblər. Keyfiyyət əsaslı tədqiqatın nisbətən geniş əhatəyə malik kəmiyyət əsaslı tədqiqatın bir komponenti hesab olunduğunu nəzərə alaraq, daha çox ümumi xarakterli və açıq suallardan başlayıb daha dəqiq və sonradan ortaya çıxa biləcək məlumatlara keçməklə tədqiqat sualları məlumatları qruplaşdırmaq və oxşarlıqlar və fərqləri tədricən müəyyən etmək üçün istifadə olunub. Tədqiqatçılar strukturlaşdırılmış məlumatları işarələmiş və kodlaşdırmiş, eyni zamanda növbəti təhlillər üçün çərçivə müəyyən ediblər. Tədqiqatçılar əsas istiqamətləri müəyyən etdikdən sonra tədqiqat suallarını araşdırıblar.

# 3. TƏDQİQATIN NƏTİCƏLƏRİ

## 3.1. Seçmənin xüsusiyyətləri

Kəmiyyət seçməsinin demoqrafik xüsusiyyətləri Cədvəl 1-də təqdim olunur. Ümumi respondentlərin (həm kişilərin, həm də qadınların) təxminən üçdə biri kənd sakinlərdindən ibarət idi. Kişi və qadınların orta yaş həddi hər iki qrupda 39,8 olmaqla eynilik təşkil edirdi. Qadınlarla müqayisədə ən azı orta və ya daha yüksək təhsilə malik olan kişilərin sayı bir qədər çox idi. Eyni zamanda natamam orta təhsili olan qadınların sayı çoxluq təşkil edirdi (2,5% kişi ilə müqayisədə 8,1% qadın). Sorğuda iştrak etmiş qadınların üçdə birindən çoxu heç vaxt işləməyib, kişilərin isə təxminən hamısı keçmişdə işləyib. Hal-hazırda formal və ya qeyri-formal qaydada işləyən kişilərin sayı qadınlardan daha çox olduğu halda, onların demək olar ki, yarısı bu işin "əsasən stabil" olmadığını bildirib. Oxşar cavab vermiş qadınlar sayı yalnız 30% təşkil edib. Kişilərin dörddə üçündən bir az çoxu və qadınların üçdə ikisi nikahda olduğunu bildirib və təxminən eyni nisbətdə kişi və qadın sorğu keçirildiyi zaman subay olduğunu qeyd edib. Respondentlərin demək olar ki, hamısı müsəlman idi.

## Cədvəl 1. Kəmiyyət seçməsinin xüsusiyyətləri

| | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|
| | S | % | S | % |
| **Yaşayış məntəqəsinin növü** | | | | |
| Paytaxt şəhər | 171 | 27.1 | 71 | 26.2 |
| (Əhalisinin sayı 100.000 nəfərdən 1.000.000 nəfərədək olan) böyük şəhər | 140 | 22.2 | 50 | 18.5 |
| (Əhalisinin sayı 100.000 nəfərdən az olan) kiçik şəhər | 100 | 15.8 | 60 | 22.1 |
| Kənd yeri | 220 | 34.9 | 90 | 33.2 |
| **Yaş qrupu** | | | | |
| 18-24 | 68 | 10.8 | 34 | 12.5 |
| 25-34 | 173 | 27.4 | 71 | 26.2 |
| 35-49 | 218 | 34.5 | 89 | 32.8 |
| 50-59 | 172 | 27.3 | 77 | 28.4 |
| **Təhsil səviyyəsi** | | | | |
| İbtidai və ya daha aşağı | 4 | 0.6 | 5 | 1.8 |
| Natamam orta | 12 | 1.9 | 17 | 6.3 |
| Tam orta | 321 | 50.9 | 129 | 47.6 |
| Xüsusi peşə | 132 | 20.9 | 62 | 22.9 |
| Ali | 162 | 25.7 | 58 | 21.4 |
| **Məşğulluq vəziyyəti** | | | | |
| Heç vaxt işləməyib | 1 | 0.2 | 97 | 35.8 |
| Tələbə | 13 | 2.1 | 13 | 4.8 |
| İşsiz | 73 | 11.6 | 49 | 18.1 |
| Formal işsiz | 220 | 34.9 | 69 | 25.5 |
| Qeyri-formal işsiz | 303 | 48.0 | 29 | 10.7 |
| Təqaüdçü | 21 | 3.3 | 8 | 3.0 |
| Hal-hazırda təhsil alan və işləyən | 0 | 0.0 | 1 | 0.4 |
| Hal-hazırda analıq məzuniyyətində və ya digər növ məzuniyyətdə olan | 0 | 0.0 | 5 | 1.8 |
| **Məşğulluq vəziyyəti əsasən stabildir (razı və ya tamamilə razı olan)** | 265 | 49.3 | 78 | 70.9 |
| **Ailə vəziyyəti** | | | | |
| Hal-hazırda qeydiyyata alınmış nikahda olan | 490 | 77.7 | 186 | 68.6 |
| Hal-hazırda qeydiyyata alınmamış nikahda (kəbinli) olan | 14 | 2.2 | 6 | 2.2 |
| Subay | 114 | 18.1 | 51 | 18.8 |
| Ayrı yaşayan və ya boşanmış | 7 | 1.1 | 13 | 4.8 |
| Dul | 6 | 1.0 | 15 | 5.5 |
| **Dini mənsubiyyət** | | | | |
| Müsəlman | 620 | 98.2 | 298 | 98.9 |
| Pravoslav xristian | 1 | 0.2 | 2 | 0.7 |
| Dinsiz (ateist/aqnostik) | 10 | 1.6 | 1 | 0.4 |
| **CƏMİ (S)** | 631 | | 271 | |

### *3.1.1. Keyfiyyət sorğusu seçməsinin xüsusiyyətləri*

Keyfiyyət sorğusunun iştirakçıları 29-39 yaş arası 12 kişidən və 30-40 yaş arası 12 qadından ibarət idi. Kişilərin orta yaş həddi 32,5, qadınların isə 35,8 idi. Orta hesabla kişilərin 80, qadınların isə 65%-i ali təhsilli idi. Kişilər üçün orta nikah yaşı 26, qadınlar üçün isə bu rəqəm 22-yə bərabər idi; ilk uşağın doğumu zamanı kişilərin orta yaş həddi 27, qadınların orta yaş həddi 23 idi.

## 3.2. Gender məsələlərinə münasibət

Kişi və qadınların müvafiq rollarına dair münasibət və bunlarla bağlı mövcud normalar insan həyatının bütün aspektlərində onun davranış və təcrübəsini formalaşdırır. Respondentlərin gender münasibətləri və gender rolları, eyni zamanda gender bərabərliyi ilə bağlı fikir və münasibətləri bu bölmədə təqdim olunur. Gender və ya kişi və ya qadın olmaqla bağlı bəzi stereotiplər Azərbaycan kişi və qadınlarının şüurunda dərin köklər salıb. Cədvəl 2-də təqdim olunmuş məlumatlar göstərir ki, Azərbaycanda qadınlarla müqayisədə daha çox kişi gender ilə bağlı stereotiplərlə razı olduğunu bildirir.

### *Cədvəl 2. Gender rolları və vəzifələrinə münasibət*

| | Kişilər | Qadınlar |
|---|---|---|
| **Gender rolları və vəzifələri** | | |
| Qadının ən vacib rolu ev işlərindən və ailə üçün yemək hazırlamaqdan ibarətdir.* | 69.9 | 41.3 |
| Uşaqları olan qadın ümumiyyətlə evdən kənarda əmək fəaliyyəti ilə məşqul olmamalıdır | 57.2 | 37.2 |
| Uşağın bezini dəyişmək, uşaqları çimizdirmək və yedizdirmək kimi işlər ananın vəzifəsidir.* | 93.4 | 82.3 |
| Evdə qəbul olunan qərarlarla bağlı son sözü kişi deməlidir.* | 91.2 | 75.3 |
| Kişilər qabların yuyulması, təmizliyin aparılması və yemək hazırlamaq kimi ev işlərində qadınlara kömək etməlidir. | 53.4 | 72.3 |
| Kişilər körpələrin qayğısına qala bilmir * | 73.7 | 73.1 |
| Uşaqlar üçün gündəlik qayğı onların maddi təminatı qədər vacibdir. | 90.1 | 97.0 |
| Təhsil üçün ayrılan pul az olduqda, onu oğlan uşağına xərcləmək daha yaxşı olardı. | 37.2 | 21.4 |
| Gəliri olmayan kişinin heç bir dəyəri yoxdur. | 52.9 | 47.6 |
| Yaxşı qadın razı olmadığı hallarda belə ərinin fikir və qərarlarını heç vaxt şübhə altına qoymaz. | 76.2 | 79.6 |
| Boşanmış qadının heç bir dəyəri yoxdur. | 33.4 | 34.3 |
| **Seksuallıq və reproduktivlik** | | |
| Qadınlardan çox kişilərin cinsi əlaqəyə ehtiyacl var .* | 60.6 | 63.9 |
| Kişilər həmişə cinsi əlaqəyə hazırdır.* | 69.9 | 77.5 |
| Hətta arvadı ilə problemi olmayan kişiyə başqa qadınlar lazımdır.* | 43.6 | 33.1 |
| Qadın nikaha qədər bakirə qalmalıdır. | 98.8 | 98.1 |
| Arvadımın/ərimin məndən kondomlardan istifadə etmək xahişi məni qəzəbləndirərdi.* | 49.5 | 25.5 |
| Ər və arvad uşaq dünyaya gətirmək qərarını birgə verməlidir.* | 95.7 | 94.9 |
| Hamiləlikdən qorunmaq qadının məsuliyyətidir.* | 35.1 | 19.6 |
| Özləri ilə kondom gəzdirən qadınlar “asan əldə edilən” hesab olunur.* | 76.1 | 60.3 |
| Qadın övladı olduğu halda əsl qadındır. | 16.7 | 14.8 |
| Əsl kişinin oğlu olmalıdır. | 39.0 | 23.2 |

*** Azərbaycan şəraitinə uyğunlaşdırılmış Kişilərin Gender Bərabərliyinə Dəstəyi (GEM) Şkalasına aid məsələlər Bölmə 3.2.1-də təqdim olunan mürəkkəb ölçülər sırasına daxil edilib.**

“Kişilik” anlayışı kişinin öz ailəsini ilk növbədə maddi cəhətdən təmin etmək bacarığı ilə əlaqələndirilir. Beləliklə, sorğuda iştirak etmiş kişilərin və qadınların təxminən yarısı “gəliri olmayan kişinin heç bir dəyəri yoxdur” fikiri ilə razılaşıb. Bundan əlavə, kişi respondentlərin 90%-dən çoxu və qadın respondentlərin dörddə üçü “kişi olmaq evdə qərar qəbuletmə səlahiyyətinə malik olmaq deməkdir” fikri ilə razılaşıb. Qadınların rolu barədə ənənəvi fikirlər də insanlar arasında geniş yayılıb. Həm kişi, həm də qadınların böyük bir hissəsi “yaxşı qadın razı olmadığı hallarda belə ərinin fikir və qərarlarını heç vaxt şübhə altına qoymaz” fikri ilə razılaşıb. Beləliklə, respondentlərin əksər hissəsi üçün “qadınlıq” anlayışının kişiyə itaət etmə və tabe olma kimi xüsusiyyətlərlə sıx əlaqəli olduğu qənaətinə gəlmək olar.

Bundan başqa, kişilər və nisbətən az sayda qadın hesab edir ki, ev işləri ilə məşğul olmaq və qayğı göstərmək hətta bəzən evdən kənarda işləyən qadına məxsus rolun bir hissəsidir. Kişilərin 70%-ə yaxın bir hissəsi və qadınların təxminən 40%-i qadının əsas rolunun evin qayğısına qalmaq və ailəsi üçün yemək hazırlamaqdan ibarət olması fikiri ilə razı və ya tamamilə razı olduğunu bildirib. Bununla yanaşı, kişilərin 57,2, qadınların isə 37,2%-i hesab edir ki, evində uşaqları olan qadın işləməməlidir. Anoloji olaraq, kişilərin  və qadınların  böyük əksəriyyətinin (müvafiq olaraq 93,4 və 82,3%) qənaətinə görə körpənin bezini dəyişmək, onu çimizdirmək və uşaqları yedizdirmək ananın vəzifəsidir.

Bütün bunlara baxmayaraq, əldə olunmuş nəticələr bu cür münasibətlərdə müsbət dəyişikliklərin mümkünlüyünə işarə edir. Kişilərin yarısından çoxu və qadınların dörddə üçü əmindir ki, kişilər ev işlərində (məsələn, yemək hazırlamaqda, təmizlik və mətbəx işlərində) kömək etməlidir, habelə kişilərin və qadınların təxminən hamısı uşaqlar üçün gündəlik qayğının göstərilməsinin onların maddi təminatı kimi vacib bir iş olması fikri ilə razıdır. Bu cür qənaətlər kişilərin və qadınların ev işləri və qayğı ilə bağlı rollarına olan münasibətlərinin dəyişməsi istiqamətində həyata keçiriləcək proqramlar üçün bir əsas kimi istifadə oluna bilər. Lakin, ilk növbədə bəzi ziddiyyətli məqamlara diqqət yetirilməlidir (məsələn, kişilərin və qadınların təxminən dörddə üçünün ümumi qənaətinə görə kişilər uşaqların qayğısına qala bilmir).

Cinsi əlaqələr və reproduktivlik məsələlərinə olan münasibətlər də kişi və qadınların davranışlarında öz əksini göstərir. Dünyanın bir çox ölkəsində olduğu kimi Azərbaycanda da hegemon kişi güc və nəzarətlə əlaqələndirilir, qadın isə passiv olaraq qəbul edilir.[10] Sorğuda iştirak etmiş kişi və qadın respondentlərin təxminən üçdə ikisi “qadınlardan çox kişilərin cinsi əlaqəyə ehtiyacı var” fikri ilə razılaşıb. Eyni zamanda kişilərin 69,9 və qadınların 77,5%-i “kişilər həmişə cinsi əlaqəyə hazırdır” fikri ilə razılaşıb. Bütün bunlarla yanaşı kişilərin təxminən yarısı, qadınların isə üçdə biri “kişiyə bir neçə seksual partnyor lazımdır” fikrini dəstəkləyib. Qadının seksuallığı ilə bağlı digər bir ortaq məxrəc kişi və qadın respondentlərin təxminən hamısının qadının nikaha qədər bakirə qalmasının güclü tərəfdarı olması ilə bağlı olub.

Kişilərin və qadınların təxminən hamısı uşaq dünyaya gətirmək barədə qərarın birgə qəbul edilməsi fikri ilə razılaşsa da, onların böyük bir hissəsi (kişilərin 35,1, qadınların isə 19,6%-i) hamiləlikdən qorunmağın qadının məsuliyyəti olduğunu bildirib.

### 3.2.1. Kişilərin Gender Bərabərliyinə Dəstəyi (GEM) Şkalası

Kişilərin və qadınların çoxsaylı sahələr üzrə genderə münasibətini daha yaxşı qiymətləndirmək məqsədi ilə Kişilərin Genderə Bərabərliyinə Dəstəyi  (GEM) Şkalası Azərbaycan kontekstinə uyğunlaşdırılıb “GEM” Şkalası gender rolları, cinsi münasibətlər, zorakılıq və qayğı göstərmə məsələlərinə olan fikir və münasibəti qiymətləndirən bir sıra komponentlərdən təşkil olunub. Bu şkala 20-dən çox ölkədə aparılmış digər tədqiqatlarda geniş şəkildə tətbiq edilib və özünü doğruldub.[11] Davamlı dəyişən olaraq təşkil olunmuş “GEM” Şkalasında seçilmiş komponentlər üzrə münasibətləri özündə əks etdirən cavabların cəmi hasil olunur ki, burada ən yüksək ballar daha düzgün münasibəti müəyyən edir. Azərbaycan üzrə 11 komponentdən ibarət “GEM” Şkalasının balları 11-dən 44-dək dəyişir.[12]

Əsas demoqrafik dəyişənlər üzrə “GEM” Şkalasının balları Cədvəl 3-də təqdim olunur. “GEM” Şkalası üzrə əldə edilmiş ümumi ballar Azərbaycanda kişilərlə müqayisədə daha çox qadının gender bərabərliyini dəstəkləyən münasibətini göstərir. “GEM” Şkalası üzrə ballar respondentlərin yaşından və təhsil səviyyəsindən asılı olaraq dəyişir: yaş üzrə fərqlərin kəmiyyət olaraq o qədər də əhəmiyyət daşımamasına baxmayaraq daha gənc və

[10] BMTİP Azərbaycan (2007).

[11] Puleruits və Barker (2008); Sinqh və başqaları (2013).

[12] “IMAGES” tədqiqatı Azərbaycanda aparılarkən “GEM” Şkalasının təşkili prosesi aşağıdakı kimi aparılıb: 1) düzgün başa düşülməyən, tamamilə genderləşmiş və ya kifayət qədər məlumat çatımazlığı olan komponentlər çıxarılıb; 2) kişilərin bir faktorlu həlli olan məlumatlarını özündə əks etdirən qalan komponentlərin polixronik korrelyasiya cədvəli əsasında faktor təhlili aparılıb (təkrar təhlil aparılmazdan əvvəl göstəricisi 0,35-dən yüksək olan faktorlar saxlanılıbr, bütün digər faktorlar isə çıxarılıb); və  3) qadınların cavablarından əldə edilən modeli sınaqdan keçirilib. Qənaətbəxşlik yaratmayan komponentlər çıxarılıb.İki modeldən irəli gələn nəticələrin ölçüləri üzrə alfa həm qadın, həm də kişilərin məlumatlarına aid ölçülər üzrə 0,78 bal təşkil edib.

savadlı respondent bir qayda olaraq daha çox gender bərabərliyini dəstəkləyən baxışlara malikdir. Kişilər arasında ən gənc yaş qrupuna aid olanlar (18-24 yaşında olanlar) daha çox gender bərabərliyini dəstəkləyən baxışlara malik olsalar da, gender bərabərliyini ən az dəstəkləyən (ən yaşlı yaş qrupundan, 50-59 yaşında olan) qadınlarla müqayisədə onların "GEM" Şkalası üzrə balları yenə də azdır. Qadınlara gəldikdə, daha gənc nəslin nümayəndələri arasında gender bərabərliyinə dəstək verənlər nisbətən çoxdur. Təhsili daha yüksək olan kişi və qadınlar üçün "GEM" Şkalası üzrə orta ballar ən yüksək idi. Respondentlərin sayının az olduğunu nəzərə alaraq natamam orta və ya bundan da aşağı təhsili olan respondentlərdən ibarət qrupların balları ehtiyatla şərh edilməlidir.

### *Cədvəl 3. Əsas demoqrafik dəyişənlər üzrə Kişilərin Gender Bərabərliyinə Dəstəyi (GEM) Şkalası üzrə orta ballar**

| | Kişilərin orta balları | Qadınların orta balları |
|---|---|---|
| Cinsi mənsubiyyət | 27,29 | 30,02 |
| Yaş qrupu | | |
| 18-24 | 28,02 | 31,75 |
| 25-34 | 27,50 | 30,03 |
| 35-49 | 26,76 | 30,18 |
| 50-59 | 27,48 | 29,12 |
| Təhsil səviyyəsi | | |
| İbtidai və ya daha aşağı | 26,25 | 31,60 |
| Natamam orta | 24,08 | 30,12 |
| Tam orta | 26,41 | 29,09 |
| Xüsusi peşə | 27,74 | 29,74 |
| Ali | 28,94 | 32,19 |

*** "GEM" Şkalası üzrə ballar 11-dən 44-dək dəyişir və daha yüksək ballar gender bərabərliyini daha çox dəstəkləyən münasibətin göstəricisidir.**

#### *3.2.2. Gender bərabərliyinə münasibət*

Sorğu zamanı kişi və qadınların qadın hüquqlarını təşviq edən gender bərabərliyi və siyasətlərinə münasibəti də qiymətləndirilib. Cədvəl 4-də göstərildiyi kimi, həmin məsələlərə münasibət bir qədər qarışıq xarakter daşıyırdı: kişilərin (59,9%-i) və qadınların (48,3%-i) böyük bir hissəsi gender bərabərliyi istiqamətində yetərincə uğurun olduğunu bildirsə də, əksəriyyət (kişilərin 78,9 və qadınların 89,7%-i) bərabərliyin təşviq edilməsi üçün daha çox işlərin görülməsi qənaətindədir. Ümumi nəticələrə əsasən daha çox kişi qadın hüquqlarının təşviqinə mənfi münasibətdə olduğunu ifadə edib. Qadınlarla müqayisədə kişilərin böyük bir hissəsi "işləyən qadınlar kişilərin işini əlindən alır", "qadınlar üçün hüquqlar kişi hüquqlarının itirilməsi deməkdir", "bərabərlik istiqamətində yetərincə irəliləyiş var" və ya "bərabərliyə artıq nail olunub" kimi fikirlərlə razılaşıb.

Yüksək rəqabətli və bir qədər qeyri-stabil əmək bazarı kontekstində "kişilik" anlayışının maddi təminatçı funksiyası ilə sıx əlaqəli olduğunu nəzərə alsaq, qadınların iş yerləri üçün rəqib olması barədə fikri daha çox işsiz və ya daimi işi olmayan kişilər üçün aktual olub. Tədqiqat nəticəsində daimi iş sahibi olmayan kişilərlə müqayisədə stabil işlə təmin olunduqlarını bildirən kişilər "əgər qadınlar işləyirsə, onlar kişilərin işini əlindən alır" fikrini daha az dəstəkləyib (müvafiq olaraq 30,8% 17,4%-ə qarşı, p<,01).

## Cədvəl 4. Gender bərabərliyinə münasibət

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Əgər qadınlar işləyərsə, onlar kişilərin işini əlindən alar. | 24,4 | 13,7 |
| Əgər qadınlara hüquqlar verilərsə, onlar kişilərin hüquqlarını əlindən alar. | 22,4 | 13,7 |
| Qadınlar üçün hüquqlar kişilərin təcrid olunması deməkdir. | 26,3 | 24,7 |
| Gender bərabərliyi artıq yetərincə yayılıb. | 59,9 | 48,3 |
| Artıq gender bərabərliyinə demək olar ki, nail olunub. | 46,8 | 33,1 |
| Gender bərabərliyini təşviq etmək üçün daha çox işlər görülməlidir. | 78,9 | 89,7 |
| Bu gün gender bərabərliyinə nail olmaq üçün görülən işlər əsasən imkanlı insanların xeyrinədir. | 33,1 | 31,3 |

***3.2.3. Qadınların rəhbər vəzifələrdə olmasına münasibət***

Azərbaycanda qadınların siyasətdə iştirakı və onların rəhbər vəzifələrdə təmsilçiliyi mübahisə mövzusu olaraq qalmaqdadır ki, bunu sorğu zamanı kişi və qadınlar tərəfindən verilmiş cavablardakı mühüm fərqlər əsasında müəyyən etmək olar. Kişilərin 58,5, qadınların isə 47,9%-i siyasəti kişilərin öhdəsinə buraxmaq lazım olduğunu hesab etsə də, qadınların yarısından bir qədər çoxu (53,5%-i) ilə müqayisədə kişilərin dörddə üçü (77,6%-i) “qadınlarla müqayisədə kişilərdən daha yaxşı siyasi rəhbərlər çıxır” fikri ilə bağlı öz razılığını ifadə edib. Kişilərin 55,3%-i “qadınlar öz icmalarında rəhbər olmaq üçün çox emosionaldır” fikrini qəbul etsə də, qadınların cəmi 29,2%-i bununla razılaşıb. Maraqlısı odur ki, başqa bölgələrdə yaşıyan qadınlarla müqayisədə paytaxt Bakıdan olan qadınlar bu fikirlə daha çox razılaşıb.[13] Kişilərin belə bir fikrə münasibəti onların yaşayış yerindən asılı olaraq az fərqlənirdi.

Bununla belə, kişilərdən çox qadınlar siyasətdə qadınlar üçün bərabər imkanların olmasını dəstəkləyib: qadınların 76,3%-i “qadınlar siyasi vəzifələrə seçilmək üçün kişilərlə eyni imkanlara malik olmalıdır” fikrini dəstəkləsə də, kişilərin yalnız 53,9%-i bu fikirlə razı olduğunu bildirib. Bundan başqa, ümumi kişi respondentlərin 67,1%-i ilə müqayisədə qadınların böyük əksəriyyəti (88,6%-i) “kişi ilə eyni ixtisasa (bilik və bacarıqlara) malik olan qadın müvafiq işin öhdəsindən eyni məharətlə gələ bilər” fikri ilə razı olduğunu bildirib. Bu rəqəmlər göstərir ki, qadınların rəhbər vəzifələrə seçilməsi və cəmiyyət həyatında fəal mövqe tutması məsələlərinə kişilərin münasibətində müsbət dinamika izlənməkdədir.

Respondentlərin eyni zamanda gender bərabərliyinə aid siyasətlərə dair fikirləri də oyrənilib (Diaqram 1-ə baxın). Rəhbər vəzifələrdə (hökumət və ya icra hakimiyyəti orqanlarında) qadınlar üçün gender yönümlü kvota sistemini dəstəkləmiş qadınların sayı kişilərin sayından çox idi. Anoloji olaraq, kişilərlə müqayisədə daha çox sayda qadın əmək haqqlarında bərabərliyin tərəfdarı olduğunu və eyni işə görə bərabər ödənişlərin edilməsini bildirib. Bununla belə, hökumətdə və rəhbər vəzifələrdə müəyyən edilmiş sayda qadınların təmsilçiliyini nəzərdə tutan kvota sisteminin yaradılması məsələsini kişilərin yarıdan çoxunun dəstəkləməsi göstərir ki, bəzi kişilər hökumətdə və rəhbər vəzifələrdə gender bərabərsizliyinin mövcud olmasını qəbul edir və onlar bu boşluğun aradan qaldırılmasının əleyhinə deyil.

Maraqlısı odur ki, sorğuda iştirak etmiş hər beş qadından biri hökumət və ya icra hakimiyyəti orqanlarında qadınlar üçün kvota sistemini dəstəkləyib. Keyfiyyət əsaslı müsahibələrdən birində qadın iştirakçılarından biri “[Qadınlar] heç bir güzəşt istəmir/tələb etmir”, deyə bildirib.

[13] Bu fikirlə razılaşmış qadınların nisbəti kiçik şəhərlərdə 13,3, böyük şəhərlərdə 24 və kənd yerlərində 27% təşkil etmişdir.

### *Diaqram 1. Səlahiyyətli vəzifələr üzrə qadınlar üçün kvotalara münasibət*




## 3.3. Uşaqlıq təcrübəsi

Şübhəsiz ki, uşaqlıq təcrübəsi həmin şəxsin böyüməsi və inkişafına, o cümlədən, onun xüsusilə gender bərabərliyi və yetkin həyatda gender yönümlü səlahiyyətlərin və işlərin ədalətli bölgüsü məsələləri ilə bağlı münasibətinə və davranışına təsir göstərən ən vacib amillərdən biri hesab olunur. Xüsusilə, ailə mühiti oğlanların və qızların sosiallaşmasına böyük təsir göstərməklə yanaşı onların gender bərabərliyinə olan yanaşma və münasibətlərinə, dəyərlərinə və baxışlarına təsirsiz ötüşmür. Gündəlik həyatda oğlanlar və qızlar həmcins və əks cinsin nümayənədləri ilə davranış (məsələn, hörmət, qayğı, dəstək və ya təhqir, aqressiya və zorakılıq) modellərini görürlər, öyrənirlər və özlərini onlara bənzədirlər.

Bu bölmədə respondentlərin uşaqlıq təcrübəsinə, o cümlədən, onların nüvə ailələrinin xüsusiyyətlərinə, böyüdüyü ev təsərrüfatlarında gender dinamikasına, həmçinin böyüdükdən sonra ailələri ilə münasibətlərinə dair aparılmış sorğunun nəticələri təqdim olunur. Respondentlərin uşaqlıq dövründə zorakılığa məruz qalma halları ilə bağlı əldə olunmuş məlumatlar zorakılıq məsələlərinə aid bölmədə təqdim olunacaq.

### *3.3.1. Nüvə ailəsinin xüsusiyyətləri*

Uşağın təhsil və tərbiyə almasında, böyüyüb başa çatmasında valideynlərin hər ikisinin də iştirakı uşaqlıq dövründə və sonrakı dövrlərdə müxtəlif mənfi fəsadların əmələ gəlməsinə qarşı müdafiəedici amil olduğunu nəzərə alaraq ailə strukturu vacib bir aspekt hesab olunur. Xüsusilə erkən uşaqlıq dövründə gender bərabərliyini dəstəkləyən davranışın formalaşması və uşağın erkən inkişafının təşviq edilməsi proseslərində atanın iştirakı vacibdir.[14]

Respondentlərin böyük əksəriyyəti (kişilərin 88,8 və qadınların 90%-i) hər iki valideynlə böyüdüyünü bildirib; təxminən 10 respondentdən biri əsasən və ya yalnız anası ilə yaşadığını və çox cüzi sayda (1%-dən da az) respondent əsasən atası ilə yaşadığını bildirib. Respondentlərlə müqayisədə onların valideynlərinin təhsil səviyyəsi bir qayda olaraq aşağı idi, respondentlərin anaları ilə müqayisədə isə, atalarının təhsil səviyyəsi nisbətən yüksək idi. Qadın respondentlər arasında anaların təxminən yarısı orta məktəbi bitirib, 25%-dən çoxu isə xüsusi peşə təhsilinə və ya ali təhsilə malik idi. Atalara gəldikdə, respondentlərin təxminən 45%-i atalarının tam orta təhsilli olmasını, 43,2-49,6% respondent isə atalarının xüsusi peşə təhsilinə və ya ali təhsilə malik olduğunu bildirib (Cədvəl 5-ə baxın).

[14] Levtov və başqaları (2015).

## Cədvəl 5. Respondentlərin ana və atalarının təhsil səviyyəsi

| Sual | Kişilər (%) | Qadınlar (%) |
|---|---|---|
| Ananız hansı təhsil səviyyəsini bitirib? | | |
| İbtidai və ya daha aşağı | 9,1 | 3,4 |
| Natamam orta | 12,9 | 13,5 |
| Tam orta | 50,6 | 55,1 |
| Xüsusi peşə | 14 | 15,7 |
| Ali | 13,4 | 12,4 |
| Atanız hansı təhsil səviyyəsini bitirib? | | |
| İbtidai və ya daha aşağı | 2,9 | 1,5 |
| Natamam orta | 7,5 | 5,7 |
| Tam orta | 46,4 | 43,2 |
| Xüsusi peşə | 26,4 | 24,6 |
| Ali | 16,8 | 25,0 |

Uşaqlıq zamanı üzləşdikləri çətinliklər barədə verilən suala kişilərin və qadınların təxminən dörddə biri (müvafiq olaraq 27,3 və 24,7%-i) 18 yaşadək müəyyən vaxtlarda qida çatışmazlığından əziyyət çəkdiyini bildirib. Respondentlərin yaşından asılı olaraq bu suala verilmiş cavablarda fərqlər mövcud idi: qida çatışmazlığı barədə məlumatların adətən gənc respondentlərlə müqayisədə nisbətən yaşlı respondentlər tərəfindən verilməsi daha çox ehtimal olunurdu:

- Kişilər: 18-24 yaşlı respondentlərin 11,8%-i, 25-34 yaşlı respondentlərin 26%-i, 35-49 yaşlı respondentlərin 28,9%-i və 50-59 yaşlı respondentlərin 32,6%-i uşaqlıq dövrünün bəzi məqamlarında qida çatışmazlığından əziyyət çəkdiyini bildirib.
- Qadınlar: 18-24 yaşlı respondentlərin 14,7%-i, 25-34 yaşlı respondentlərin 12,7%-i, 35-49 yaşlı respondentlərin 30,3%-i və 50-59 yaşlı respondentlərin 33,8%-i qida çatışmazlığından əziyyət çəkdiyini qeyd edib.

Kişilərin və qadınların çox az bir hissəsinin (müvafiq olaraq 3,8 və 4,5%-nin) 18 yaşadək müxtəlif evlərdə yaşamasını qeyd etməsi bizdə respondentlərin böyük bir hissəsinin stabil olaraq bir evdə böyüyüb başa çatması qənaətini formalaşdırır.

### *3.3.2. Uşaq ikən böyüdüyü evdə gender dinamikası*

#### 3.3.2.1. Uşaq ikən böyüdüyü evdə qərar qəbuletmə

Respondentin yaşadığı evə məxsus qərar qəbuletmə formaları həmin respondentin uşaq ikən böyüdüyü evdə ailədaxili münasibətlərin əsasını təşkil edən gender səlahiyyətləri dinamikasının bir göstəricisidir. Diaqram 2-də də göstərildiyi kimi, respondentlərin çoxu uşaq ikən böyüdükləri evlərdə əksər hallarda qərarı əsasən atalarının qəbul etdiyini bildirib. Birgə qərar qəbuletmə prosesinin daha geniş vüsət aldığı uşaqların sağlamlığı məsələsi istisna olmaqla, ümumiyyətlə qadın və kişi respondentlərin təxminən yarısı qərar qəbul etməni nəzərdə tutan məsələlərin əksəriyyətində birgə qərarların qəbul edildiyini diqqətə çatdırıb. Qərarların bir qayda olaraq valideynlərdən biri tərəfindən qəbul edildiyini iddia edənlər arasında bu qərarların əsasən ataları tərəfindən verildiyini bildirən qadınların və kişilərin sayı qərarların ilk növbədə ana tərəfindən verildiyini qeyd edənlərin sayından əhəmiyyətli dərəcədə çox idi. Məsələn, kişilərin 43,5%-i yaşadıqları ev təsərrüfatlarında onların bacılarının və qardaşlarının  təhsil alması ilə bağlı son sözün ataya məxsus olmasını bildirdiyi halda, kişilərin yalnız 11,8%-i bu məsələ ilə bağlı son sözün əsasən onların analarına məxsus olduğunu qeyd edib. Anoloji olaraq, bu məsələ ilə bağlı qadınların 32,8%-i son sözün ata tərəfindən və yalnız 10,4%-i isə əsasən ana tərəfindən deyildiyini bildirib.

**Diaqram 2. Uşaq ikən böyüdükləri evdə qəbul edilən qərarlarla bağlı son söz***




Qərar qəbuletmə səlahiyyətinə gəldikdə isə respondentlər nikahla bağlı qərarlarda uşaqların əsas rol oynadığını bəyan edib. Oğlanların nikahı ilə əlaqədar qərarların qəbulu zamanı evdə kimin söz sahibi olması barədə suala kişi respondentlərin 40,5, qadın iştirakçıların isə 52,7%-i, həmin qərarların oğlanların özü tərəfindən qəbul olunduğunu bildirib. Lakin qızların nikahı barədə suala verilmiş cavablarda bu nisbət kifayət qədər az idi: kişilərin yalnız 18,1%-i, qadınların isə 37,4%-i qızların özlərinin bu cür qərarları verməsini qeyd edib ki, bu da qadınların nikah seçiminə nəzarət olunması tendensiyasını aşkara çıxardıb.

Ümumiyyətlə bu məlumatlar ailə daxilində ənənəvi gender səlahiyyətləri dinamikasını özündə əks etdirir. Qadınların daha çox iştirakını nəzərdə tutan sahələri, məsələn, uşağın sağlamlıq məsələlərini istisna etməklə, kişilər qərar qəbuletmənin tələb olunduğu bütün sahələrdə ənənəvi olaraq daha böyük təsirə malikdirlər. Ümumiyyətlə, kişilərin 11,7, qadınların isə 6,3%-i ev təsərrüfatı ilə əlaqədar sadalanan hər bir qərarda onların atalarının yekun sözə malik olduğunu diqqətə çatdırsa da, kişilərin 62,9, qadınların isə 58,3%-i evdə ən azı bir qərarın qəbul edilməsində belə son sözün ataya məxsus olduğunu qeyd edib. Bu rəqəmlər respondentlərin uşaq ikən yaşadıqları evlərdə ataların heç də bütün qərarlar üzərində nəzarəti özündə saxlamadığını, bütövlükdə isə ataların böyük əksəriyyətinin isə ən azı bir sahədə qərar qəbuletmə prosesində təsirə malik olduğunu göstərir. Ümumiyyətlə, adətən qərarların daha çox birlikdə və ya uşaqlar tərəfindən qəbul olunduğunu bəyan edən qadınlarla müqayisədə kişilər qərar qəbuletmə səlahiyyətlərinin daha çox onların atalarına məxsus olduğunu bildiriblər.

Ümumilikdə götürəndə kişi və qadın respondentlər tərəfindən verilmiş məlumatlara əsasən nəzərdən keçirilmiş bütün qərar qəbuletmələrdə nəsildən-nəsilə müşahidə olunan dəyişikliklər gənc nəsillərin ev təsərrüfatında səlahiyyətlər bölgüsünə ənənəvi yanaşmalardan daha müasir mexanizmlərə tədricən keçidinə işarə edirlər. Bu da onu göstərir ki, cəmiyyətdə gender bərabərliyinin təmin edilməsi baxımından

münbit şərait yaranmaqdadır. Məsələn, respondentlərin məlumatlarına əsasən oğulların nikahı ilə əlaqədar qərar qəbuletmədə ataların əsas rol oynamasına dair göstərici 50-59 yaşlı kişilər arasındakı 33,7%-dən 25-34 yaşlı kişilər arasında qeydə alınmış 16,3%-dək azalıb. Qadın respondentlərə gəldikdə isə, 50-59 yaşlı qadınlar arasında 21,3% təşkil edən bu göstərici, 25-34 yaşlı qadınlar arasında 9,6% səviyyəsinə düşmüşdür. Bu tendensiyanın qızların nikahı ilə bağlı qərar qəbuletmədə müşahidə olunan meyllərə bənzəməsi gələcəkdə ev təsərrüfatı daxilində gender bərabərliyi məsələlərinə ümidlə baxmaq üçün bir əsasdır.

#### 3.3.2.2. Ataların ev işlərində iştirakı

Respondentlərin uşaq ikən yaşadıqları evlərdə ədalətli iş bölgüsünün nə cür modelləşdirildiyini daha yaxşı başa düşmək məqsədilə onların atalarının ənənəvi qadın vəzifələri hesab olunan işlərə xüsusi diqqət yetirməklə ev işlərində və uşaqlara qayğının göstərilməsində nə vaxtsa iştirak edib-etmədiklərini xatırlamaqları xahiş olunub.

Cədvəl 6-da təqdim olunmuş nəticələr istər kişi, istərsə də qadın respondentlərin atalarının ev təsərrüfatı və uşaqlara qayğı göstərmə ilə bağlı bütün növ işlərdə müxtəlif dərəcədə iştirak etdiklərini göstərir. Həm kişi, həm də qadın respondentlər tərəfindən verilmiş məlumatlara əsasən, təxminən bütün atalar ev üçün alış-verişin edilməsində iştirak edir ki, bu da evdən kənar işlərin ənənəvi olaraq kişilərin vəzifəsi olması barədə geniş yayılmış anlayışı bir daha təsdiq edir. Mövcud məlumatlara görə ataların iştirak etdiyi ikinci geniş yayılmış iş növü ev tapşırıqlarının yerinə yetirilməsində uşaqlara köməkliyin göstərilməsindən ibarət idi: həm kişi, həm də qadın respondentlərin 70%-dən çoxu ataların bu cür işlərə töhfə verdiklərini qeyd edib. Eyni zamanda, respondentlərin böyük hissəsi atalarının onlara və onların bacı-qardaşlarına qayğı göstərdiyini bildirib.

Kifayət qədər az sayda respondent atalarının ənənəvi olaraq qadına aid edilən ev işlərində iştirak etdiklərini bildirib. Ataların 2,4-41,9%-i nə vaxtsa yemək hazırlamaq, ev, hamam-tualet təmizləmək və paltar yumaq kimi işlərdə iştirak edibsə, yalnız çox az sayda kişi ümumiyyətlə paltar yuma və ya hamam-tualet təmizləmə işləri görüb. Kişilərin orta hesabla 57, qadınların isə 63%-i atalarının bü cür işləri heç vaxt görmədiklərini qeyd edib. Bu isə ev təsərrüfatı işlərinin gender əsaslı bölgüsündə kök salmış stereotiplərin mövcud olmasını təsdiq edir. Atalarının ev işlərində iştirakı barədə kişi və qadınlar tərəfindən verilmiş cavablar ümumən oxşar xarakter daşıyırdı.

### *Cədvəl 6. Uşaq ikən yaşadığı evdə ev təsərrüfatı işlərində atanın iştirakı*

| | Kişilər (%) | Qadınlar (%) |
|---|---|---|
| Yemək hazırlama | 41,9 | 37,1 |
| Ev təmizləmə | 17,8 | 13 |
| Paltar yuma | 2,4 | 2,4 |
| Hamam-tualet təmizləmə | 3,4 | 2,7 |
| Sizə və qardaş-bacınıza qayğı göstərmə | 68,1 | 69,4 |
| Ev üçün alış-verişin edilməsi | 96,4 | 96,2 |
| Ev tapşırıqlarının yerinə yetirilməsində köməklik göstərmə | 70,8 | 73,4 |

#### 3.3.2.3. Respondentlərin uşaq ikən ev işlərində iştirakı

Respondentlərdən 18 yaşına çatmazdan əvvəl müxtəlif ev təsərrüfatı işlərində nə vaxtsa iştirak etmələrini xatırlamaları da xahiş olunub (Cədvəl 7-ə baxın). Kişi respondentlərin çoxu (88,7%-i) ataları kimi uşaq ikən ev üçün alış-verişin edilməsində iştirak etdiyini bildirib. Kişilərdən fərqli olaraq, qadın iştirakçıların yalnız 15,1%-i bu cür işlə məşğul olması barədə məlumat verib. Təxminən eyni sayda kişi və qadın ev tapşırıqlarının yerinə yetirilməsində digər uşaqlara kömək etdiyini diqqətə çatdırıb. Qadın respondentlərlə müqayisədə kişi respondentlərin bütün digər ev işlərində iştrak səviyyəsi əhəmiyyətli dərəcədə aşağı olduğu halda, qadın respondentlərin böyük bir hissəsi bu cür işlərin hər birində iştirak etdiyini bildirib. Kişi respondentlər uşaq ikən ənənəvi olaraq qadına aid edilən ev işlərində, məsələn, paltar yuma və hamam-tualet təmizləmə ilə çox az məşğul olduqlarından (bu cür işlərin hər biri ilə məşğul olmuş kişi respondentlərin nisbəti hər

bir iş üzrə 6% təşkil edirdisə, müqayisə üçün qadın respondentlərə aid rəqəmlər müvafiq olaraq 73,9 və 75,3%-ə bərabər idi) sorğunun kişi iştirakçıları və onların ataları arasında müəyyən paralellər gətirmək mümkün olub.

### Cədvəl 7. 18 yaşına qədər olan şəxslərin ev təsərrüfatı işlərində iştirakı

| | Kişilər (%) | Qadınlar (%) |
|---|---|---|
| Yemək hazırlama | 44 | 81,9 |
| Ev təmizləmə | 36,9 | 92,6 |
| Paltar yuma | 6,3 | 73,9 |
| Hamam-tualet təmizləmə | 6,4 | 75,3 |
| Qardaş-bacıya qayğı göstərmə | 50,1 | 62,9 |
| Ev üçün alış-verişin edilməsi | 88,7 | 15,1 |
| Ev tapşırıqlarının yerinə yetirilməsinə kömək etmək | 55,5 | 57,9 |

Ehtimal etmək olar ki, qadın respondentlər təmizlik, yemək bişirmə, paltar yuma və kiçik qardaş və bacılarına baxma işləri analarından öyrənib. Bu ikili məqsəd daşıyırdı. Həmin analar bir tərəfdən gündəlik ev işlərini bitirmək üçün kömək əldə edir, digər tərəfdən isə gələcəkdə ana və həyat yoldaşı rolunda çıxış edəcək qızlarına lazım olacaq bacarıqları aşılayırdı. Qadınların ev işlərinə dair rollarının bu cür genderli anlayışı cəmi 54% kişi ilə müqayisədə 94% qadının uşaq ikən (yemək hazırlamaq, ev təmizləmək, paltar yumaq və hamam-tualet təmizləməkdən ibarət) dörd əsas ev işlərindən biri və ya bir neçəsi ilə məşğul olması barədə məlumat verməsinin səbəbini izah edə bilər.

Respondentlərin uşaq ikən ev işlərində iştirakı baxımından yaş üzrə bölgüsü aparıldıqda görmək olar ki, nəsillər boyu fərqin olmaması qeyri-bərabər iş bölgüsündə "stabilliyin" mövcud olmasına işarə edir. Uşaqlıqda ev işləri ilə məşğul olmuş yalnız gənc (18-24 yaşlı) kişilər arasında artım müşahidə olunsa da, həmin yaş qrupuna aid olan qadınların faiz nisbəti bütün digər yaş qruplarında olduğu kimi yüksək idi. Kənd və şəhər yerlərində yaşayan respondentlərin verdiyi məlumatları müqayisə etdikdə onların uşaq ikən ev işlərində iştirakı səviyyələrində cüzi fərqləri görmək olar. Kiçik şəhərlərdə yaşayan kişilərin əksəriyyəti və paytaxt Bakı sakini olan kişilərin isə az bir hissəsi uşaq ikən bu cür ev işlərini yerinə yetirdiyini bildirib. Bütün bunlarla yanaşı, kişilərlə müqayisədə daha çox qadının uşaq ikən ev işlərinə cəlb olunmasından ibarət gender əsaslı model yaşayış məntəqələrinin dörd növünə də aid edilər bilər (kənd yerinə, əhalisinin sayı 100.000 nəfərdən az olan kiçik şəhərə, əhalisinin sayı 100.000 nəfərdən 1.000.000 nəfərədək olan şəhərə və əhalisinin sayı 1.000.000 nəfərdən çox olan şəhərə).

## 3.4. Cari əlaqələrin dinamikası

Bu bölmədə respondentlərin cari və ya ən son ailə münasibətlərinin gender dinamikasına diqqət yetirilir. Burada ər və arvadın xüsusiyyətləri, onların qərar qəbuletmə zamanı davranışları, iş bölgüsü və ev işlərində onların iştirakı, habelə qarşılıqlı münasibətlərin keyfiyyəti kimi məsələlər nəzərdən keçirilir. Əldə olunmuş nəticələr cütlüklərin daha çox ənənəvi genderləşmiş səlahiyyət strukturuna əməl edərək evdəki davranışlarını məhz buna uyğunlaşdırmaları və beləliklə bu cür dinamikanın onları qane etməsi qənaətini formalaşdırır.

### *3.4.1. Ər-arvad cütlüklərinin xüsusiyyətləri*

Respondentlərin cari və ya ən son cinsi partnyorlarının xüsusiyyətləri Cədvəl 8-də verilir. Bir qayda olaraq, kişilər öz qadın parntyorlarından yaşca böyükdür: kişi və qadın repondentlərin 40%-dən çoxu ərin arvaddan beş və ya daha çox yaş böyük olduğunu bildirib. Qadınların cəmi 12,1, kişilərin isə 18,1%-i qadınların öz həyat yoldaşları ilə eyni yaşda və ya daha böyük olduğunu qeyd edib. Kişilərin və qadınların çoxu öz partnyorları ilə eyni təhsil səviyyəsinə malik olduğunu bildirsə də, hər dörd kişidən və qadından biri öz partnyorundan daha savadlı olduğunu bəyan edib.

Məşğulluq vəziyyətinə gəldikdə, kişi repondentlərin 32%-i öz həyat yoldaşlarının heç zaman işləmədiyini,

32,1%-i – işsiz olduqlarını, qalanları formal və ya qeyri-formal işlədiyini və çox az bir hissəsi təhsil aldığını, təqaüddə və ya məzuniyyətdə olduğunu diqqətə çatdırıb. Digər tərəfdən, qadın respondentlərin 86,8%-i öz kişi partnyorlarını formal və ya qeyri-formal işçi kimi xarakterizə edib. Həm kişi, həm də qadın respondentlər kişilərin qazanclarının daha yüksək olması barədə məlumat verib: kişi respondentlərin 81,4%-i öz həyat yoldaşlarından daha çox pul qazandığını və təxminən eyni faiz nisbətində qadın ərlərindən daha çox gəlir əldə etdiyini qeyd edib.

### Cədvəl 8. Kişi və qadın respondentlərin (%-lə) cari və ya ən son rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxsin xüsusiyyətləri

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Partnyorlar arasında yaş fərqi | | |
| Kişi qadın partnyoru ilə eyni yaşdadır və ya qadın partnyor daha yaşlıdır | 18,1 | 12,1 |
| Kişi öz partnyorundan 1-4 yaş böyükdür | 40 | 41,7 |
| Kişi öz partnyorundan 5-9 yaş böyükdür | 31,2 | 31,6 |
| Kişi öz partnyorundan 10 və ya daha çox yaş böyükdür | 10,8 | 14,6 |
| Təhsil səviyyəsində fərq | | |
| Ər və arvad eyni savada malikdir | 61,4 | 54,8 |
| Kişi daha savadlıdır | 25,7 | 22,6 |
| Qadın daha savadlıdır | 12,9 | 22,6 |
| Partnyorun məşğulluq vəziyyəti | | |
| Heç vaxt işləməyib | 32 | 0 |
| Tələbə | 0,7 | 0,9 |
| İşsiz | 32,1 | 5,9 |
| Formal olaraq işləyir | 20,8 | 38,6 |
| Qeyri-formal olaraq işləyir | 11 | 48,2 |
| Təqaüdçü | 1,4 | 6,4 |
| Təhsil alan və işləyən | 0,5 | 0 |
| Analıq məzuniyyətində və ya başqa növ məzuniyyətdə olan | 1,4 | 0 |
| Gəlir əldə etmə | | |
| Ər-arvad eyni miqdarda gəlir əldə edir | 11,2 | 11,4 |
| Kişi daha çox gəlir əldə edir | 81,4 | 78,1 |
| Qadın daha çox gəlir əldə edir | 7,5 | 10,5 |

Gəlir əldə etmə formaları ev təsərrüfatının "təminatçısına" aid gender rollarına uyğundur. Kişilərin böyük əksəriyyəti (93%-i) onların əsas rolunun ailənin "təminatçısı" və ya "ailəni dolandırmaq"dan ibarət olduğunu, qadınların isə yalnız 6%-i bu cür rola malik olduğunu bildirib.

#### *3.4.2. Ev təsərrüfatında qərar qəbuletmə və səlahiyyət dinamikası*

Cədvəl 9-da göstərildiyi kimi, respondentlərə onların cari və ya ən son intim münasibətlərində qərar qəbuletmə ilə bağlı suallar verilib. Əldə olunmuş məlumatlara əsasən kişi və qadın respondentlərin yarısından çoxu qadınların evdən kənar işləməsi ilə bağlı qərar qəbuletmə hallarını istisna etməklə (bu cür qərarların birgə qəbul edildiyini yalnız 33,7% kişi və 42,7% qadın bildirib) bir çox məsələlərdə qərarların birgə qəbul edildiyini qeyd edib. Bütün bunlara baxmayaraq, qərarın bir nəfər tərəfindən qəbul edilməsi hallarından ibarət gender davranışlarında kişilərin üstünlük təşkil etməsini qeyd etmək olar. Məsələn, kişilərin 65,3 və qadınların 66,8%-i öz ailəsi, dostları və qohumları ilə vaxt keçirməklə bağlı birgə qərar qəbul etdiyini iddia etsə də, kişilərin 27,4, qadınların isə 24,1%-i bu məsələ ilə bağlı son qərarın yalnız kişlər tərəfindən qəbul edildiyini bildirib. Müqayisə üçün qeyd etmək lazımdır ki, yalnız 2,7% kişi və 7,3% qadın belə bir qərarın faktiki olaraq qadınlar tərəfindən qəbul edildiyini qeyd edib. Qadınların evdən kənarda işləməsi və böyük miqdarda pulların xərclənməsi ilə əlqədar qərarların qəbul edilməsində oxşar davranışlar müşahidə olunub.

Maraqlısı odur ki, bəzən kişilər və qadınlar qərar qəbuletmə səlahiyyəti ilə bağlı fərqli fikirlər ifadə edirdilər. Məsələn, ərzaq malları və geyim əşyaları üçün xərclərlə bağlı qərarın kim tərəfindən qəbul edilməsi barədə suala kişilərin və qadınların dörddə biri bu səlahiyyətin onlara, kişilərin cəmi 6,7, qadınların isə 15%-i yekun qərarın onların partnyorlarına məxsus olduğunu düşünürdü. Eyni zamanda, asudə vaxtın keçirilməsi ilə bağlı qərar qəbuletmə zamanı bir qədər buna bənzər davranışı müşahidə etmək mümkün idi.

### *Cədvəl 9. Cari və ya ən son ailə münasibətlərində qəbul edilən qərarla bağlı son söz məxsus olması barədə məlumat vermiş kişi və qadınların faiz nisbəti*

| Qərar qəbuletmə sahəsi | | Kişilər | Qadınlar | Birgə | Başqa bir şəxs | Kişi və başqa bir şəxs |
|---|---|---|---|---|---|---|
| Ərzaq malları və geyim əşyaları üçün xərclər | Kişilər | 27,6 | 6,7 | 52,2 | 6,4 | 7,1 |
| | Qadınlar | 15 | 28,2 | 50 | 2,7 | 4,1 |
| Avtomobil, ev və ya məişət texnikası kimi bahalı mallar üçün böyük xərclər | Kişilər | 36,6 | 1,5 | 46,4 | 8,3 | 7,1 |
| | Qadınlar | 37,3 | 4,1 | 50,5 | 5 | 3,2 |
| Ailə ilə, dostlar və qohumlarla vaxt keçirmə | Kişilər | 27,4 | 2,7 | 65,3 | 1,5 | 3,1 |
| | Qadınlar | 24,1 | 7,3 | 66,8 | 1,4 | 0,5 |
| Respondentin/onun partnyorunun evdən kənarda işləməsi | Kişilər | 59,7 | 3,9 | 33,7 | 1,5 | 1,2 |
| | Qadınlar | 49,1 | 5,9 | 42,7 | 1,8 | 0,5 |
| Asudə vaxtın nə cür keçirilməsi | Kişilər | 33,1 | 1,9 | 62,8 | 1,2 | 1,0 |
| | Qadınlar | 12,3 | 15 | 71,4 | 1,4 | 0,0 |

Qərar qəbuletmə davranışlarını nəzərdən keçirərək daha yaxşı başa düşmək məqsədilə mürəkkəb dəyişənlər işlənib hazırlanıb. Kişilərin təxminən 10, qadınların isə 2,7%-i bütün qərar qəbuletmə sahələrində kişilərin son söz sahibi olduğunu qeyd etmişdirsə, kişilərin 73 və qadınların 63%-i ən azı bir qərar qəbuletmə sahəsində son sözün kişilərə məxsus olduğunu bildirib.

### *3.4.3. Kişilərin ev işlərində iştirakı*

Cari və ya ən son ailə münasibətləri çərçivəsində ev işlərinin bölgüsü aparılarkən gender bərabərsizliyini aşkar edən davranışlar müşahidə olunub. Az faiz kişi respondentlərin bəzi ev işlərini yerinə yetirdiyini qeyd etsə də, ər və arvad arasında və ya ailə daxilində vəzifələrin bölgüsü zamanı tətbiq edilən yanaşma ənənəvi davranışları özündə əks etdirirdi.

Diaqram 3-də göstərildiyi kimi, kişi və qadınların böyük əksəriyyəti ənənəvi gözləntilərə uyğun olaraq paltar yuma, ev və hamam-tualet təmizləmə kimi işlərin həmişə və ya adətən qadınlar tərəfindən görüldüyünü qeyd edib. Qadınların dörddə üçü və təxminən eyni sayda kişi yeməyin yalnız qadın tərəfindən hazırlandığını bildirib. Bunun əksinə olaraq, evdə təmir işlərinin bilavasitə kişi işi olduğunu həm kişi, həm də qadın respondentlərin 60%-dən çoxu bəyan edib; eyni fikir anoloji olaraq bəzi hallarda kommunal xərclərin (qaz, işıq və s.) ödənilməsi ilə bağlı da ifadə edildi.

## *Diaqram 3. Ev təsərrüfatı işlərində gender əsaslı bölgüsü*




Qadın və kişilərin (paltar yumaq, ev və hamam-tualet təmizləmək və yemək hazırlamaqdan ibarət) dörd əsas ev işindən hər hansı birində iştirakı səviyyələrini müqayisə etdikdə ev işlərinin qeyri-bərabər bölgüsü daha aşkar şəkildə nəzərə çarpır: kişilərin 90,4, qadınların isə 95,5%-i bu işlərin heç birində kişilərin qadınlarla eyni və ya böyük rol oynamadığını diqqətə çatdırdı. Bu cür iş bölgüsünün respondentlər tərəfindən müəyyən dərəcədə qəbul olunduğunu qeyd etmək lazımdır: “ev işləri ilə kim daha çox məşğul olur” sualına təxminən eyni sayda kişi və qadın (kişilərin 86,5 və qadınların 90,9%-i) “qadınlar” cavabını verib ki, kişilərin təqribən hamısı (97,6%-i), qadınların isə çoxu (80,5%-i) belə bir vəziyyətin onları qane və ya tam qane etdiyini bildirib.

### *3.4.4. Münasibətlərin keyfiyyəti*

İstər kişi, istərsə də qadın respondentlərin böyük əksəriyyəti cari və ya ən son həyat yoldaşları ilə münasibətlərin yaxşı olduğunu hesab edir. Kişi respondentlərin 95,9%-i öz partnyorları ilə münasibətlərin çox yaxşı (38,3%) və ya kifayət qədər yaxşı (57,6%) olması fikrindədir. Qadın repondentlərin isə 92,7%-i öz partnyorları ilə münasibətlərin çox yaxşı (40%) və ya kifayət qədər yaxşı (52,7%) olduğunu düşünür.

Həyat yoldaşları arasında ünsiyyət münasibətlərin keyfiyyəti baxımından vacib komponent hesab olunur. Partnyorları ilə şəxsi narahatlıqları və ya problemləri barədə ən son müzakirələrin nə vaxt baş verdiyi barədə suala ər və arvad respondentlərin üçdə ikisindən çoxu (kişilərin 66,7 və qadınların 71,8%-i) üzləşdikləri problemlərlə bağlı son iki həftədə danışdıqları barədə cavab verib. Kişilərlə müqayisədə daha çox sayda qadın bu cür ünsiyyətin son zamanlar baş verməsi barədə məlumat verib ki, bu da ailə münasibətlərində ünsiyyət qurmaqla dəstək əldə etmək ilə bağlı gender yanaşmasının potensial təzahürü kimi qiymətləndirilməlidir.

Münasibətlərin keyfiyyətini göstərən daha bir göstərici cinsi münasibətlərdən məmnunluq səviyyəsi ilə bağlı idi. Ümumi nəticələrə görə, kişi və qadın respondentlər arasında bu göstəricilər eyni dərəcədə yüksək idi (85,7 və 78,2%)

***3.4.5. Qarşılıqlı münasibət, nikah və uşaq məsələlərinə münasibət və yanaşma***

Cədvəl 10-da göstərildiyi kimi, kişi və qadın respondentlərin ilk münasibətin formalaşması, ilk dəfə nikaha daxil olmaq və ilk uşağın dünyaya gəlməsi üçün hansı yaşın münasib olması ilə bağlı verdikləri cavablar onların cinsi mənsubiyyətindən asılı olaraq aşkar fərqləri üzə çıxarırdı. Kişi və qadın respondentlər qadının ilk dəfə kişi ilə münasibət qurması üçün münasib yaşın təxminən 20 olması ilə razılaşıb. Eyni zamanda, hər iki cinsdən olan respondentlər kişilərin də təxminən eyni yaşda ilk dəfə qadınla münasibət qurmasını münasib hesab ediblər. İlk dəfə nikaha daxil olmaq və ilk uşağı dünyaya gətirmək üçün münasib yaşla bağlı həm kişi, həm də qadın respondentlərin fikirləri təqribən üst-üstə düşürdü.

Bununla belə, nikahdan öncə münasibət qurmaqla bağlı gözləntilər kişilərə aid edilmirdi. Kişilərin və qadınların çoxu (müvafiq olaraq 92,2 və 93,4%-i) qadının nikaha daxil olmazdan əvvəl hər-hansı münasibətinin olmasını qəbuledilməz hesab etsə də, kişilərin yalnız 18,5, qadınların isə 33,6%-i bu qaydanın kişilərə də şamil edilməsinin tərəfdarı idi. Burada mövcud olan gender yanaşmalarına əsasən kişi respondentlərin yalnız beşindən biri kişinin nikaha qədər partnyorunun olmamasının tərəfdarı idisə, həmin fikrə şərik çıxan qadın repondentlərin sayı təqribən iki dəfə çox olub.

## Cədvəl 10. Kişi və qadın respondentlərə əsasən kişi və qadınların qarşı cinslə münasibət təcrübələri üçün müvafiq (orta) yaş

| | Kişilər (%) | Qadınlar (%) |
|---|---|---|
| Kişilərin ilk təcrübələri üçün münasib (orta) yaş | | |
| İlk münasibət | 19,9 | 20,7 |
| İlk nikah | 25,2 | 24,9 |
| İlk uşağın dünyaya gətirilməsi | 26,4 | 26,1 |
| Qadınların ilk təcrübələri üçün münasib (orta) yaş | | |
| İlk münasibət | 19,5 | 19,9 |
| İlk nikah | 20,9 | 21,0 |
| İlk uşağın dünyaya gətirilməsi | 22,2 | 22,3 |

### Haşiyə 1: Erkən nikaha münasibət

BMT-nin Uşaq Fondu (UNICEF) tərəfindən həyata keçirilmiş tədqiqata əsasən Azərbaycanda qadınların onda birindən də çox bir hissəsi 18 yaşına çatmadan ailə qurur.[15] Bu səbəbdən İMAGES tədqiqatını aparmış mütəxəssislər bu cür xoşagəlməz təcrübəni davam etdirən gender normalarının daha yaxşı öyrənilməsini öz qarşılarına məqsəd olaraq qoyub.

Sorğuda iştirak etmiş respondentlərin təxminən hamısı öz uşaqlarının erkən nikaha daxil olmasının əleyhinə idi. Bir qadın respondent bildirdi ki,*“onlar məsuliyyətli olduqda ailə qurmalıdır”.* Respondentlər üçün *“məsuliyyət”* 18 yaşını ötmə, ali təhsil alma və işlə təmin olunma deməkdir. Respondentlərin əksəriyyəti ailədəki qızların və oğlanların ali təhsil almalarının əhəmiyyətini vurğulayıb: digər qadın respondent qeyd etdi ki, təhsil *“onların gələcək həyat seçimi üçün çox vacibdir.”* Nisbətən yaşlı kişi və qadın respondentlərin çoxu öz uşaqlarının ailə planlaşdırılması ilə bağlı qərarlarına müdaxilə etməməyə üstünlük verdiyini diqqətə çatdırdı.

Göründüyü kimi, respondentlər erkən nikahları ailədaxili və ya cəmiyyətdaxili normalarla və təzyiqlərlə deyil, bilavasitə gənclər tərəfindən qəbul olunmuş qərarlarla əlaqələndirirdi. Qadınlardan biri bunları dedi:*“Mən istərdim ki, müəllimlər erkən nikahın çətinliklərini başa salmağı bacarsınlar. Belə bir işi təşkil etmək çox vacibdir.”* Başqa qadın isə qeyd etdi ki, *“Bu cür müzakirələr həm qızlar, həm də oğlanlar üçün təşkil olunmalıdır ki, onlar həyatda düzgün seçim etmək məqsədilə maariflənə bilsinlər. Təəssüflər olsun ki, [belə bir fənn] mövcud deyil.”* Digər qadın belə bir fikir irəli sürdü: *“Erkən nikahlardan uzaq olmaq üçün gənc nəslin nümayəndələri, onların valideynləri və yaxınları belə məsələlər barədə məlumatlı və bilikli olmalıdır.”*

Həyata keçirilmiş digər tədqiqatın nəticələrinə görə, Azərbaycanda erkən nikahlar mədəni münasibətlərin və normaların, habelə sosial-iqtsadi amillərin üst-üstə düşməsi səbəbindən baş verir[16] və bunun öhdəsindən gəlmək üçün müvafiq siyasətlər və proqramlar əsasında gənclərlə yanaşı ailələrlə və icmalarla daha geniş miqyasda işlər aparıllır və bu fəaliyyət davam etdirilməlidir.

## 3.5. Ailə planlaşdırılması, cinsi və reproduktiv sağlamlıq və hüquqlar

Ümumi nəticələrə əsasən, cinsi sağlamlıq və qoruyucu vasitələrdən istifadə ilə bağlı qərar qəbuletmə məsələlərində yaşayış yerindən, yaşından və ya gəlir səviyyəsindən asılı olmayaraq kişilər və qadınlar arasında gender fərqləri açıq-aşkar nəzərə çarpırdı. Bir çox hallarda kişilərlə müqayisədə daha çox qadın qoruyucu vasitələrdən istifadə ilə bağlı qərar qəbul etmək məlumatlara iqtidarında olduqlarına inansa da, kişilər bu cür qərarların qəbul edilməsində əsas rol oynadıqlarına daha çox əmin idilər. Həm keyfiyyət, həm də kəmiyyət əsaslı dəlillər göstərir ki, elmi və tibbi cəhətdən dəqiq məlumatlara çıxışın olmaması (həmçinin həmyaşıdlar və ailə üzvləri tərəfindən verilən yanlış məlumat) kontrasepsiya və onun insan sağlamlığına təsiri barədə geniş yayılmış miflərə səbəb olur. Bununla belə, kişi və qadın respondentlərin çoxu hamiləliyin təxirə salınmasında maraqlı olan ər-arvad cütlüyü üçün kontrasepsiya üsullarının vacib olmasına əmin idi.

### *3.5.1. Cinsi davranış və kondomlardan istifadə*

Sorğuda iştirak etmiş kişilərin 72,6%-i son 12 ay ərzində yalnız bir partnyorla, 3%-dən də az bir hissəsi isə üç və ya daha çox partnyorla cinsi əlaqədə olub. Son il ərzində kişilərin 15%-i ümumiyyətlə cinsi əlaqədə olmayıb. Qadınlara gəldikdə onların 67,5%-i son ildə bir nəfərlə cinsi əlaqədə olduğunu bildirib. Son ildə qadınların üçdə biri (32,1%-nin) cinsi əlaqədə olmayıb: bu qadınların əksəriyyəti 18-24 yaşlarında və subay idi. Faktiki olaraq

[15] BMT-nin Uşaq Fondu (UNICEF) “Dünya uşaqlarının vəziyyəti 2016: hər bir uşaq üçün ədalətli imkan”. 2016-cı il, Nyu York.

[16] BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisi (UNFPA EECARO), 2014-cü il.

subay olan qadın respondentlərdən heç biri son il ərzində cinsi əlaqədə olması barədə məlumat verməyib. Azərbaycanda qadınların nikahdan əvvəl cinsi əlaqədə olmasının qəbuledilməz hesab edildiyini nəzərə alaraq (artıq qeyd olunduğu kimi, sorğu respondentlərinin demək olar ki, hamısı qadının nikahadək bakirə qalması ilə razı idi), subay qadınlar tərəfindən bir qədər təhrif olunmuş məlumatların verilməsi labud idi.

Kişilərin yalnız 15,3, qadınların isə 8,2%-i son cinsi əlaqə zamanı kondomlardan istifadə etdiyini bildirib. Bu verilən cavablar cinsi fəallıqları barədə məlumat verən qadın və kişilərin əksəriyyətinin nikahda olduğu və reproduktivlik məqsədilə cinsi əlaqədə olması barədə əldə edilən məlumatlara uyğun gəlir.

Cədvəl 11-də göstərildiyi kimi, nisbətən yaşlı respondentlərlə müqayisədə 18-24 yaş arası qadın və kişilər qoruyucu vasitələrdən daha tez-tez istifadə edirlər. Məsələn, 25-34 yaş arası kişilərin 24,5%-i və 35-49 yaş arası kişilərin 12,9%-i ilə müqayisədə 18-24 yaş arası kişilərin 36%-i qoruyucu vasitələrdən istifadə etdiyini bildirib. Demək olar ki, bütün yaş kateqoriyaları və yaşayış məntəqələri üzrə əldə edilmiş məlumatlar kişilərlə müqayisədə daha az qadının son cinsi əlaqə zamanı qoruyucu vasitələrdən istifadə etdiyini göstərir. Növbəti bölmədə də göstərildiyi kimi buna səbəb münasibətlərdə mövcud olan səlahiyyətlər dinamikası ola bilər ki, bu da qoruyucu vasitələrdən istifadə ilə bağlı qərar qəbul etmədə qadınların təsir gücünü məhdudlaşdırır.

Digər ərazilərdə yaşayanlarla müqayisədə şəhərlərdə (məsələn, paytaxtda) yaşayan kişi və qadın respondentlər arasında qoruyucu vasitələrdən istifadə halları daha çox olub. Buna səbəb şəhərlərdə yaşayan respondentlərin hamiləliyin təxirə salınmasında daha maraqlı olması və ya qoruyucu vasitələrin əldə edilməsi üçün daha çox imkanların olmasını göstərmək olar. Qoruyucu vasitələrdən istifadənin mümkünlüyü ailənin ümumi gəlir səviyyəsindən də asılı idi. Əsasən gəliri yüksək olan respondentlərin qoruyucu vasitələrdən daha çox istifadə etməsi ehtimal olunurdu. Məsələn, aylıq gəliri 101-300 manat təşkil edən ailələrdə kişilərin 7,9%-i ilə müqayisədə, aylıq gəliri 301-500 manat təşkil edən ailələrdə kişilərin 22,2%-i və aylıq gəliri 1.000 manatdan yuxarı olan ailələlərdə kişilərin 42,9%-i qoruyucu vasitələrdən istifadə etdiyi barədə məlumat verib.

### *Cədvəl 11. Yaş, yaşayış yerinin növü və ailə gəliri üzrə son cinsi əlaqə zamanı qoruyucu vasitələrdən istifadənin faiz nisbəti*

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Son cinsi əlaqə zamanı qoruyucu vasitədən istifadə | | |
| Cəmi | 15,3 | 8,2 |
| Yaşından asılı olaraq qoruyucu vasitədən istifadə | | |
| 18-24 | 36,0 | 20,0 |
| 25-34 | 24,5 | 14,9 |
| 35-49 | 12,9 | 7,3 |
| 50-59 | 6,5 | 2,0 |
| Yaşayış yerinin növündən asılı olaraq qoruyucu vasitədən istifadə | | |
| Paytaxt şəhər | 27,5 | 14,6 |
| Böyük şəhər | 11,3 | 10 |
| Kiçik şəhər | 6,7 | 7,7 |
| Kənd yeri | 13,0 | 3,0 |
| Ailənin aylıq gəlir səviyyəsindən asılı olaraq qoruyucu vasitədən istifadə | | |
| 100 manatdan aşağı | 16,3 | 6,1 |
| 101-300 manat | 7,9 | 9,3 |
| 301-500 manat | 22,2 | 20,0 |
| 501-700 manat | 25,0 | 0,0 |
| 701-1.000 manat | 25,0 | 0,0 |
| 1.001 manat və ya daha çox | 42,9 | 0,0 |

## Haşiyə 2: Ailə Planlaşdırılması

Keyfiyyət sorğusundan əldə edilən məlumatlar ailə planlaşdırılmasını (məsələn, uşaqların ailədə sayı və ya hamiləliklərarası müddət) müzakirə edən ər-arvad cütlüyünün sayının az olduğunu göstərir. Kişilər uşaq sahibi olmaq istədiklərini bildirsələr də, "planlaşdırılma" sözünün əsl mənasını başa düşmürdülər. Kişi repondentlərdən biri bunları dedi: *"Azərbaycanda nikahdan müəyyən müddət sonra uşağın olması bir ənənədir və planlaşdırma prosesi ilə heç bir əlaqəsi yoxdur."* Bu isə o deməkdir ki, nikahdan sonra qadının öz partnyoru ilə ailənin formalaşdırılması barədə müzakirələr aparması əvəzinə dünyaya uşaq gətirməsi bir sosial gözləntidir. Başqa bir kişinin dediklərinə görə: *"Əlbəttə, kişlərin birgə ailə planlaşdırılması və qərar qəbuletmə proseslərindəki rolunu müzakirə etmək lazımdır, çünki onlar ailədə neçə uşağın olması və qadınların nə vaxt dünyaya uşaq gətirməsi məsələlərində əsas rol oynayırlar."*

Nikahdan əvvəl ailə planlaşdırılması məsələlərinin müzakirə edildiyini bildirən respondentlər üçün ən geniş yayılmış mövzu ailədə neçə uşağın olması barədə qərar qəbul etməkdən ibarət idi. Ər-arvad cütlüklərinin çoxu ailədə iki uşağın, bir qızın və bir oğlanın olmasını planlaşdırıb. Maraqlısı odur ki, faktiki olaraq respondentlərin çoxunun hələ də reproduktiv yaşda olduğuna baxmayaraq ailədə üç və ya dörd uşağın olmasını nikahdan əvvəl planlaşdıran cütlüklər, nikahda olduqları zaman çətinliklərlə üzləşdiyindən dünyaya yalnız iki uşağın gətirilməsi ilə kifayətlənib. Ailədə az sayda uşağın olması barədə qərarın qəbul olunmasının əsas səbəbi sosial-iqtisadi çətinliklərlə əlaqədar idi ki, valideynlər bütün uşaqların ehtiyaclarını hərtərəfli təmin etmək iqtidarında deyildi.

Bundan başqa, respondentlərdən bəziləri hesab edir ki, ailədə az sayda uşağın olması seçimi qadının iki nəfərdən çox uşağa baxmaq üçün vaxtının olmaması ilə əlaqədardır və bu qadınların və kişilərin ailələrdəki rolları barədə ənənəvi ehtimalları özündə əks etdirir. Məsələn, bir respondent bunları bəyan etmişdir: *"Ailədə iki nəfərdən çox usağın olması qadın üçün böyük çətinlikdir, çünku o, hər bir uşağa kifayət qədər vaxt ayıra bilmir."*

Sorğu zamanı müəyyən olunmuşdur ki, ailə planlaşdırılması təcrübəsi xüsusilə ər və arvadın təhsil səviyyəsi ilə bağlı olan bir məsələdir. Əksər hallarda ailə planlaşdırılması təcrübəsindən istifadə etmələri barədə məlumat verən ər-arvad cütlükləri ali təhsilli idi. Bütün respondentlərin təxminən yarısı ailə planlaşdırılması ilə bağlı heç bir məlumat verməyib.

### *3.5.2. Digər qoruyucu vasitələr*

Qadınların təxminən 60, kişilərin isə 40%-indən bir qədər çox hissəsi hamiləliyin qarşısını almaq və ya təxirə salmaq üçün ən azı bir müasir və ya ənənəvi üsuldan istifadə etdiyini bildirib. Müasir və ya ənənəvi qoruyucu vasitələrdən istifadəyə üstünlüyün verilməsi barədə məlumatları özündə əks etdirən Cədvəl 12-də kişi və qadınların kontrasepsiyadan istifadəsi ilə bağlı fərqlər də nümayiş olunur. Kişi və qadınların müasir qoruyucu vasitələrdən istifadə etməsi haqqında verdiyi məlumatlar nisbətən oxşar xarakter daşısa da (müvafiq olaraq 22% kişi və 26,4% qadın bu barədə məlumat verib), kişi respondentlərin 42,6%-i, qadınların isə üçdə birindən də az bir hissəsi ənənəvi və müasir qoruyucu vasitələrdən qarışıq olaraq istifadə etdiyini bildirib. Əksər hallarda qadınlar ənənəvi üsullardan istifadə etmə barədə məlumat veriblər (20,6% kişi ilə müqayisədə 33,1% qadın). Məlumat üçün Cədvəl 12-yə bax.

Respondentlər tərəfindən istifadə edilmiş konkret qoruyucu vasitələr barədə məlumat Cədvəl 13-də təqdim olunub. Həm kişi, həm də qadın respondentlərə əsasən ən geniş yayılmış üsul yarımçıq cinsi əlaqədən ibarətdir. İstər kişi, istərsə də qadın respondentlər arzuolunmaz hamiləliyin qarşısını almaq üçün geniş yayılmış müasir qoruyucu vasitələrdən biri kimi uşaqlıqdaxili vasitələri (UDV) qeyd ediblər. Beləliklə, qadınların 29,9, kişilərin isə 33,5%-i onlar və ya onların partnyorları tərəfindən UDV-dən istifadə etmə

barədə məlumat verib. Hər beş kişidən və yeddi qadından biri kişi kondomlarından istifadə etdiyini bildirsə də, heç bir respondent qadın kondomlarından istifadə barədə məlumat verməyib və buna səbəb isə bu cür kondomların ölkədə mövcud olmamasını göstərib. Maraqlısı odur ki, kişilərin 25,2%-i partnyorları tərəfindən kontraseptiv həblərdən istifadə olunduğunu qeyd etsə də, qadınların yalnız 12,7%-i bu cür həblərdən istifadə etdiyini bildirib.

### Cədvəl 12. Qoruyucu vasitələrdən istifadə edən kişi və qadınların faiz nisbəti

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Qoruycu vasitələrdən istifadə olunmur | 14,7 | 16,2 |
| İstənilən müasir qoruyucu vasitədən istifadə olunur | 22.0 | 26,4 |
| İstənilən ənənəvi qoruyucu vasitədən istifadə olunur | 20,6 | 33,1 |
| Ənənəvi və müasir vasitələrdən qarışıq olaraq istifadə olunur | 42,6 | 24,3 |

### Cədvəl 13. Müxtəlif qoruyucu vasitələrdən istifadə edən kişi və qadınların faiz nisbəti[17]

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Müasir qoruyucu vasitələr | | |
| Qadın sterilizasiyası | 0,0 | 0,0 |
| Kişi sterilizasiyası | 0,0 | 0,0 |
| Həblər | 25,2 | 12,7 |
| İynələr | 1,2 | 1,4 |
| Uşaqlıqdaxili vasitələr (UDV) | 33,5 | 29,9 |
| İmplantlar | 0,0 | 0,0 |
| Kişi kondomları | 20,4 | 14,9 |
| Qadın kondomları | 0,0 | 0,0 |
| Spermisidlər/köpük/gel | 1,2 | 1,8 |
| Diafraqma/qapaqçıq | 0,0 | 0,0 |
| Halqa | 0,0 | 0,0 |
| Laktasiya amenorreya üsulu[18] | 1,1 | 1,4 |
| Ənənəvi üsullar | | |
| Ritm/temperatur/təqvim üsulu/dövrlər | 8,5 | 12,7 |
| Yarımçıq cinsi əlaqə | 60,3 | 59,7 |

[17] Respondentlərinçoxsaylı vasitələrdən istifadəni qeyd etməsi səbəbindən nisbətlərin cəmi 100% -lik göstəricini təşkil etmir.

[18] 2006-cı ildə keçirilmiş Azərbaycan Respublikasında Demoqrafiya və Sağlamlıq Sorğusuna əsasən döşlə laktasiya amenorreya üsulu müasir üsullar sırasına daxil edilib. Baxın: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Macro International Inc. "Azərbaycan Respublikasında Demoqrafiya və Sağlamlıq Sorğusu 2006", 2008-ci il, səh. 54. Kalverton, Merilənd, ABŞ: Dövlət Statistika Komitəsi və Macro International Inc.

## Haşiyə 3: Qoruyucu vasitələr

Keyfiyyət sorğusunda iştirak etmiş kişilər hamiləliyin qarşısının alınması və ya təxirə salınması üçün ən təhlükəsiz və daha səmərəli vasitələr kimi əsasən qeyri-hormonal üsulları, o cümlədən, yarımçıq cinsi əlaqəni, kişi kondomlarını və təqvim üsulunu qeyd ediblər. Həmin kişilərə əsasən *“bu üsullar zərərsizdir və onların heç bir yan təsiri yoxdur”* və *“bu təbii və zərərsiz üsullardır.”*

Qeyri-hormonal üsullara üstünlük verilsə də, kişilər kondomlardan istifadə etməyi xoşlamadıqlarını bildiriblər. Onların dediklərinə görə: *“Bu mənim üçün rahat deyil”*, *“[bu] cinsi aktı bərbad edir”* və *“bu cinsi məmnuniyyətə mənfi təsir edir.”* Bəzi qadınlar hesab edirlər ki, *“onların ərləri kondomları narahat hesab etdiyindən [onları] istifadə etməyi xoşlamırlar.”*

Kişilərin və qadınların çoxu əmindir ki, kontraseptiv həblər *“onların sağlamlığı üçün çox zərərlidir”* və sonsuzluğa, hormonal disfunksiyaya və *“menstrual tsiklin pozulmasına”* gətirib çıxara bilər.

Ümumilikdə götürəndə qoruyucu vasitələrin əldə edilməsi ilə bağlı respondentlərin heç bir şikayəti yox idi. Xüsusilə kənd yerlərində respondentlərin qoruyucu vasitələrin əldə etməsi ilə bağlı problemlərlə üzləşmələrinə və ya qoruyucu vasitə almaqda utanma hissləri keçirmələrinə aid cəmi bir neçə hal mövcud idi. Bir qadın respondentə əsasən: *“Qadınların çoxu aptekdən kondom almaqdan utanır.*

Respondentlər müasir vasitələlərlə yanaşı əsasən ənənəvi vasitələrdən, məsələn, yarımçıq cinsi əlaqədən, kişi kondomlarından və uşaqlıqdaxili vasitələrdən (UDV) istifadə etmələri barədə məlumat veriblər. Bəzi respondentlər kondomların mövcud olmadığı hallarda (məsələn, kənd yerlərində) yarımçıq cinsi əlaqədən və ya təqvim üsulundan istifadəyə üstünlük verdiklərini qeyd ediblər. Əldə olunmuş məlumatlara əsasən kontrasepsiyanın uşaqlıqdaxili vasitələr (UDV) kimi müasir üsulları bir sıra qadınlar tərəfindən istifadə edilsə də, bəzi qadınlar bununla bağlı öz narahatlıqlarını ifadə ediblər, *“bu cinsi akt zamanı onlara zərər verə bilər”* və *“qadınlar UDV-dən istifadə edərkən xəsarət ala bilərlər.”*

Respondentlər qoruyucu vasitələr haqqında məlumatı mütəxəssislərdən deyil, ətrafdakı insanlardan əldə etdiklərini diqqətə çatdırıblar. Bununla belə, onlar öz suallarına elmi cəhətdən dəqiq cavab almaq üçün bunun ən yaxşı yol olmadığını etiraf edibər. Həmin respondentlərə əsasən: *“Əksər hallarda bu qeyri-dəqiq məlumatdır”* və *“ideal şəraitdə [qoruyucu vasitələrdən] müvafiq qaydada istifadə haqqında bu cür məlumatı və tövsiyələri tibb işçilərindən və ya həkimlərdən əldə etmək daha yaxşı olardı.”*

### *3.5.3. Ailə planlaşdırılması və qoruyucu vasitələrdən istifadə etmə ilə bağlı qərar qəbuletmə*

Cinsi əlaqələr zamanı kondomlardan və qoruyucu vasitələrdən daha geniş istifadə ilə bağlı müzakirələrin aparılmasında və qərarların qəbul edilməsində gender səlahiyyətlərinin dinamikası müəyyən rol oynayır. Diaqram 4-də göstərildiyi kimi, sorğuda iştirak edən kişi və qadın respondentlər kondomlardan istifadə ilə bağlı qərar qəbuletməyə dair kəskin fərqli yanaşmalar ifadə ediblər. Kişilərin yalnız 52,4, qadınların isə 80%-i ən son cinsi əlaqə zamanı kondomdan istifadə ilə bağlı qərarı öz partnyoru ilə birlikdə qəbul etdiyini qeyd edib. Kişilərin 45%-i ən son cinsi əlaqə zamanı kondomdan istifadə haqqında qərarın onlar tərəfindən qəbul edildiyini bəyan etsə də, qadınlardan heç biri kondomdan istifadə etmə ilə bağlı qərarın onun partnyoru tərəfindən qəbul edildiyini bildirməyib. Əldə edilən məlumatlar göstərir ki, kişilərlə müqayisədə daha çox qadın ən son cinsi əlaqə zamanı kondomlardan istifadə etməni daha çox təkid edən tərəf olub. Ümumiyyətlə kişilərin çoxu kondomlardan istifadə etmək qərarını təkbaşına və birgə qəbul etdiyini bildirsə də, sorğuda iştirak etmiş qadınların hamısı kondomlardan istifadə etmək qərarının onlara məxsus olduğunu və ya birgə xarakter daşıdığını qeyd edib.

### *Diaqram 4. Ən son cinsi əlaqə zamanı kondomdan istifadə ilə bağlı qərar qəbuletmə*




Diaqram 5-də də göstərildiyi kimi, kişilərlə müqayisədə gender bərabərliyini daha çox dəstəkləyən qadınların qoruyucu vasitələrdən istifadə ilə bağlı nisbətən fərqli düşüncələri mövcuddur. Respondentlərin çoxu qoruyucu vasitələrdən istifadə ilə bağlı qərar qəbuletmənin ilk növbədə qarşılıqlı razılıq və anlaşma əsasında aparıldığını qeyd edib: kişi respondentlərin 68,8 və qadın respondentlərin 79,2%-i qoruyucu vasitələrdən istifadə etmək barədə qərarın öz partnyorları ilə birgə qəbul olunduğunu bildirib. Bununla belə, kişilərin dörddə birindən də çox bir hissəsi qoruyucu vasitələrdən istifadə ilə bağlı qərar verərkən son söz sahibi olduğunu bildirsə də, bu barədə qərarın kişi partnyor tərəfindən qəbul edildiyini qadınların onda birindən də az hissəsi bəyan edib. Qadınlar (10,6%) bu məsələ ilə bağlı son sözün onlar tərəfindən deyildiyini bəyan etsə də, kişilərin cəmi 4,8%-i qoruyucu vasitələrdən istifadə ilə bağlı son sözün qadınlar tərəfindən deyildiyini hesab edirdi. Çox az sayda respondent kənar şəxsin təsiri ilə qoruyucu vasitələrdən istifadə etdiyini bildirib.

### *Diaqram 5. Qoruyucu vasitələrdən istifadə ilə bağlı son söz*




Eyni zamanda, respondentlərə sonuncu uşağın olması və ya övladlığa götürülmə zamanı bu barədə qərarın kim tərəfindən verildiyinə dair sual verilib. Verilən cavablar qərarın əsasən birgə qəbul olunduğunu göstərir: qadınların 74,5 və kişilərin 83,4%-i partnyorların hər ikisinin uşağın olması qərarına "eyni vaxtda" gəldiyini bildirib. Sözügedən məsələ ilə bağlı fərqli cavablar vermiş kişi və qadınların faiz nisbəti kifayət qədər az idi: qadınların 6,4 və kişilərin 8,5%-i əsasən onların uşağın olmasını istədiyini bildirsə də, kişilərin yalnız 3,4%-i uşağın olmasını qadın partnyorlarının daha çox istədiyini qeyd edib. Qeyd etmək maraqlı olardı ki, kişilərin 4,7 və qadınların 11,8%-i sonuncu uşağın olmasının və ya övladlığa götürülməsinin planlaşdırılmadığını diqqətə çatdırıb.

#### *3.5.4. Qoruyucu vasitələrə münasibət*

Kişi respondentlərin 25, qadınların isə 19,5%-i qoruyucu vasitələrdən istifadənin mənəvi cəhətdən düzgün olmadığını bəyan edib. Keyfiyyət sorğusunun nəticələrinə uyğun olaraq, kəmiyyət sorğusunda iştirak etmiş kişilərin və qadınların da böyük əksəriyyəti qoruyucu vasitələrin mənfi yan təsirə malik olmasına əmindir. Buna baxmayaraq, bu məsələ ilə bağlı belə mənfi düşüncələr respondentlərin qoruyucu vasitələrin vacib rol oynaması barədə fikirlərinin qarşısını almır: qadınların 97,8 və kişilərin 86%-i ər-arvad cütlüyünün hamiləliyə hazır olmadığı təqdirdə qoruyucu vasitələrin hansısa növündən istifadə etməsini qəbul edib.

"Kondomlar cinsi aktı bərbad edir" fikrinə gəldikdə isə, kişi və qadın respondentlərin müvafiq olaraq 68,9 və 54,3%-i bununla razılaşıb.

Qoruyucu vasitələrə ümumi münasibəti daha yaxşı başa düşmək məqsədilə tədqiqatçılar müvafiq münasibəti müəyyən edən beş fikir üzrə orta ballar işləyib hazırlayıblar. 1-dən 4-ə dək dəyişən bu balların daha yüksək olması qoruyucu vasitələrdən istifadə məsələsinə daha yaxşı münasibəti ifadə edir. Ümumi nəticələrə görə, kişilərin orta balı 2,62 (SF=0,45), qadınlarda isə bu rəqəm 2,87 (SF=0,34) təşkil edib.[19] Bu rəqəmlər kişilərlə müqayisədə bir qayda olaraq qadınların qoruyucu vasitələrə əhəmiyyətli dərəcədə müsbət və dəstəkverici münasibətdə olduğu qənaətini formalaşdırır.

### Cədvəl 14. Qoruyucu vasitələrdən istifadə məsələsinə münasibət

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Qoruyucu vasitələrdən istifadə edən qadınlar əxlaqsız ola bilər. | 20,9 | 4,4 |
| Qoruyucu vasitələrin qadınlara mənfi yan təsiri ola bilər. | 73,8 | 84,3 |
| Mən qoruyucu vasitələrdən istifadənin mənəvi cəhətdən düzgün olmadığını hesab edirəm. | 25,0 | 19,5 |
| İntim partnyorlar uşaq sahibi olmağa hazır olmadıqda qoruyucu vasitələrin hansısa növündən istifadə etməlidirlər. | 86,0 | 97,8 |
| Kondomlar cinsi aktı bərbad edir. | 68,9 | 54,3* |

* Qadınların böyük hissəsi (53%-i) “bilmirəm” cavabını verib. Bu fikrə öz münasibətini bildirmiş respondentlərin faiz nisbəti göstərilib.

#### *3.5.5. Qoruyucu vasitələrdən istifadə imkanları*

Kişi və qadınların təxminən dörddə biri (müvafiq olaraq 27,9 və 24,8%-i) yaşadıqları rayonda və ya kənddə qoruyucu vasitələrin əldə edilməsinin çətin olduğunu bildirsə də, kişilərin 72,2 və qadınların 69,4%-i bu fikirlə razılaşmayıb (Diaqram 6-ya baxın). Bu fikirlə tam razı olduqlarını bildirən respondentlərin əksəriyyəti kənd yerlərində yaşayır; bu fikirlə ümumiyyətlə razı olmayan kişilərin 88,4, qadınların isə 78,6%-i əhalisinin sayı 100.000 nəfərdən az olan yaşayış məntəqələrində yaşayır. Faktiki olaraq, qoruyucu vasitələrin əldə olunması ilə bağlı iddia edilən çətinlik və respondentlərin yaşadığı yerin növü arasında sıx qarşılıqlı əlaqə mövcud idi. Nisbətən kiçik yaşayış məntəqələrində yaşayan (həm kişi, həm də qadın) respondentlər qoruyucu vasitələrin əldə edilməsi ilə bağlı çətinliklərin olması iddiası ilə daha çox razı olduqlarını qeyd ediblər.[20] Bu, qoruyucu vasitələrin çatışmazlığına, onları haradan əldə etmək barədə məlumatın olmamasına və ya qoruyucu vasitələrin kənd yerlərində əldə olunması ilə bağlı digər problemlərin mövcudluğuna işarə edir.

Sosial istək insanların qoruyucu vasitələrə münasibətində böyük rol oynayaraq onların qoruyucu vasitə əldə etmək baxımından məsuliyyət hissinə təsir edir. Sorğunun bu seçməsini təşkil edən kişilərin yarıdan, qadınların isə 40%-dən çoxu hesab edir ki, onların yaşadıqları rayonda və ya kənddə “qoruyucu vasitə almaq ayıbdır”. Ümumi nəticələrə əsasən respondent tərəfindən verilmiş bu cür cavabla onun yaşayış yeri arasında hər-hansı birbaşa əlaqə mövcud deyildir. Müxtəlif yerlərdən olan respondentlərin böyük bir hissəsi eyni tərzdə düşünərək qoruyucu vasitə almağın ayıb olduğunu hesab edir.

Qoruyucu vasitələrin qiyməti şəxsin bu cür vasitədən istifadə etmək imkanına təsir edən əsas amillərdəndir. Belə ki, kişilərin təxminən 95%-i qoruyucu vasitələrin münasib qiymətə olması ilə ya razılaşıb ya da razılaşmayıb, təxminən qadın respondentlərin yarısı həmin vasitələrin nə dərəcədə münasib olması barədə məlumatsız olduğunu diqqətə çatdırıb. Əldə olunmuş belə bir nəticə ona işarə edir ki, qadınların çoxu qoruyucu vasitədən istifadə edib-etməməklə bağlı qərar qəbuletmə səlahiyyətinə malik olmamaqla yanaşı nəsilartırma prosesinə nəzarət etmək üçün müvafiq vasitələrin alınması ilə də məşğul olmur.

[19] $p < ,001$ səviyyəsində statistika baxımından əhəmiyyətli fərq.
[20] $p < ,001$ səviyyəsində statistika baxımından əhəmiyyətli fərq.

## Diaqram 6. Qoruyucu vasitələrdən istifadə imkanlarına dair münasibət




## Haşiyə 4: Qoruyucu vasitələrdən istifadə

Keyfiyyət sorğusunun respondentləri, xüsusən də qadınlar mövcud qoruyucu vasitələr haqqında bu və ya digər dərəcədə bilikli və məlumatlı olduqlarını bəyan ediblər. Respondentlərin çoxu ən azı bir qoruyucu vasitə növündən istifadə etdiyini qeyd etsə də, ər-arvaddan ibarət bir neçə cütlük qoruyucu vasitələrdən istifadə edib etməməklə bağlı müzakirə etdiklərini bildiriblər.

Kişilərin qoruyucu vasitələrdən istifadə etməməsinin səbəbi əsasən dini qadağalarla əlaqədardır. Məsələn, kişilərdən birinin dediklərinə görə: *“Özünü hamiləlikdən qorumaq günahdır. Sən Allahın göstərdiyi qədər uşaq dünyaya gətirməlisən.”* Bununla yanaşı, kişi respondentlərdən bəziləri onlarla bir qrupdan olan başqa insanların (məsələn, yaxın dostların və ya qohumların) bu cür dini yanaşmaya şərik çıxmaları barədə məlumat verib.

Artıq qeyd olunduğu kimi, ümumiyyətlə qoruyucu vasitələr barədə məlumat çatışmazlığı və ya yanlış məlumat mövcuddur. Qadın respondentlər deyirdi: *“Bu faydasızdır və insan orqanizminə ziyanlı ola bilər” “Sən uşaqlıq daxili vasitədən [UDV] istifadə etməklə artıq çəki yığa bilərsən”* və *“həblər insan sağlamlığı üçün zərərlidir”.* Eyni zamanda, respondentlər qoruyucu vasitələrdən, xüsusilə kondomlardan istifadə səviyyəsinin aşağı olmasını cinsi əlaqə zamanı narahatlıqla və zövqün olmaması ilə əlaqələndiriblər: bu da sorğunun kəmiyyət komponenti əsasında əldə olunmuş nəticələrlə üst-üstə düşür.

Həkimlərin və səhiyyə xidmətləri göstərən digər tibb təchizatçılarının qoruyucu vasitələr barədə yetərincə məlumat verməməsi də qeyd olunub. Məyusluğunu gizlətməyən qadınlardan biri deyib: *“Mən bir neçə dəfə abort etsəm də, həkim qoruyucu vasitələr barədə bir dənə də söz belə deməyib.”*

Tədqiqatçılar müsahibələr vasitəsilə qadın respondentlərin arzuolunmaz hamiləliyin qarşısının alınmasında maraqlı olduğunu və əksər hallarda öz partnyorları ilə qoruyucu vasitələr barəsində müzakirələrin təşəbbüskarı olduqlarını müəyyən ediblər. Eyni zamanda, kişilərin kondomlardan istifadə

etmək istəməməsi, habelə qadınlarda qərar qəbuletmə səlahiyyətinin və qoruyucu vasitələrdən istifadə etmə barədə müzakirə aparmaq imkanının olmaması ilə bağlı bir neçə hal da qeydə alınıb.

### *3.5.6. Abort (qərarlar, davranış formaları və dəstək)*

Sorğu zamanı qadınların 64,3%-nin ən azı bir dəfə abort etməsi müəyyən edilib; qadınların hamısı abort zamanı 18 və ya daha çox yaşda olduğunu qeyd edib. Abort etmiş qadınların çoxu (90,1%-i) onların kişi partnyorlarının qərar qəbuletmə prosesində həmişə iştirak etdiyini bildirib. Kişilərin və qadınların abortla bağlı qərar qəbuletmə barədə verdiyi məlumatlarda mövcud olan uyğunsuzluqlar Cədvəl 15-də öz əksini tapıb.

## *Cədvəl 15. Abort və abortla bağlı qərar qəbuletmə*

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Abort etmək barədə qərar sonuncu dəfə kimə məxsus idi? | | |
| Əsasən qadına | 13 | 18 |
| Əsasən kişiyə | 6,7 | 1,6 |
| Birgə qərar idi | 77,8 | 78,9 |
| Başqalarına (o cümlədən, başqa bir şəxsə, kişiyə və başqa bir şəxsə və qadına və başqa bir şəxsə) | 2,5 | 1,5 |
| Kişi partnyorun abort ilə bağlı prosesdə iştirakı | | |
| Siz sonuncu dəfə abort etmək üçün maddi dəstək göstəribsiniz?/Sizin partnoyrunuz/əriniz sonuncu dəfə abort etmək üçün sizə maddi dəstək göstərib? | 95,8 | 98,4 |
| Son abort zamanı siz aborta gedən arvadınızı/partnyorunuzu müşayiət etmisiniz?/ Son abort zamanı partnyorunuz/əriniz sizi müşayiət edib? | 49,8 | 38,3 |

Abortda iştirak edən həm kişi, həm də qadın respondentlərin təxminən hamısı sonuncu dəfə abort etmək üçün maddi dəstəyin kişi tərəfindən göstərilməsini bildirməklə, abortla bağlı xərclərin kişi partnyorlar tərəfindən öz üzərinə götürülməsinin ümumi bir təcrübə olduğunu nümayiş etdirib. Kişi partnyorların təxminən yarısı sonuncu dəfə aborta getmiş arvadlarını/partnyorlarını müşayiət etdiklərini qeyd etsə də, qadın respondentlərin 38,3%-i sonuncu dəfə aborta getdikləri zaman ərləri/partnyorları tərəfindən müşayiət edildiyini diqqətə çatdırıb. Bu kişilərin qoruyucu vasitələrdən istifadə və ailə planlaşdırılması məsələlərində iştirakının vacib başlanğıc nöqtəsi hesab edilə bilər. Kişilərin 77,8 və qadınların 78,9%-i abort etməklə bağlı birgə qərarın qəbul edildiyini bildirsə də, bu cür qərarın əsasən qadınlara məxsus olduğunu kişilərlə müqayisədə daha çox qadın tərəfindən qeyd edilib. Daha az qadın bu cür qərarların əsasən kişilər tərəfindən verildiyini bildirib (bunu 6,7% kişi ilə müqayisədə yalnız 1,6% qadın qeyd edib).

## *Haşiyə 5: Abort məsələləri*

Demək olar ki, keyfiyyət sorğusunda iştirak etmiş hər bir qadın həyatda ən azı bir dəfə abort edib. Bunun əsas səbəbləri arasında dölün inkişafında problemlər, qoruyucu vasitələrdən istifadə etməmə və ailədə olan uşaqların sayının kifayət etməsi qeyd olunub.

Bir neçə qadın bildirib ki, ümumiyyətlə onların hamiləliyi dayandırmaq barədə qərarı ərləri tərəfindən dəstəklənib. Qadınlardan biri bunları deyib: *"O məni aborta [abort etməyə] heç vaxt göndərməyib. Hesab edirəm ki, ərin sənə hörmət edirsə, bunu heç vaxt etməz."* Kişi respondentlərdən biri qeyd edib: *"Abort etmək qərarı arvadım tərəfindən qəbul olunub, uşaq körpə olduğundan o, növbəti hamiləliyə hazır deyildi. Mən sadəcə olaraq onun qərarına hörmətlə yanaşdım. Mən bu qərarın əleyhinə getmək istəmədim və təklifi qəbul etdim."* Eyni zamanda, kişilər öz arvadlarının qərarını abort etmək üçün pul verməklə və onları aborta gedərkən müşayiət etməklə dəstəklədiklərini diqqətə çatdırıb.

Kəmiyyət tərkibli məlumatlarda qeyd olunduğu kimi respondentlərin əksəriyyəti abort etmək qərarını öz partnyoru ilə müzakirə etdiyini və buna qarşılıqlı razılıq əsasında getdiyini bəyan etmişdir. Kişi respondentlərdən birinə görə: *"Həmin zaman biz uşağımızın çox körpə olması, habelə növbəti hamiləlik üçün hazır olmamağımız səbəbindən bu addımı atmalı olduq."*

Narahatedici məqam ondan ibarətdir ki, ər-arvad cütlüklərinin bəziləri abortdan qoruyucu vasitə kimi istifadə etdiyini qeyd edib.

## 3.6. Valideynlik və qayğı göstərmə

Respondentlərin uşaqları ilə münasibətinə, həmçinin uşaqlara valideynlik etmə və qayğı göstərmə məsələlərilə bağlı münasibətlərə və davranışlara aid məlumat bu bölmədə təqdim olunur. Bu bölmədə həmçinin uşaq həyatının ilk dövrlərindən başlayaraq atanın bütün müvafiq proseslərdə iştirakı səviyyəsinin öyrənilməsi məsələsinə xüsusi diqqət ayrılır. Buna səbəb bu cür iştirakın uşağın rifahına müsbət təsir etməsi ilə yanaşı uşağın böyüdülməsi və tərbiyələndirilməsində kişi və qadınların roluna cəmiyyətdaxili münasibətlərin dəyişməsi prosesini özündə əks etdirə bilər.

Cədvəl 16-da göstərildiyi kimi, hər kişi respondentin payına orta hesabla 2,21 uşaq, qadın respondentin payına isə 2,41 uşaq düşməklə sorğu seçmələrinin təxminən üçdə ikisinin öz bioloji uşaqları olub. Qız uşaqları ilə müqayisədə oğlan uşaqlarının sayı bir qədər çox olsa da, bu fərq statistik əhəmiyyət daşımayıb.

## *Cədvəl 16. Ailənin xüsusiyyətləri*

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Bioloji uşaqları olan respondentlərin faiz nisbəti | 78,3% | 75,3% |
| Hər respondentin payına düşən bioloji uşaqların orta sayı | 2,21 | 2,41 |
| Hər respondentin payına düşən bioloji oğlan uşaqlarının orta sayı | 1,13 | 1,22 |
| Hər respondentin payına düşən bioloji qız uşaqlarının orta sayı | 1,08 | 1,19 |
| Yaşı 18-dən aşağı olan və respondentin ev təsərrüfatında yaşamayan hər hansı usağı barədə məlumat vermiş respondentlərin faiz nisbəti | 1,9% | 0% |

### *3.6.1. Kişilərin antenatal qayğı prosesində iştirakı*

Kişilərin əksəriyyəti öz partnyorlarını antenatal qayğı ilə bağlı bir və ya daha çox tibbi müayinə zamanı müşayiət etdiyini bildirib və bu cür məlumat müvafiq olaraq qadınlar tərəfindən də verilib. Təxminən beş kişidən biri isə bu cür müayinələrin hər birində öz partnyorunu müşayiət etdiyini qeyd edib (Cədvəl 17-yə

baxın). Bununla belə, çox az sayda kişi həmin müayinlərdə faktiki olaraq iştirak edib - bu cür səfərin son hissəsində kişilərin iştirak etməsi barədə məlumatı kişilərin yalnız 4,4, qadınların isə 3,7%-i verib; kişilərin çoxu öz həyat yoldaşlarını müayinə yerinə gətirdikdən sonra bayırda və ya gözləmə otağında gözləyib. Səhiyyə xidmətlərinin göstərilməsi, habelə anaya və yeni doğulmuş uşağa qayğının göstərilməsi, uşağın sağlamlığı və gender bərabərliyi proseslərinə kişilərin mümkün qədər cəlb olunması baxımından bunu itirilmiş imkan hesab etmək olar: çünki ataların cəlb edilməsi üçün bu cür fürsətlərdən istifadə etmək lazımdır

## Cədvəl 17. Son və ya cari hamiləlik zamanı antenatal qayğı ilə bağlı həkim qəbulunda iştirak

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Antenatal qayğı ilə bağlı müayinələr zamanı kişilər tərəfindən müşayiət olunma hallarının tezliyi | | |
| Hər bir müayinə zamanı | 20,5 | 18,1 |
| Bəzi müayinələr zamanı | 36,5 | 32,4 |
| Bir müayinə zamanı | 12,0 | 16,2 |
| Müayinələrin heç birində | 26,8 | 27,5 |
| Mən onun antenatal qayğı ilə bağlı müayinələri barədə xəbərsizəm | 2,0 | 0,0 |
| Qadına heç bir antenatal qayğı göstərilməyib | 2,2 | 5,9 |
| Müayinə zamanı kişilərin olduğu yer | | |
| Onu tibbi müəssisənin girişində tərk edirdi və bayırda gözləyirdi | 56,5 | 44,1 |
| Gözləmə otağında qalırdı | 38,5 | 50,7 |
| Müayinələrin yalniz müəyyən bir hissəsində iştirak edirdi | 4,4 | 3,7 |
| Digər | 0,6 | 1,5 |

### *3.6.2. Atalıq məzuniyyəti*

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən arvadları doğuşla əlaqədar məzuniyyətdə olan kişilərə onların xahişi ilə 14 təqvim gününədək atalıq məzuniyyəti verilir. Bu məzuniyyət ödənişsizdir. Tədqiqatda iştirak etmiş kişilərin cəmi 6,1%-i son uşağın doğuşu ilə əlaqədar atalıq məzuniyyətinin və ya istirahət günlərinin götürülməsi barədə məlumat verib. Qadınların verdiyi məlumata görə bu rəqəm daha da aşağıdır – qadınların yalnız 2,9%-i (6 nəfər) sonuncu dəfə uşağın doğuşu ilə əlaqədar onların ərləri və ya partnyorları tərəfindən atalıq məzuniyyətinin və ya istirahət günlərinin götürüldüyünü bildirib. Beləliklə, atalıq məzuniyyəti üçün götürülmüş günlər barədə məlumatları nəzərə alaraq sorğuda iştirak etmiş kişi respondentlərin hamısı atalıq məzuniyyəti götürmüş olsa idi, onların hər birinin payına qanunla nəzərdə tutulmuş 14 gün əvəzinə orta hesabla 4,9 gün düşmüş olardı.

### *3.6.3. Qayğının göstərilməsi prosesində kişilərin iştirakı*

Respondentlərə son uşaqları ilə bağlı işlərin respondentlərin özləri və ya həyat yoldaşları arasında necə bölüşdürülməsi barədə suallar verilib. Ümumi nəticələrə görə qayğının göstərilməsi ilə bağlı bütün vəzifələrin yerinə yetirilməsində kişilərin iştirak səviyyəsi qadınlarla müqayisədə aşağı olsa da, qadınlarla müqayisədə kişilər öz iştirakının yüksək  səviyyədə olması ilə əlaqədar daha çox məlumat verməyə meylli idi. Diaqram 7-də göstərildiyi kimi, respondentlər uşağa ilk növbədə fiziki qayğının göstərilməsi ilə bağlı işlərin qadınlar tərəfindən yerinə yetirildiyini qeyd edib. Uşaqla vaxt keçirməyə aid olan işlər daha çox bərabər şəkildə bölüşdürülür və ya birgə yerinə yetirilirdi; burada ev tapşırıqlarının yerinə yetirilməsinə edilən kömək istisna təşkil edirdi. Buna səbəb verilmiş məlumatlara əsasən atalarla müqayisədə belə bir işin daha çox analar tərəfindən görüldüyü göstərilirdi.

Cəzalandırma məsələlərinə gəldikdə, kişilərin və qadınların verdiyi məlumatlarda bəzi fərqlər mövcud idi. Həm kişilər, həm də qadınlar usağın adətən qadın tərəfindən kötəkləndiyini və ya döyüldüyünü diqqətə çatdırib. Bununla belə, kişilərin 42,7%-i uşağın kişilər və qadınlar tərəfindən bərabər olaraq və ya birgə danlandığını qeyd etsə də, qadınların yalnız 29,3%-i bu tədbiri “birgə iş” kimi qələmə verib: uşağın adətən və ya həmişə qadınlar tərəfindən danlandığını qadınların 54,9%-i bəyan edib.

## Diaqram 7. Son uşağa qayğı göstərmə ilə bağlı işlərin bölgüsü




* Uşağa fiziki qayğının göstərilməsi 4 məsələni nəzərdə tutur: uşağa gündəlik qayğının göstərilməsi, uşaq xəstələndikdə onunla evdə qalmaq, uşağın bezinin və ya paltarlarının dəyişdirilməsi və uşağın çimizdirilməsi.
** Uşaqla vaxt keçirmə 3 məsələni nəzərdə tutur: uşağa onun ev tapşırığı ilə bağlı köməkliyin edilməsi, uşaqla şəxsi məsələlər barədə söhbətlərin aparılması və uşaqla oynaq və ya asudə vaxtına aid müxtəlif işlərin birgə görülməsi.
*** Uşağın cəzalandırılması 2 məsələni nəzərdə tutur: uşağın kötəklənməsi və ya döyülməsi (fiziki cəza) və uşağın danlanması (şifahi cəza).

Cəzalandırma məsələləri ilə də daha çox analar məşğul olub. Hər beş atadan biri heç vaxt öz uşağına şifahi cəza verməyib və ataların yarıdan çoxu uşaqlarını heç zaman kötəkləməyib və ya döyməyib. Anaların demək olar ki, hamısı bunu etdiyini bildirib. Qayğının göstərilməsi ilə bağlı digər məsələlərə gəldikdə isə kişilər uşaqları ilə vaxt keçirdiyini (məsələn, uşaqla şəxsi məsələlər barədə söhbətlərin aparılması, uşağa onun ev tapşırığı ilə bağlı köməkliyin edilməsi və ya uşaqla oynama) daha çox bildirsə də , daha çox ana bu işlə tez-tez məşğul olduqlarını bəyan edib. Bu isə ailə daxilində bir sıra işlərin atalar və analar tərəfindən yerinə yetirilməsi baxımından müəyyən bərabərsizliyin mövcud olmasına işarə edir.

Qayğı göstərmə işlərində iştirakın mütəmadiliyi ilə bağlı bəzi gender məsələləri müəyyən edilib ki, bu zaman atalarla müqayisədə analar müxtəlif sahələr üzrə gündəlik işlərdə daha tez-tez iştirak etmələrini bildiriblər (Cədvəl 18-ə baxın). Son uşağa fiziki qayğının göstərilməsi ilə bağlı işlərin nə vaxtsa yerinə yetirilməsinə aid suala qadınların əksəriyyəti, kişilərin isə cəmi 14,3%-i belə işləri həmişə yerinə yetirdiyini bildirib. Ümumi nəticələrə əsasən, çox az sayda kişi uşağın çimizdirilməsi, habelə uşaq bezlərinin və ya paltarlarının dəyişdirilməsi ilə məşğul olub; kişilərin 50,3%-i körpə xəstələndikdə onunla heç zaman evdə qalmadıqlarını qeyd edib.

## Cədvəl 18. Qayğının göstərilməsi ilə bağlı iş bölgüsü

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Uşağa fiziki qayğının göstərilməsi | | |
| Uşağa gündəlik qayğı göstərmək | 75,4 | 100 |
| Uşaq xəstələndikdə onunla evdə qalmaq | 49,7 | 100 |
| Uşağın bezlərini və ya paltarlarını dəyişmək | 16,7 | 99,4 |
| Uşağı çimizdirmək | 14,3 | 99,4 |
| Uşaqla vaxt keçirmə | | |
| Uşaqla oynama və ya asudə vaxtına aid müxtəlif işləri birgə görmək | 94 | 99,5 |
| Uşaqla şəxsi məsələlər barədə söhbətlər aparmak | 86,4 | 100 |
| Uşağa onun ev tapşırığı ilə bağlı kömək etmək | 86,8 | 98,1 |
| Uşağın cəzalandırılması | | |
| Uşağın danlanması (şifahi cəza) | 79,5 | 100 |
| Uşağın kötəklənməsi və ya döyülməsi | 47,4 | 99,3 |

Gender bərabərliyini dəstəkləyən kişilərin uşaqlarına gündəlik qayğının göstərilməsində daha çox iştirak etməsi barədə məlumat verməsi təəccüb doğurmamalıdır. "GEM" Şkalası üzrə 1,33 bala bərabər olan standart ədalətsizlik əmsalı uşaqlara gündəlik qayğının göstərilməsində iştirak edən kişilərin xeyrinə idi. Vaxtilə özü uşaq olmuş atanın böyük kimi cari qayğı göstərmə işlərinin yerinə yetirilməsində iştirakı onun uşaqlıqdakı vəziyyəti ilə əlaqəli olan bir məsələ idi. Cədvəl 19-da göstərildiyi kimi, vaxtilə ataları ev işində iştirak etməmiş kişilərin 32,6%-i körpələrinə gündəlik qayğının göstərilməsi ilə heç vaxt məşğul olmayıb. Bununla belə, ataları bir və ya bir neçə ev işinin yerinə yetirilməsində iştirak etmiş kişilərin çoxu gündəlik qayğının göstərilməsi ilə bir qayda olaraq yaxından məşğul olduğundan bu cür respondentlərin sayı əhəmiyyətli dərəcədə artmaqla faiz nisbəti 85,1%-ə təşkil edirdi. Bu isə o deməkdir ki, atalarının ev işləri ilə məşğul olmasına şahidlik etmiş kişilər öz uşaqlarına gündəlik qayğının göstərilməsində yaxından iştirak etməklə qayğının gələcək nəsillərə ötürülməsi məsələsini ön plana çəkməyə daha meylli olurlar.

### *Cədvəl 19. Kişi respondentlərin uşaq ikən böyüdükləri evdə atalarının ev işlərində iştirakı səviyyəsindən asılı olaraq qayğının göstərilməsi ilə bağlı iş bölgüsü*

| | Ata heç bir ev işinin yerinə etirilməsində iştirak etməyib | Ata bir və ya bir neçə ev işinin yerinə etirilməsində iştirak edib | Fərq? |
|---|---|---|---|
| Uşağa fiziki qayğının göstərilməsi | | | |
| Uşağa gündəlik qayğı göstərmək | 67,4 | 85,1 | *** |
| Uşaq xəstələndikdə onunla evdə qalmaq | 44,1 | 57,7 | * |
| Uşağın bezlərini və ya paltarlarını dəyişmək | 15,7 | 18,6 | |
| Uşağı çimizdirmək | 12,6 | 17 | |
| Uşaqla vaxt keçirmə | | | |
| Uşaqla oynama və ya asudə vaxtına aid müxtəlif işləri birgə görmək | 93,5 | 94,3 | |
| Uşaqla şəxsi məsələlər barədə söhbətlər aparmaq | 82,8 | 91,5 | ** |
| Uşağa onun ev tapşırığı ilə bağlı kömək göstərmək | 84,6 | 89,8 | * |
| Uşağın cəzalandırılması | | | |
| Uşağın danlanması (şifahi cəza) | 78,3 | 80,2 | |
| Uşağın kötəklənməsi və ya döyülməsi | 44,1 | 55,3 | |

### *Diaqram 8. Kişi respondentin uşaq ikən böyüdükləri evdə atasının ev işlərində iştirakından asılı olaraq uşaqlara gündəlik qayğının göstərilməsində iştirakı*




Uşaq xəstələndikdə onunla evdə qalmaq, uşaqla şəxsi məsələlər barədə söhbətlər aparmaq, uşağa onun ev tapşırığına kömək etmək və uşağın kötəklənməsi və ya döyülməsi kimi qayğı göstərmək kimi işlərlə bağlı kişilər arasında eyni faiz davranış nisbəti müşahidə olunur. Uşağın bezlərinin və ya paltarlarının dəyişdirilməsi, uşağın çimizdirilməsi, uşaqla oynama və ya asudə vaxtına aid müxtəlif işlərin birgə görülməsi və uşağın danlanması (şifahi cəza) kimi digər işlərlə heç zaman məşğul olmamış kişilərin uşaqlıq dövründə atalarının bu kimi işlərdə iştirak edib-etməməsindən asılı olmayaraq faiz nisbəti də çox az fərqlənirdi. Bunu onunla izah etmək olar ki, uşaqla oynama kimi müəyyən işlər təxminən bütün kişilər tərəfindən yerinə yetirilsə də, uşaq bezinin dəyişdirilməsi və ya uşağın çimizdirilməsi kimi işlərlə çox az sayda kişi məşğul olur və bu işlər qadın vəzifələrinə aid edilir.

#### *3.6.4. Kişilərin öz uşaqları ilə münasibəti*

Kişilərin öz uşaqları ilə münasibətinə aid düşüncələri barədə məlumatlar Diaqram 9-da təqdim olunur. Kişilərin böyük əksəriyyəti özünün əsas rolunu uşaqlarının "təminatçısı" olmasında görür. Eyni zamanda, kişi respondentlərin əksəriyyəti onların bu cür işlərdə ata qismində iştirakı yalnız iqtisadi və ya "produktiv" vəzifələrin yerinə yetirilməsi ilə məhdudlaşmamalı olması ilə razılaşıb. Kişlərin üçdə birindən nisbətən çox

hissəsi iş səbəbindən uşaqlarla çox az vaxt keçirdiyini qeyd edib və eyni sayda kişi öz uşaqları ilə daha çox vaxt keçirməli olacağı təqdirdə az işləməli olacağını bildirib.

**Diaqram 9. Öz uşaqları ilə rəftara münasibət**




## 3.7. Rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən zorakılıq

Rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən tətbiq edilən zorakılıq[21] kişi və qadınlar arasında olan münasibətlər iyerarxiyasındakı bərabərsizliyin ən kəskin təzahürlərindən olaraq,bir çox kişi tərəfindən qadın üzərində nəzarət və üstünlüyü tətbiq etmək üçün istifadə edilir. Bu bölmədə respondentlərin uşaqlıq dövründən yetkin həyatadək bir müddət ərzində fiziki, cinsi, emosional və iqtisadi zorakılıq hallarını törətməsinə və/və ya bu cür hallara məruz qalmasına, habelə onların zorakılığa olan münasibətinə dair məlumatlar təqdim olunur.

### *3.7.1. Uşaqlıqda zorakılığa məruz qalma*

Dünyanın müxtəlif yerlərində aparılmış araşdırmalar, o cümlədən, "IMAGES" tədqiqatları göstərir ki, uşaqlıq dövründə zorakılığın şahidi olmaq və ya zorakılığa məruz qalmaq kimi hallar yetkin həyatda özünü büruzə verəcək mənfi fəsadlara gətirib çıxara bilər. 18 yaşına çatmazdan əvvəl respondentlərin zorakılığa məruz qalma hallarına aid məlumatlar Cədvəl 20-də öz əksini tapıb. Sorğunun bu seçməsini təşkil edən həm kişi, həm də qadınlar arasında emosional və ya cinsi zorakılıq səviyyəsi aşağı olsa da, istər kişilərin, istərsə də qadınların fiziki zorakılığa məruz qalma və həyat yoldaşı tərəfindən zorakılığın şahidi olma səviyyələri kifayət qədər yüksəkdir. Qadın respondentlərin 52,4 və kişi respondentlərin 66,5%-i uşaq ikən valideynləri tərəfindən sillələndiyini və ya şapalaqlandığını bildirib. Xüsusilə kişilər uşaqlıqda fiziki zorakılığın daha ağır formalarından əziyyət çəkdiklərini qeyd ediblər ki, qadınlarla müqayisədə kişilər altı dəfə daha çox ağır əşyalarla döyülməsi və dörd dəfə daha çox döyülmə nəticəsində bədənlərində çapıq və zədələrin qalması barədə məlumat veriblər. Kişilərin üçdə birindən çoxu və qadınların təxminən dörddə biri öz analarının həyat yoldaşları tərəfindən döyülməsinin şahidi olduqlarını diqqətə çatdırıblar.

[21] Rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən törədilən zorakılıq" cari və ya keçmiş rəsmi və ya qeyri-rəsmi nikahda yaşadığı şəxs tərəfindən fiziki, cinsi və ya psixoloji zədəyə səbəb olmuş davranışı, o cümlədən, fiziki təcavüzü, cinsi zorakılığı, psixoloji işgəncə verməsi və davranışa nəzarət etməsi deməkdir. Ümümdünya Səhiyyə Təşkilatının İnformasiya Bülleteni (FS239), "http://www.who.int/mediace ntre/factsheets/fs239/en/" internet səhifəsindən götürülüb.

### *Cədvəl 20. 18 yaşı tamam olmamış şəxslərin zorakılığın konkret formalarına məruz qalma halları*

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Fiziki zorakılıq | | |
| Evdə valideynlər tərəfindən sillələnmə və ya şapalaqlanma | 66,5 | 52,4 |
| Evdə qayışla, çubuqla, qamçı ilə və ya başqa ağır əşya ilə döyülmə | 12,2 | 1,9 |
| Bədəndə çapıq və zədələrin qalmasına səbəb olmuş evdə ağır döyülmə | 6,0 | 1,5 |
| Emosional zorakılıq | | |
| Ailədə başqalarının qarşısında təhqir olunma və ya alçaldılma | 9,1 | 7,4 |
| Valideynlərdən birinin və ya ikisinin də spirtli içki və ya narkotik maddə aludəçisi olduğundan qayğısız qalma | 1,6 | 1,1 |
| Cinsi zorakılıq | | |
| Şəxsin istəyinə zidd olaraq kənar şəxsin onun cinsiyyət orqanlarına toxunması və ya onu buna məcbur etməsi | 1,0 | 1,9 |
| Hədə-qorxu gəlməklə, təhdid etməklə və ya güc tətbiq etməklə başqası ilə cinsi əlaqədə olmağa məcbur etmə | 1,1 | 0,4 |
| İntim partnyor tərəfindən zorakılığın (İPZ) şahidi olma | | |
| Öz anasının həyat yoldaşı və ya partnyoru tərəfindən döyülməsinin şahidi olma (döyülmə hadisəsini görmə və ya eşitmə) | 37,8 | 23,1 |

**3.7.2. Zorakılığa münasibət**

Zorakılığa münasibət və müvafiq sosial normalar bu cür halların baş vermə səviyyəsi ilə yanaşı bu kimi əməlləri törədən və həmin əməllərdən zərər çəkən şəxslərin necə qəbul edilməsinə və onlarla rəftar olunmasına təsir göstərir. Respondentlərin zorakılığa münasibəti Cədvəl 21-də təqdim olunur. Ümumi nəticələrə əsasən qadınlarla müqayisədə kişilər öz həyat yoldaşlarına qarşı zorakılıq etməklə bağlı az da olsa daha tolerant münasibət ifadə ediblər: zorakılığın daha uyğun vasitə olduğunu hesab edən kişi respondentlerin nisbəti vəziyyətdən asılı olaraq 15-66% ətrafında dəyişirdi. Bunu qəbul edən qadın respondentlərin də sayı kifayət qədər çox idi: qadınların 11-59%-i həyat yoldaşının qadına qarşı zorakılıq etməsini əsaslandıran bəzi halların mövcud olduğunu hesab edir. Həm kişilər, həm də qadınlar xəyanəti qadına qarşı zorakılığı əsaslandıran başlıca "dəstəkverici" səbəb hesab edirlər.

Həm kişi, həm də qadın respondentlərin təxminən yarısı bəzi hallarda qadının döyülməyə layiq olması fikrini qəbul edirdi və kişilərlə müqayisədə belə bir təcrübənin leyhinə olan qadınların sayı bir qədər çox idi (müvafiq olaraq 47,5 və 52%). Bu göstərici uşaqlara qarşı fiziki cəzanın tətbiqi ilə bağlı verilmiş məlumatlarla uyğunluq təşkil edirdi ki, o halda da uşaqlarını sillələyən və ya döyən kişilərlə müqayisədə qadınların sayı daha çox idi.

Orta hesabla qadınlarla müqayisədə kişilər zorakılığa daha müsbət münasibət göstəriblər: (5-dən 20-dək dəyişən və ən aşağı göstəricilərə əsasən zorakılığın daha çox qəbul edildiyini ifadə edən) beş münasibət ölçüsü üzrə mürəkkəb dəyişən kəmiyyətə görə kişilərin orta balı 13,4-ə (SF=3), qadınların isə 13,9-a (SF=2,5) bərabər idi.[22] Bu səbəbdən də belə qənaətə gəlmək olar ki, kişilərlə müqayisədə qadınlar zorakılığı əsaslandırmağa daha az meylli olsalar da, zorakılıq hallarına hələ də kifayət qədər haqq qazandırırlar.

[22] p = ,01 səviyyəsində əhəmiyyətli fərq.

## Cədvəl 21. Qadınlara qarşı zorakılıq və zorlamaya münasibət

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Zorakılığa münasibət | | |
| Qadın öz ailəsini qoruyub saxlamaq üçün zorakılığa dözməlidir. | 41,0 | 34,7 |
| Bəzi zamanlar qadın döyülməyə layiqdir. | 37,4 | 29,1 |
| Kişini aldadan qadının kişi tərəfindən vurulması normal haldır. | 65,9 | 58,5 |
| Öz əri ilə cinsi əlaqədə olmaq istəməyən qadının əri tərəfindən vurulması normal haldır. | 14,9 | 11,4 |
| Bəzi zamanlar uşaq döyülməyə layiqdir. | 47,5 | 52,0 |
| Zorlama ilə bağlı geniş yayılmış fikirlər | | |
| Adətən əgər qadın zorlanırsa, o belə bir vəziyyətə düşmək üçün nəsə edib. | 25,5 | 14,0 |
| Bəzi zorlama hallarında qadın faktiki olaraq istəyir ki, bu baş versin. | 44,0 | 21,5 |
| Əgər qadın fiziki müqavimət göstərmirsə baş verənlərin həqiqətən də zorlama olduğunu demək olmaz. | 53,2 | 22,2 |
| Hər bir zorlama hadisəsi ilə bağlı zərər çəkmiş qadının əxlaqsız olub-olmaması və ya hansı nüfuza malik olması barədə sual vermək lazımdır. | 26,4 | 18,4 |

### *3.7.3. Ailə münasibətlərində davranışa nəzarət*

Kişilər tərəfindən partnyorlarının davranışına nəzarətetmə zorakılıqla əlaqələndirilən risk amili kimi təqdim olunur.[23] Diaqram 10-da göstərildiyi kimi, bu respondentlərdən təşkil olunmuş seçmədə qadın həyat yoldaşı üzərində nəzarət adi bir hal hesab olunurdu. Kişilərin çoxu (91,4%-i) onların harada olduqlarını hər zaman bilmək istəyini ifadə etmişdirsə, 79,1%-i öz partnyorlarına müəyyən paltarları geyinməyə ümumiyyətlə icazə vermədiyini bildirib. Eyni zamanda, kişilərin çoxu qadınlarla müqayisədə ər-arvad cütlüyünə təsir edən qərarlarla bağlı söz sahibi olduqlarını və ya bu qərarlara, habelə cinsi əlaqələrin nə vaxt baş verməsinə və partnyorlarının vaxt keçirdiyi insanlara daha çox nəzarət etdiklərini qeyd edib. Kişilərin praktiki olaraq hamısı (99,8%-i) sorğuda davranışa nəzarətlə bağlı əks olunmuş yeddi məsələdən ən azı biri ilə yaxından məşğul olduqlarını bildirib.

[23] Fulu və başqaları (2013).

**Diaqram 10. Davranışa nəzarət barədə fikirlərlə razı və ya tamamilə razı olan kişi respondentlərin faiz nisbəti**




### 3.7.4. Rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən zorakılıq

"IMAGES" tədqiqatında nə vaxtsa öz partnyorlarına qarşı güc tətbiq etmiş kişilərdən, habelə öz partnyorlarının zorakılığına məruz qalmış qadınlardan məlumatlar toplanıb. Bu məlumatlara bütün həyat boyu və son il ərzində törədilmiş hər hansı zorakılıq halı daxil edilib. "IMAGES" tədqiqatında rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən törədilən zorakılığın dörd növü ilə (iqtisadi, fiziki, psixoloji və cinsi zorakılıqla) əlaqədar beynəlxalq səviyyədə standartlaşdırılmış ölçülərdən istifadə olunub ki, bu zaman zorakılığın hansısa növünə məruz qalma halı xüsusi davranışla bağlı müxtəlif məsələlər vasitəsilə qiymətləndirilib.[24] Bu cür əməllərin hər hansı birində əli olan kişilər və həmin əməllərin birindən zərər çəkmiş qadınlar zorakılığın müvafiq növünü tətbiq etmiş və ya zorakılığın müvafiq növünə məruz qalmış şəxslər kimi təsnif olunub.[25]

Diaqram 11-dən göründüyü kimi, kişi və qadınların böyük hissəsi öz həyatlarında zorakılığın müvafiq olaraq ən azı bir növünü törətmələri və ya ən azı bir növünə məruz qalmaları barədə məlumat verib. Təxminən hər üç kişidən biri (kişilərin 32,5%-i) fiziki zorakılıq hallarını törətdiyini və qadınların 32,1%-i bu növ zorakılığa məruz qaldığını bildirib. Həmin kişilərin 13, qadınların isə 16%-i bu cür zorakılıq hallarının ötən il ərzndə baş verdiyini qeyd edib. Kişilərin 27,5 və qadınların 22,2%-i öz həyatlarında, ailə münasibətləri kontekstində cinsi zorakılıq hallarının baş verdiyini diqqətə çatdırıb. Bundan başqa, kişilərin 29,7, qadınların isə 16,3%-i zorakılıq hallarının son il ərzində baş verməsi barədə məlumatları bölüşüb.

Təqdim olunmuş məlumatlara əsasən həyat yoldaşı tərəfindən zorakılığın ən geniş yayılmış növü psixoloji zorakılıqdan ibarət olub – kişilərin 73,4%-i öz partnyorunu nə vaxtsa psixoloji zorakılığa məruz qoyduğunu bəyan edibdirsə, 53,5%-i bunu keçən il etdiyini etiraf edib. Bu barədə məlumat vermiş qadınların faiz nisbətləri bir qədər aşağı olub: onların 61,5%-i psixoloji zorakılığa nə vaxtsa məruz qaldığını, 28,7%-i isə bunun ötən il baş verdiyini qeyd edib. Nəhayət, iqtisadi zorakılıq hallarına gəldikdə, öz həyatlarında zorakılığın bu növünün ən azı bir formasını nə vaxtsa tətbiq etdiklərini bildirən kişilərin sayı 29,3% təşkil edibdirsə, eyni zamanda bu cür zorakılığa məruz qaldıqlarını bildirən qadınların sayı 33% olub: hər üç kişidən və beş qadından biri onlarla əlaqədar zorakılığın bu növünün son bir ildə baş verdiyini qeyd edib.

[24] Zorakılığın hər bir növünü qiymətləndirən xüsusi məsələlərlə Əlavə 5-də tanış olmaq mümkündür. İqtisadi zorakılığa məruz qalma halları 4 məsələ əsasında qiymətləndirilmişdir, psixoloji zorakılıq ölçüsü 5 məsələdən ibarət idi, fiziki zorakılıq 5 məsələ əsasında ölçülürdü, cinsi zorakılıq ölçüsü isə üç məsələdən təşkil olunmuşdur.

[25] Hər məsələ ilə bağlı verilmiş cavabların dəqiq faiz nisbəti ilə Əlavə 5-də tanış olmaq mümkündür.

## Diaqram 11. Rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən zorakılığın törədilməsi və ya zorakılığa məruz qalma barədə məlumat (həyatı boyu və ya son bir il ərzində)[26]




Kişilər tərəfindən sözügedən dörd növ zorakılığın tətbiqini bir neçə amillə ardıcıl qaydada əlaqələndirmək olar. Öz analarına qarşı zorakılıqların şahidi olma və uşaqlıqda fiziki zorakılığa məruz qalma hallarını böyük ehtimalla rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən edilən zorakılıqla əlaqələndirmək olar ki, bu nəticə dünyanın müxtəlif yerlərində zorakılığın nəsillərarası zərərli təsiri ilə bağlı aparılmış tədqiqatlarla da təsdiqlənir.[27] Gender bərabərliyini "GEM" Şkalası üzrə nisbətən az dəstəkləyən və xüsusən də qadınlara qarşı zorakılıq barədə bəzi fikirlərin (məsələn, "qadın öz ailəsini qoruyub saxlamaq üçün zorakılığa dözməlidir" və "elə vaxtlar olur ki, qadın döyülməyə layiqdir") tərəfdarı olan kişilər tərəfindən öz rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxslərə qarşı zorakılığın edilməsi daha çox ehtimal olunandır. İqtisadi stress başqa bir amil hesab olunur: güc-bəla ilə dolanan və daimi işin və ya gəlirin olmaması (bəzi hallarda isə işin çox olması) səbəbindən stress keçirən və ya depressiya vəziyyətinə düşən kişilərin daha çox zorakılıq etməsi barədə məlumat verilir. Nəhayət, adətən aşağı təhsilli kişilər tərəfindən zorakılıq etmə daha çox ehtimal olunandır. Respondentlərin yaş qrupu və yaşayış (şəhər və ya kənd) yeri nöqteyi-nəzərindən hansısa dəqiq davranışlar müəyyən edilməyib.[28]

### *3.7.5. Rəsmi və ya qeyri-rəsmi nikahda olmadığı şəxsə qarşı cinsi zorakılıq*

Kişi və qadın respondentlərə həyat yoldaşı olmayan şəxslərə qarşı cinsi zorakılığın törədilməsi və bu cür şəxlərin cinsi zorakılığına məruz qalması halları barədə suallar verilib. Kişilərin təxminən 5%-i onun arvadı və ya partnyoru olmayan qadını cinsi əlaqəyə nə vaxtsa məcbur etməsi barədə məlumat vermişdirsə (həmin kişilərin 27,6%-i bunun keçmiş 12 ay ərzində baş verdiyini qeyd edib), qadınların cəmi 0,9%-i onların əri və ya partnyoru olmayan şəxslə cinsi əlaqədə olmağa məcbur edildiyini bildirib (həmin qadınların 50%-i

[26] Hər məsələ ilə bağlı verilmiş cavabların dəqiq faiz nisbəti ilə Əlavə 5-də tanış olmaq mümkündür.
[27] "Keçən ilin" faiz nisbəti zorakılıq halının nə vaxtsa törədilməsi və bu cür hala məruz qalma, həmçinin zorakılığa keçən il məruz qalma barədə suala müsbət cavab vermiş respondentlərin faiz nisbəti deməkdir.
[28] Fleminq və başqaları. (2015).

bunun keçmiş 12 ay ərzində baş verdiyini qeyd edib). Cinsi zorakılıqla bağlı suallarla yaxından tanış olmaq üçün, zəhmət olmasa, Əlavə 5-ə baxın.

***3.7.6. Rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən zorakılıq hallarına məruz qalma və müvafiq cavab tədbirləri***

Kişilərə və qadınlara onların dostu və ya rəfiqəsinin zorakılıq törətdiyi və ya zorakılığa məruz qaldığı hallarda nə vaxtsa şahid olmaları və ya müdaxilə etmələri barədə suallar da verilib.

Kişi respondentlərin 30,3%-i onların dostları arasında öz arvadlarına qarşı fiziki zorakılıq edənlərin olduğunu etiraf edib. "Siz bu cür fiziki zorakılıq barədə nə düşünürsüz?" sualına həmin kişilərin 44,5%-i "Bu şəxsi məsələdir, mənim işim deyil" cavabı verməklə kifayətlənib, 26,7%-i bildirib ki, "ərin bunu etmək üçün əsaslı səbəbi var idi", 25,1%-i "bundan narahar olduqlarını" qeyd edib və yalnız 3,7%-i bildirib ki, "arvadın nəyisə başa düşməsi üçün ər bunu etməlidir." Təxminən eyni sayda qadın (32,1%) rəfiqələri arasında öz ərləri tərəfindən fiziki zorakılığa məruz qalanların olduğunu diqqətə çatdırıb. Kişilərdən fərqli olaraq, qadınların çoxu (62,1%-i) bu cür əməldən narahat olduğunu bildirib, 28,9%-i bunun şəxsi məsələ olduğunu hesab edib və 9,2%-i bunun üçün əsaslı səbəbin olduğunu düşünür. Heç bir qadın respondent arvadın nəyisə başa düşməsi üçün əri tərəfindən mütləq vurulması fikrinin tərəfdarı olmayıb.

Öz dostları tərəfindən fiziki zorakılığın törədildiyini və ya öz rəfiqələrinin bu cür zorakılığa məruz qaldığını gördükdə nə etdikləri barədə verilən suala kişi və qadın respondentlər fərqli cavablar vermişlər. Öz həyat yoldaşına qarşı zorakılıq edən dostları olan kişilərin 34,6%-i və bu cür zorakılığa məruz qalmış rəfiqələri olan qadınların 16,1%-i "heç nə etmədim, bu onların problemidir" cavabını verib. Həm kişilərin, həm də qadınların təxminən dörddə biri (müvafiq olaraq 25,1 və 25,3%-i) "öz dostlarından/rəfiqələrindən çəkindiyini və ya kənar durduğunu" qeyd edib. Hadisə baş verdikdən sonra dostları/rəfiqələri ilə söhbət etdiklərini kişilərdən çox qadınlar (müvafiq olaraq 22 və 32,2%) bildirib və kişilərin yalnız 18,3, qadınların isə 20,7%-i hadisə baş verdiyi zaman müdaxilə etdiyini bəyan edib.

Kişilərdən heç kim, qadınların isə yalnız 5%-i polislə əlaqə saxladığını (1,1%) və ya qonşularını və tanışlarını çağırdığını (4,6%) bildirib. Bütün respondentlər yerli hakimiyyət orqanlarına müraciət etmədiyini diqqətə çatdırıblar. Bu nəticə onu göstərir ki, kişilərin və qadınların çoxu zorakılığa qarşı həssas və mümkün müdaxilə üçün hazır olsa da, onların çox az bir hissəsi bununla bağlı rəsmi orqanlara faktiki müraciət edir.

***3.7.7. Qadınlara qarşı zorakılıqla mübarizə üzrə qanunlara münasibət***

Nəhayət, respondentlərin qadınlara qarşı zorakılıq əleyhinə qanunların mövcud olmasını bilib-bilməmələri və qanunlar haqqında fikirləri öyrənilib. Kişilərin və qadınların 60%-dən də az bir hissəsi bu cür qanunlar barədə məlumatlı idi. Bu qanunlar barədə fikirlərin öyrənilməsinə aid suala həm kişi, həm də qadın respondentlərin əksəriyyəti (kişilərin 79,6 və qadınların 75,7%-i) "məişət zorakılığı haqqında qanunlar əsasında zorakılıqla bağlı ittihamaların qadınlar tərəfindən kişilərə qarşı irəli sürülməsinin asanlaşdığını" qeyd edib. Bununla belə, kişilərin 53,5, qadınların isə 55,3%-i bu qanunların çox sərt olması barədə fikrini qəbul etməyib, habelə kişilərin 52,8 və qadınların 51,4%-i sözügedən qanunların yetərincə sərt olmaması ilə razılaşıb. Bundan başqa, kişilərin 41,8 və qadınların 45,4%-i bu qanunların kifayət qədər müdafiə ilə təmin etmədiyini düşünür. Ümumi nəticələrə əsasən, qadınların böyük bir hissəsi bu qanunlarla bağlı fikir ifadə etməkdə çətinlik çəkib və təxminən 10-15%-i bu suala cavab verməkdən ümumiyyətlə boyun qaçırıb.

## 3.8. Oğlan uşağına verilən üstünlük və uşağın cinsinə görə seçim

Bu bölmədə respondentlərin oğlan uşağına verilən üstünlük və cinsə görə seçimi ilə bağlı münasibətlərə dair məlumat təqdim olunur.

***3.8.1. Uşaqların sayına dair üstünlük***

Respondentlərə onların ailədə oğlan və qız uşaqlarının sayına verilən üstünlük barədə sual verilib. Cədvəl 22-yə əsasən sorğunun həm kişi, həm qadın respondentləri ailədə qız uşaqlarından çox oğlan uşaqlarına üstünlük veriblər ki, qadınlarla müqayisədə kişilər oğlan uşaqlarının sayının daha çox olmasını istəyiblər.

## Cədvəl 22. Ailə planlaşdırılması - cinsinə görə uşaqların arzuolunan sayı

| | Kişilər orta say (SF) | Qadınlar orta say (SF) | Fərq? |
|---|---|---|---|
| Oğlan uşaqlarının arzuolunan sayı | 1,72 (0,71) | 1,43 (0,63) | * |
| Qız uşaqlarının arzuolunan sayı | 1,25 (0,61) | 1,36 (0,67) | ** |

Qeyd: * p < ,001 səviyyəsində əhəmiyyətli fərq deməkdir, ** p < 0,05 səviyyəsində əhəmiyyətli fərq deməkdir

17,5% qadınla müqayisədə kişilərin cəmi 6%-i ailədə oğlan uşaqları deyil, qız uşaqlarının daha çox olmasını istəyib. Müqayisə üçün qeyd etmək lazımdır ki, kişilərin 41,5 və qadınların 18,3%-i ailədə qız uşaqlarından daha çox oğlan uşağının olmasına üstünlük verib. Çox az sayda respondent (kişilərin 0,6 və qadınların 1,5%-i) ailədə yalnız qız uşağının olmasını istəyirdisə, kişilərin 6 və qadınların 6,7%-i yalnız oğlan uşaqlarına üstünlük verib. Ümumilikdə götürəndə kişilərin 52,5 və qadınların 64,2%-i ailədə bərabər sayda oğlan və qız uşaqlarının olmasının tərəfdarı olub.

Bu nəticələrə əsasən demək olar ki ki, qız uşaqları ilə müqayisədə oğlan uşaqlarının sayının çox olmasına üstünlük verən kişi və qadınlar arasında fərqin böyük olması Azərbaycanda oğlan uşaqlarına üstünlüyün verilməsinin arxasında duran kişilərin nə dərəcədə güclü aparıcı qüvvə olmasını nümayiş etdirir.

### *3.8.2. Oğlan uşağına üstünlüyün verilməsi məsələsinə münasibət*

Azərbaycanda həyata keçirilmiş “IMAGES” tədqiqatı zamanı qadınlara və kişilərə oğlan və qız uşaqları barədə geniş yayılmış inanclarla nə dərəcədə razı və ya narazı olmaları barədə sual verməklə uşağın cinsə görə seçimi (qızla müqayisədə oğlan uşağına üstünlüyün verilməsi) təcrübəsini dəstəkləyən və davam etdirən mədəni və gender normaları da araşdırılıb. Məsələn, məhz oğulun öz yaşlı valideynlərinə sosial-iqtisadi qayğı göstərməsi ehtimalını nəzərə alaraq ailədə oğlan uşağının olmasına daha çox üstünlük verilir; eyni zamanda, adətən cəmiyyətin müəyyən təbəqələri oğulda həm ailənin, həm də vətənin müdafiəçisini görür. Əksər hallarda qız uşaqlarına nisbətən az üstünlük verilir, çünki onlardan ailə üzvlərini təmin edəcək gəlirin qazanılması gözlənilmədiyindən onların ailə qurduqdan sonra öz ərlərinin ailələrinə kömək etməsi daha çox ehtimal olunur.

Cədvəl 23-də göstərildiyi kimi, kişi və qadın respondentlərin böyük əksəriyyəti “soyadı daşımaq və ya nəsli davam etdirmək üçün oğlan uşağının olması vacibdir” fikri ilə razılaşıbdır ki, bu zaman qadınların 33,2%- ilə müqayisədə kişilərin 53,8%-i “ahıl yaşlarında sənə baxmaq üçün oğulun olmasını vacib” hesab edib. “Qız uşağının olması maddi yükdür/itkidir” fikri ilə təxminən eyni sayda kişi və qadın respondent razılaşıbdırsa, kişilərlə müqayisədə nisbətən çox qadın (müvafiq olaraq 48,9 və 54,6%-i) qız uşağını böyüdüb-başa çatdırmaq çətin yükdür mənası kəsb edən “qız yükü – duz yükü” fikrini qəbul edib.

Bu cür məlumatlar barədə fikir söyləyənlər deyə bilər ki, belə bir istəyin əsas səbəbi oğlan uşağının soyadın daşıyıcısı və ya nəslin davamçısı olması, habelə kişi və qadınların çoxu tərəfindən qız uşaqlarının yük hesab edilməsi ilə əlaqədardır. Qafqazda uşağın cinsinə görə seçimini təsdiq edən mövcud tədqiqatlar göstərir ki, oğlan uşaqları bir dəyər və ailənin dayağı, qız uşaqları isə ərə getdikdən sonra öz ailələrindən ayrılacağından əlavə məsuliyyət hesab olunur.[29]

## Cədvəl 23. Oğlan uşağına üstünlüyün verilməsi məsələsinə münasibət

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Soyadı daşımaq və ya nəsli davam etdirmək üçün oğlan uşağının olması vacibdir | 85,7 | 73,4 |
| Ahıl yaşlarında sənə baxmaq üçün oğulun olması vacibdir. | 53,8 | 33,2 |
| Qız uşağının olması maddi yükdür/itkidir. | 48,5 | 44,6 |
| Qız yükü – duz yükü. | 48,9 | 54,6 |

[29] Qilmoto (2013).

Cədvəl 24-də verilmiş nəticələr oğlan uşağına üstünlüyün verilməsinə aid inancların respondentlərin qız uşaqları ilə müqayisədə oğlan uşaqlarının arzuolunan sayı ilə nə dərəcədə əlaqəli olduğunu nümayiş etdirir. Qeyd etmək lazımdır ki, respondentlərin inanclarından asılı olmayaraq kişi və qadınlar ideal ailənin qız uşaqlarından çox oğlan uşaqlarından və ya bərabər sayda oğlan və qız uşaqlarından təşkil olunmasının birmənalı tərəfdarıdır (respondentlərin əksəriyyəti bərabər sayda oğlan və qız uşağının olmasına üstünlük verir). Çox az sayda kişi və qadın ailədə daha çox qız uşağının olmasını arzulayır.

Oğlan uşağına üstünlüyün verilməsi ilə bağlı dörd fikrə aid göstəricilərə əsasən hətta bu cür üstünlüyə dəstək verən fikirlərlə razı olmayan kişilər ailədə qız uşaqları ilə müqayisədə daha çox sayda oğlan uşağının olmasının tərəfdarı idi. Məsələn, "ahıl yaşlarında sənə baxmaq üçün oğulun olmasını vacibdir" fikri ilə razılaşmayan kişilərin 31,7%-i oğlan uşağına və yalnız 7,6%-i qız uşağına üstünlük verib (ideal ailədə uşaqların sayı barədə verilən məlumatlara əsasən). Kişilər arasında bu cür faiz nisbətlərini qadınlara şamil etmək olmaz. Sözügedən göstəricilərin əksəriyyəti (dördündən üçü) üzrə oğlan uşağına üstünlüyün verilməsi ilə bağlı fikirləri qəbul etməyən qadınlar ailədə oğlan uşaqlarından çox qız uşaqlarının olmasını istəyirdisə, bu fikirlərlə razılaşan qadınlar ailədə daha çox oğlan uşağının olmasının tərəfdarı idi.

### *Cədvəl 24. Uşağın cinsə görə seçiminə əsasən oğlan uşağına üstünlüyün verilməsi məsələsinə münasibət*

| | | | Uşağın cinsinə görə seçimi | | |
|---|---|---|---|---|---|
| | | | Oğlan uşağına üstünlüyün verilməsi | Bərabər sayda oğlan və qız uşağının olmasına üstünlüyün verilməsi | Qız uşağına üstünlüyün verilməsi |
| Soyadı daşımaq və ya nəsli davam etdirmək üçün oğlan uşağının olması vacibdir. | Razıyam | Kişilər | 43,1 | 51,2 | 5,7 |
| | | Qadınlar | 21,9 | 61,2 | 16,8 |
| | Razı deyiləm | Kişilər | 31,8 | 60,2 | 8 |
| | | Qadınlar | 8,3 | 72,2 | 19,4 |
| Ahıl yaşlarında sənə baxmaq üçün oğulun olması vacibdir. | Razıyam | Kişilər | 49,9 | 45,4 | 4,7 |
| | | Qadınlar | 28,7 | 59,8 | 11,5 |
| | Razı deyiləm | Kişilər | 31,7 | 60,7 | 7,6 |
| | | Qadınlar | 13,3 | 66,3 | 20,4 |
| Qız uşağının olması maddi yükdür/itkidir. | Razıyam | Kişilər | 49,5 | 46,5 | 4 |
| | | Qadınlar | 22,5 | 56,7 | 20,8 |
| | Razı deyiləm | Kişilər | 33,5 | 58,7 | 7,8 |
| | | Qadınlar | 14,9 | 70,3 | 14,9 |
| Qız yükü – duz yükü. | Razıyam | Kişilər | 46,4 | 46,4 | 7,2 |
| | | Women | 22.4 | 59.9 | 17.7 |
| | Razı deyiləm | Men | 37.0 | 58.1 | 5.0 |
| | | Women | 13.2 | 69.4 | 17.4 |

## Haşiyə 6: Oğlan uşağına üstünlüyün verilməsi

Keyfiyyət müsahibələrindən irəli gələn nəticələrin oğlan uşağına üstünlüyün verilməsi sorğusunda da əks olunduğunu hesab etmək olar. Ümumi nəticələrə əsasən respondentlərin bu məsələ ilə bağlı fərqli düşündüyünü görmək olar: bəzi kişi respondentlər həm oğul, həm də qız övladına sahib olmaqdan xoşbəxt olmalarını bəyan ediblər və respondentlərdən biri bildidirib: *“Mənim üçün qız da, oğul da eynidir, əsası odur ki, mənim uşağım var.”*

Digər tərəfdən, müsahibədə iştirak etmiş kişilərin çoxu oğlan uşağının olmasını istədiklərini qeyd edib. Bu o demək deyil ki, onlar ümumiyyətlə qız istəmirdi, əksinə ailənin tərkibindən tam məmnun olmaq üçün həm oğlan, həm də qız istəyirdilər. Artıq bir və ya iki qız atası olan kişilər üçüncü uşağın oğlan olması arzusunda olduğunu bildiriblər. Məsələn, onlardan biri bildirib: *“Hazırda mənim bir qızım var, amma soyadımı daşımaq və ya nəslimi davam etdirmək üçün ən azı bir oğlan uşağının olmasını istərdim.”* Başqa bir kişi qeyd edib: *“Səmimi desəm, qızım olanda oğul gözləyirdim, çünki hər bir kişi istər ki, oğlu olsun.”* Üçüncü kişinin dediklərinə görə: *“Fərqi yoxdur, biz neçə uşaq planlaşdırmışıq, onların çoxu oğlan olmalıdır.”*

Ərlərinin qızları ilə müqayisədə oğlan uşaqlarını nə cür dəyərləndirdiyini görən qadınlar dünyaya oğlan uşağı gətirməyi özlərinə borc bilirlər. Belə qadınlardan biri bunları deyib: *“Ərim qızımızdan çox oğlumuzu istəyir.” “Oğlum qızımdan yeddi il sonra dünyaya gəlib. Sonuncu hamiləliyimdən əvvəl mənim reproduktivliklə bağlı bəzi problemlərim var idi və mən xüsusi müalicə kursu keçməli oldum.”*

Bəzi respondentlər dünyaya oğlan uşağı gətirməklə bağlı ərləri tərəfindən təzyiqlərə məruz qalaraq bunu edə bilməyəcəkləri təqdirdə ərlərinin hədə-qorxularına tuş gələcəklərini bildiriblər. Respondentlərdən biri qeyd edib ki, *“Ərim qız uşağını istəmədiyini mənə deyib. Mən oğlan doğmasam, o məni atacaq.”* Digər bir respondent bunları deyib: *“Mən əkiz istəyirdim – bir oğlan və bir qız, ərim isə ikisinin də oğlan olmasını istəyirdi.”* Sorğunun kəmiyyət komponentində də bu cür nəticələrin əks olunduğunu demək olar, çünki orada da qadınlarla müqayisədə kişilərin daha çox qız uşaqları deyil, oğlan uşaqlarının olması barədə məlumat verdiklərini ehtimal etmək olar.

### 3.8.3. Cinsə görə seçim məsələsinə münasibət

Uşağın cinsə görə seçimi məsələsini daha yaxşı başa düşmək məqsədilə respondentlərdən hamiləliyin dayandırılmasına münasibəti öyrənilib. Cədvəl 25-də göstərildiyi kimi, qadının sağlamlığını təhlükə altına salan hamiləliyin dayandırılması bütün kişi və qadın respondentlər tərəfindən dəstəklənib. Hamiləliyin dayandırılması ilə bağlı daha çox əsaslandırılan ikinci səbəb “hamiləliyin planlaşdırılmamış və ya arzuolunmaz olması” ilə əlaqədar olub (bu səbəbi kişilərin 79,6, qadınların isə 69,7%-i qəbul edib). Bu məsələ ilə bağlı daha çox əsaslandırılan səbəb kimi üçüncü yeri “əgər ailədə artıq kifayət qədər uşaq vardırsa” fikri tuturdu.

Qeyd etmək yerinə düşər ki, ailədə kifayət qədər oğlan usağı olduğu təqdirdə hamiləliyin dayandırılmasının məqsədəuyğun olduğunu təxminən eyni sayda (müvafiq olaraq 53,9 və 45,4%) kişi və qadın hesab edib. Müqayisə üçün bildirmək lazımdır ki, ailədə qız uşaqlarının sayı kifayət qədər olduqda hamiləliyin dayandırılmasına 50,2% kişi və 43,5% qadın tərəfdar çıxıb. Ailədə oğlan uşağının olmasının vacibliyi barədə inancların kişi və qadınlar arasında mövcud olmasına baxmayaraq, (döl qız olduqda) hamiləliyin dayandırılması üçün cins əsasında edilən selektiv abortun əsaslı səbəb kimi çox az sayda (müvafiq olaraq 9 və 11,1%) kişi və qadın respondent tərəfindən qeyd oluması diqqətəlayiq bir haldır.

### Cədvəl 25. Hamiləliyin dayandırılmasının səbəblərinə münasibət

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Hamiləlik planlaşdırılmayıb və ya arzuolunmazdır. | 79,6 | 69,7 |
| Əlavə bir uşağa da baxmaq çətindir. | 69,6 | 66,8 |
| Hamiləlik qadının sağlamlığına ziyan vura bilər. | 95,9 | 98,5 |
| Ailədə artıq kifayət qədər uşaq var. | 78,1 | 72,7 |
| Ailədə oğlan uşaqlarının sayı artıq kifayət qədərdir. | 53,9 | 45,4 |
| Ailədə qız uşaqlarının sayı artıq kifayət qədərdir. | 50,2 | 43,5 |
| Döl qızdır. | 9 | 11,1 |

### Haşiyə 7: Cins əsasında edilən abortlar

Ümumi nəticələrə əsasən keyfiyyət müsahibəsinin respondentləri Azərbaycanda qeyri-qanuni prosedur hesab olunan cins əsasında edilən abort təcrübəsinin tərəfdarı olmadıqlarını bəyan ediblər. Respondentlərdən birinə əsasən *“Oğlan uşağının dünyaya gəlməsi mümkün olduqda ailələrin çoxu qız uşağını istəmir, lakin mən bununla heç razı deyiləm. Mənə görə hər bir uşaq valideynləri üçün eynidir.”*

Qeyd etmək lazımdır ki, bir çox hallarda keyfiyyət müsahibələrində iştirak etmiş respondentlərinin oğlan uşaqları var idi; mövcud statistik məlumatların oğlan usağı olan valideynlərin cins əsasında edilən abortlara az meyilli olduğunu göstərdiyini nəzərə alaraq onların bu cur abortların tərəfdarı olmamasını bununla əlaqələndirmək mümkündür. Yalnız qız uşaqları olan ailələrdə (12 respondentdən beşində) kişilər oğlan uşağının olacağına ümid etdiklərini bildirib.

Eyni zamanda, cins əsasında edilən abortların tərəfdarı olmayan kişi və qadın respondentlər bu cür abortlardan istifadə etmiş valideynlərin belə bir seçimini izah etməyə çalışıb. Həmin respondentlərə əsasən *“Qız ailə üçün ağır bir yük ola bilər”* və *“qız özü sərbəst “ayaqda dura bilmir”: o müstəqil deyil.”* Bundan başqa, onlar qeyd edibdir ki, *“Hər bir kişi ailədə ilk doğulan uşağın oğlan olmasını istəyir”* və *“bəzi hallarda qız böyüdükdən sonra əxlaqsız ola bilər.”*

Bu cür inanclar kişilərin daha böyük səlahiyyətlərə malik olmaları, qadınların isə buna tabe olmaları ilə bağlı sosial normaların gender zəminində zorakılığın çoxsaylı formaları ilə, o cümlədən, cins əsasında edilən abortlarla sıx bağlı olmasını nümayiş etdirən qlobal faktların mövcud olmasını bir daha təsdiq edir.

Kişilərin abort məsələlərinə münasibəti və sosial demoqrafik xüsusiyyətləri arasındakı bağlılığı araşdırmaq məqsədilə mürəkkəb əmsal işlənib hazırlanmışdır. Aparılmış təhlillərə əsasən kiçik şəhərlərdə yaşayan, 35-49 yaş arası, natamam orta təhsilli, “yaşamaq üçün müvafiq təminatı” olan, işləyən, qoruyucu vasitələrdən istifadə etmək qərarı qəbul edən partnyoru olan, hər iki cinsə aid üç nəfərdən çox usağı olan, “soyadın daşıyıcısı və ya nəslin davamçısı kimi oğlan uşağının olması vacibdir” və “ahıl yaşlarında sənə baxmaq üçün oğulun olması vacibdir” fikirləri ilə razılaşan kişilər abortların əsas tərəfdarıdır. Aşağıda təsvir olunan sosial demoqrafik qruplara aid edilmiş kişi respondentlər isə abortları nisbətən az dəstəkləyib: paytaxt şəhərdə yaşayan, 25-34 yaş arası, ibtidai və ya daha aşağı səviyyədə təhsili olan, “yaşamaq üçün yaxşı təminatı” olan, işsiz, kontrasepsiyadan istifadə etmə qərarını təkbaşına və ya öz partnyoru ilə birgə qəbul edən, yalnız bir bioloji usağı olan, oğlu olmayan, iki qızı olan, “soyadın daşıyıcısı və ya nəslin davamçısı kimi oğlan uşağının olması vacibdir” və “ahıl yaşlarında sənə baxmaq üçün oğulun olması vacibdir” fikirləri ilə razılaşmayan kişilər.

[30] Müəlliflərdə mövcud olan nəticələr təqdim olunmayıb.

## 3.9. Sağlamlıq vəziyyəti və səhiyyə xidmətlərindən istifadə

Bu bölmədə kişilərin və qadınların sağlamlıq vəziyyətinin, habelə səhiyyə xidmətlərindən istifadə məsələlərinin təhlilinə dair məlumatlar təqdim olunur.

### *3.9.1. Ümumi sağlamlıq vəziyyəti*

Kişilərin və qadınların öz ümumi sağlamlıq vəziyyətinə yanaşmasında aşkar gender fərqləri mövcuddur. Qadın respondentlərin cəmi 6,6%-i ilə müqayisədə kişi respondentlərin beşindən biri (20,9%-i) öz səhhətinin əla olduğunu hesab edir (Cədvəl 26-ya baxın). Eyni nisbətdə kişi və qadın respondentlər öz ümumi sağlamlıq vəziyyətinin yaxşı və kafi olduğunu düşünür. Ümumiyyətlə, qadınlarla müqayisədə kişilər öz mövcud sağlamlıq vəziyyətləri barədə daha dolğun məlumat verməyə meylli olub. Bununla belə, bu bölmədə verilmiş məlumatlarda təsvir edildiyi kimi qadınlarla müqayisədə kişilər səhiyyə xidmətləri, o cümlədən, profilaktik xidmətlər üçün daha az müraciət edir. Səhiyyə xidmətlərinə müraciət ilə bağlı davranış müəyyən yaş üzrə dəyişirdi.

### *Cədvəl 26. Öz məlumatına əsasən sağlamlıq vəziyyətinin dəyərləndirilməsi*

| | Kişilər (%) | Qadınlar (%) |
|---|---|---|
| Ümumi sağlamlıq vəziyyəti (özünü qiymətləndirmə) | | |
| Əla | 20,9 | 6,6 |
| Yaxşı | 48,2 | 45,8 |
| Kafi | 23,6 | 35,4 |
| Pis | 6,8 | 11,4 |
| Çox pis | 0,5 | 0,7 |
| Daimi əlillikdən və ya xroniki səhhət problemlərindən əziyyət çəkmə | | |
| Yox | 86,2 | 79,3 |
| Hə | 13,8 | 20,7 |
| Prostat vəzinin müayinəsindən keçmiş (yaşı 40-dan yuxarı olan) kişilərin faiz nisbəti | 21,4 | --- |
| Mammoqrafiya müayinəsindən keçmiş (yaşı 40-dan yuxarı olan) qadınların faiz nisbəti | --- | 26,5 |
| Səhiyyə xidməti üçün sonuncu dəfə müraciət etmə | | |
| Keçən ay | 9 | 18,1 |
| Son 3 ay ərzində | 12,8 | 22,14 |
| Son il ərzində | 31,4 | 26,2 |
| 1 ildən çox müddət öncə | 33,4 | 25,8 |
| Heç vaxt | 13,3 | 7,8 |
| Səhiyyə xidməti üçün müraciətin əsas səbəbi | | |
| Ümumi müayinə və ya tibbi arayış | 47,7 | 31,6 |
| Zədə və ya qəza | 3,7 | 0,8 |
| Kəskin ağrılar | 28,7 | 29,2 |
| Xroniki xəstəlik | 16,1 | 22 |
| Cinsi və reproduktiv sağlamlıq məsələləri | 1,1 | 12,4 |
| Başqa məsələlər | 2,7 | 4 |

Kişi respondentlərin sağlamlıq vəziyyətlərini necə qiymətləndirməsi onların yaşı və gəlir səviyyəsi ilə əhəmiyyətli dərəcədə bağlı idi. 35 və daha çox yaşı olan kişilərin cəmi 25%-i ilə müqayisədə 34 və daha az yaşı olan kişilərin 72%-dən çoxu öz səhhətinə əla qiyməti verib. Daha çox gəliri olan kişilər ümumi sağlamlıq vəziyyətlərini daha çox əla olaraq qiymətləndirirdi.

Qadın respondentlərin ümumi sağlamlıq vəziyyətlərini necə qiymətləndirməsi onların yaşı və peşəsi ilə əlaqədar idi. Daha gənc yaş qruplarına aid olan qadınlarla müqayisədə nisbətən yaşlı qruplara aid olanlar

öz sağlamlığını daha pis və ya kafi qiymətləndirirdi. Bununla yanaşı, başqa peşə sahibləri olan qadınlarla müqayisədə tələbə qızlar daha çox öz sağlamlıqlarını əla olaraq qiymətləndirirdi və sağlamlığının pis olduğunu bildirən respondentlər daha çox təqaüdçülər idi. Bununla belə, sağlamlığı belə bir tərzdə qiymətləndirməyə yaş amili də təsir göstərə bilər.

Kişilərin "GEM" Şkalası üzrə topladığı ballar da ümumi sağlamlıq vəziyyətinin necə qiymətləndirilməsi ilə əlaqəli idi. Gender bərabərliyini daha çox dəstəkləyən kişilər öz sağlamlığını daha müsbət qiymətləndirməyə meyilli idi. Qadınlar arasında da oxşar tendensiyanın müşahidə olunduğunu qeyd etmək lazımdır.

### *3.9.2. Sağlamlıq problemləri və sağlamlığın yaxşılaşdırılması üzrə davranış*

Cədvəl 26-da göstərildiyi kimi qadın respondentlərin 20,7 və kişi respondentlərin 13,8%-i daimi əlillikdən və ya xroniki sağlamlıq problemlərindən əziyyət çəkməsi barədə məlumat verib. Bu kimi məsələlər barədə məlumat vermiş kişilərin nisbətən yaşlı, aşağı təhsilli və işsiz olması ehtimal edilir. Məsələn, nisbətən yüksək təhsilli kişilərin 9,3%-i ilə müqayisədə ibtidai və ya daha aşağı səviyyədə təhsili olan kişilərin 25%-i əlillikdən və ya xroniki sağlamlıq problemlərindən əziyyət çəkdiyini bildirib. Eyni zamanda, işləyən kişilərin 12%-i ilə müqayisədə işsiz kişilərin 22%-i xroniki sağlamlıq problemlərindən əziyyət çəkdiyini qeyd edib. Qadınlara gəldikdə, xroniki sağlamlıq problemləri ilk növbədə onların yaşı ilə əlaqədar idi ki, nisbətən yaşlı qadınların bu cür problemlərdən daha çox əziyyət çəkməsi ehtimal olunurdu.

### *3.9.3. Səhiyyə xidmətlərindən istifadə*

Azərbaycanda insanların çox nadir hallarda həkimə getməsi barədə geniş yayılmış stereotiplərə zidd olaraq kişi respondentlərin yalnız 13,3 və qadın respondentlərin 7,8%-i klinikada və ya xəstəxanada səhiyyə xidməti üçün heç vaxt müraciət etməməsi barədə məlumat verib (Cədvəl 26-ya baxın). Bununla belə, son il ərzində kişilərlə müqayisədə daha çox qadının (müvafiq olaraq 53,2 və 66,4%) səhiyyə xidmətləri üçün müraciət etdiyini, habelə son ay ərzində iki dəfə çox qadın müayinələr üçün səhiyyə müəssisəsinə müraciət edib. Yaşa dolan qadın və kişilər arasında bu cür tendensiya davam etməkdədir. Son ildə 50-59 yaş arası kişilərin 65,7%-i ilə müqayisədə həmin yaş qrupuna aid olan qadınların təxminən 82%-i səhiyyə xidmətləri üçün müraciət etdiyini bildirib.

Verilmiş məlumatlara əsasən kişilərin 47,7 və qadınların 31,6%-i arasında səhiyyə xidmətləri üçün müraciət etmənin ən geniş yayılmış səbəbi ümumi tibbi müayinədən keçməkdən və ya tibbi arayış almaqdan ibarət olub. Kişilərlə müqayisədə daha çox qadın (müvafiq olaraq 1,1 və 12,4%) cinsi və reproduktiv sağlamlıq məsələləri ilə əlaqədar səhiyyə xidmətləri üçün müraciət edib.

Yaşı 40-dan yuxarı olan kişilərin dörddə birindən də az hissəsinin (21,4%-nin) prostat vəzini nə vaxtsa müayinə etdirməsi barədə məlumat verməsi narahatlıq doğurmaya bilməz. Səhiyyə xidmətləri üçün müraciət etmiş respondentlər nisbətən yaşlı, gəlir səviyyəsi yüksək və işləyən kişilər olub. Kişilərlə müqayisədə qadınlar daha çox vacib profilaktik səhiyyə xidmətlərinə müraciət edib. 35-39 yaş arası qadınların 54,3%-i nə vaxtsa mammoqrafiya müayinəsindən keçib. Nisbətən yüksək təhsil səviyyəsi olan və işləyən daha çox qadın mammoqrafiya müayinəsi edib.

### *3.9.4. Spirtli içkilərdən istifadə*

Cədvəl 27-də göstərildiyi kimi, Azərbaycanda kişilərin spirtli içkilərin qəbulu səviyyəsinin "aşağı" və ya "orta" olduğunu və yaxud, kişilərin spirtli içkiləri qəbul etməkdən ümumiyyətlə çəkindiyini qeyd etmək olar. Sorğuda iştirak etmiş kişilərin böyük bir hissəsi (44,5%-i) son il ərzində spritli içki qəbul etmədiyini bildirmişdir ki, bunu müsəlman ölkəsi üçün adi bir hal hesab etmək olar. Son ildə spirtli içki qəbul etmiş kişilər arasında 35-49 yaşı işləyən və nisbətən yüksək gəliri olan, ailəli və rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxslə yaşayan kişilər spirtli içkiləri "tez-tez" deyil, "nadir hallarda" və ya "bəzən" qəbul etmələri daha çox ehtimal olunandır.

## Cədvəl 27. Ötən 12 ay ərzində spirtli içkilərdən istifadə

| | Kişilər |
|---|---|
| Spirtli içkiləri qəbul etmə hallarının tezliyi | |
| Heç vaxt | 44,5 |
| Nadir hallarda | 35 |
| Bəzən | 18,2 |
| Tez-tez | 2,2 |
| Respondentin adətən spirtli içki qəbul etdiyi adi gündə istifadə olunmuş içkinin miqdarı | |
| 1-2 qədəh | 41,7 |
| 3-4 qədəh | 34,3 |
| 5-6 qədəh | 9,4 |
| 7 qədəh və ya daha çox | 14,6 |
| Bir dəfəyə beş qədək və ya daha çox içki qəbul etmə halları | |
| Heç vaxt | 52,6 |
| Nadir hallarda | 31,7 |
| Bəzən | 13,7 |
| Tez-tez | 2,0 |
| İçkili olma səbəbindən adi vəziyyətlərdə gözlənilənləri edə bilməmə | |
| Heç vaxt | 65,7 |
| Nadir hallarda | 26,9 |
| Bəzən | 6,9 |
| Tez-tez | 0,6 |
| İçki qəbul etdikdən sonra vicdan əzabı və günah hissi keçirmə | |
| Heç vaxt | 70,3 |
| Nadir hallarda | 24,6 |
| Bəzən | 4,6 |
| Tez-tez | 0,6 |
| Respondentin içkili olması səbəbindən özünə və ya başqasına xəsarət yetirmə | 1,4 |
| Nə vaxtsa içkili olma səbəbindən zorakılıq etmə | 2,3 |

Ötən 12 ay ərzində spirtli içki qəbul etdiyini bildirən kişilərə içki qəbul etdiyi adi gündə içkinin adətən nə qədər olması barədə sual verilib. Kişilərin böyük bir hissəsi (41,7%-i) yalnız bir-iki qədəh içki qəbul etdiyini bildirsə də, 34,3%-i üç-dörd, 24%-i isə beş qədəh və ya daha çox içki qəbul etdiyini qeyd edib. Kişi respondentlərin çoxu bir dəfəyə beş qədəh və ya daha çox içki heç vaxt qəbul etmədiyini və ya nadir hallarda qəbul etdiyini qeyd edib.

Çox spirtli içki qəbul etmə əksər hallarda fəsadsız ötüşmür. Respondentlərin təxminən 93%-i, ötən 12 ay ərzində spirtli içki qəbul etmə səbəbindən adi vəziyyətlərdə gözlənilənləri heç vaxt və ya yalnız nadir hallarda edə bilmədiklərini bəyan etsə də, cəmi 5,2%-i içki qəbul etdikdən sonra bəzən və ya tez-tez vicdan əzabı və günah hissi keçirdiyini etiraf edib. Spirtli içki qəbul etmə nəticəsində kişilərin yalnız 1,4%-i özünə və ya başqasına xəsarət yetirib, 2,3%-i isə zorakılıq edib. İçki məclislərində iştirak etmiş, başqa sözlə bir dəfəyə beş qədəh və ya daha çox içki qəbul etmiş kişilər tərəfindən "GEM" Şkalası üzrə toplanmış balların təhlili göstərir ki, gender bərabərliyini daha çox dəstəkləyən kişilərin bu cür məclislərdə iştirak etməsi az ehtimal olunandır.

### *3.9.5. Psixi sağlamlıq*

Kişi və qadınlara son həftə ərzində özlərini hansı mütəmadiliklə stressli, depressiyalı, aşağı heysiyyətli və ya ümumiyyətlə həyatları ilə əlaqədar məyus olmaları barədə suallar verilib. Bu suallar dünyanın bir çox ölkəsində özünü doğruldaraq uğurla istifadə edilən depressiya və narahatlıq şkalası adı ilə tanınmış Epidemioloji Araşdırmalar Mərkəzinin Depressiya şkalasından (CES-D) götürülüb. Sorğunun bir çox kişi və qadın respondenti adətən zəif psixi sağlamlıq simptomlarına məruz qalmaqla yanaşı həyatdan yüksək

səviyyədə məmnunluq hissi keçirdiklərini bildirib. Verilmiş hər bir cavabla bağlı təfərrüatlarla tanış olmaq üçün Əlavə 6-ya baxın.

Kişilərin təxminən 15,1%-nin və təqribən iki dəfə çox (32,5%) qadının "CES-D" Şkalası üzrə ölçülmüş depressiya səviyyəsi müsbət nəticə verib.[31] Kişilərlə müqayisədə daha çox qadın depressiyadan əziyyət çəkdiyini bildirsə də, həm kişilər, həm də qadınlar bununla bağlı oxşar simptomlar barədə məlumat verib. Depressiya simptomlarından əziyyət çəkən kişi və qadınların əsasən paytaxt şəhərdə yaşaması və maddi vəziyyətlərinin ağır olduğu daha çox ehtimal olunur. Bu cür simptomları olduğunu bildirən kişi respondentlər böyük ehtimalla ailəlidir, içkiyə meyillidir, təqaüdçü və ya işsizdir. Qadınlar isə əsasən işləyir, subay və ya tənhadır. Bu barədə məlumat vermiş kişilərin depressiv simptomları və gender məsələlərinə münasibəti arasında qarşılıqlı əlaqə mövcuddur. Depressiv simptomlardan əziyyət çəkməyən kişilər gender bərabərliyini daha çox dəstəkləyirdi və bu cür simptomları olan kişilərin sözügedən məsələlərə nisbətən ədalətsiz yanaşması daha çox ehtimal olunur. Depressiv simptomlardan əziyyət çəkib-çəkməməsindən asılı olmayaraq kişilərlə müqayisədə qadınların hamısı bütövlükdə gender bərabərliyi məsələlərinə bir qayda olaraq müsbət yanaşması ilə seçilib.

Sorğuda iştirak etmiş kişilərin 10,6, qadınların isə 8,5%-nin öz həyatlarında nə vaxtsa intihar barədə fikirləşdiyini bildirməsi narahatedici məqam hesab oluna bilər. Bununla belə, kişilərin cəmi 0,3, qadınların isə 0,4%-i son dörd həftə ərzində intihar barədə düşündüyünü diqqətə çatdırıb.

### *3.9.6. İİV üzrə tibbi müayinə*

Azərbaycan İİV və QİÇS-ə yoluxma səviyyəsinin aşağı olduğu ölkə hesab olunur ki, xüsusən 2005-ci ildən etibarən ölkənin Səhiyyə Nazirliyi tərəfindən İİV-in qarşısının alınması üçün İİV və QİÇS-lə əlaqədar xidmətlərin göstərilməsi və İİV-ə yoluxmuş insanların dəstəklənməsi məqsədilə bir sıra addımlar atılıb.[32] Cədvəl 28-də göstərildiyi kimi, kişi və qadın respondentlərin böyük əksəriyyəti heç vaxt İİV üzrə tibbi müayinədən keçmədiyini bildirib. Bu bir tərəfdən qeyri-inyeksion narkotik istifadəçiləri arasında bu xəstəliyə yoluxma riskinin nisbətən aşağı olması ilə, digər tərəfdən isə Azərbaycanda İİV-ə yoluxmuş insanların geniş şəkildə ictimai qınaq obyektinə çevrilməsi ilə əlaqədar ola bilər[33]. Sorğunun nəticələri bərabər sayda kişi və qadınların İİV üzrə tibbi müayinədən keçdiyini göstərir. Eyni zamanda, bu cür müayinədən keçmiş təqribən bütün kişi və qadınlar sonradan müayinənin nəticələrini əldə ediblər.

İİV üzrə tibbi müayinədən keçmək üçün müraciət etmiş kişi respondentlər arasında yaş qrupları üzrə hansısa nəzərəçarpan fərqlər mövcud olmayıb. Bu cür müayinədən keçmək üçün müraciət etmiş respondentlər arasında 25-34 yaş arası qadınlar 29,6%, 35-49 yaş arası qadınlar 24,7%, 18-24 və 50-59 yaş arası qadınlar isə təxminən iki dəfə az, müvafiq olaraq 14,7 və 14,3% təşkil edib. Bu cür fərqin hamiləlik zamanı İİV üzrə tibbi müayinədən keçmək zərurəti ilə əlaqəli olduğunu hesab etmək olar. Qəbul edilmiş yeni qaydalara əsasən nikaha daxil olmaq istəyən şəxslərin İİV və dəri-zöhrəvi xəstəliklər (DZX) üzrə tibbi müayinədən keçmələri tələb olunur.

[31] "CES-D" Şkalası üzrə ballar 20 sualın hamısına verilmiş cavabların dörd ballıq şkala üzrə cəmi kimi hesablanıb: "nadir hallarda və ya heç vaxt" (3bal); "bəzən və ya çox az/keçən həftə ərzində 1-2 gün" (2 bal), "orta səviyyədə/keçən həftə ərzində 3-4 gün" (1 bal) və "çox vaxt və ya həmişə/keçən həftə ərzində 5-7 gün" (0 bal). Beləliklə, toplanmış ballar 0-60 ətrafında dəyişirdi və 16 və ya daha çox bal vəziyyətin kliniki əhəmiyyət kəsb etməsinə və ya narahatlıqla və depressiya ilə əlaqədar müsbət nəticənin olmasına işarə edirdi.

[32] Azərbaycanda Respublikasında Demoqrafiya və Sağlamlıq Sorğusu 2006.

[33] Azərbaycanda Respublikasında Demoqrafiya və Sağlamlıq Sorğusu 2006.

### Cədvəl 28. Sonuncu İİV testinin tarixi və testin nəticələrinə dair məlumat

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Sonuncu dəfə İİV üzrə tibbi müayinədən keçmə | | |
| Son altı ayda | 3,3 | 1,8 |
| Son 12 ayda | 6,2 | 3,3 |
| İki-beş il bundan əvvəl | 11,4 | 9,6 |
| Beş ildən çox bir müddət öncə | 3,8 | 7,0 |
| Heç vaxt | 75,3 | 78,2 |
| İİV üzrə tibbi müayinənin nəticələrini əldə etmə | 97,4 | 86,4 |

***3.9.7. Kişilər üçün xüsusi səhiyyə xidmətləri***

Kişilərin sağlamlığın yaxşılaşdırılması ilə bağlı davranışların təşviqində meydana çıxan əsas sosial maneə müvafiq səhiyyə müəssisələrinin və səhiyyə xidmətləri göstərən tibb müəssisələrinin "kişilər üçün rahat olmaması", başqa sözlə, kişilər üçün xoşrəftar olmaması barədə fikirlərin mövcud olması ilə əlaqədardır. Adətən bu cür müəssisələr yalnız qadınlar üçün nəzərdə tutulmuş yer sayılır ki, kişilər burada özlərini narahat və ya kənar şəxs kimi hiss edirlər. Sözügedən maneələrin Azərbaycanda nə dərəcədə mövcud olmasını daha yaxşı başa düşmək məqsədilə kişilərə hansı səhiyyə xidmətlərinə üstünlük vermələri və bu xidmətlərlə bağlı son təcrübələri barədə suallar verilmişdir.

Cədvəl 29-da göstərildiyi kimi, kişilərin 44,7%-i onlar üçün xüsusi səhiyyə müəssisələrinin mövcud olması və ya kişilər üçün nəzərdə tutulmuş səhiyyə xidmətləri ilə bağlı xüsusi günlərin və ya saatların təyin olunması ilə razılaşmasa da, 39,6%-i kişilər üçün səhiyyə xidmətlərinin təşkil edilməsi məsələsi ilə razılaşıb. Hər beş kişidən təxminən biri (kişilərin 20,8%-i) hazırda səhiyyə xidmətlərinin onlar üçün rahat olmadığını hesab edirsə, kişilərin 22,8%-i bunun nə dərəcədə həqiqətə uyğun olduğunu bilmir. Bunu qismən kişilərin böyük bir hissəsinin səhiyyə xidmətlərindən mütəmadi olaraq istifadə etməməsi ilə izah etmək olar.

### Cədvəl 29. Səhiyyə xidmətləri ilə bağlı münasibət

| | Kişilər | | |
|---|---|---|---|
| | Razı deyiləm | Razıyam | Bilmirəm |
| Kişilər üçün xüsusi səhiyyə müəssisələri mövcud olmalıdır və ya kişilər üçün nəzərdə tutulmuş səhiyyə xidmətləri ilə bağlı xüsusi günlər/saatlar təyin olunmalıdır. | 44,7 | 39,6 | 15,7 |
| Mövcud səhiyyə xidmətləri kişilər üçün rahatdır. | 20,8 | 56,4 | 22,8 |

# 4. NƏTİCƏLƏR

Azərbaycan Respublikası gender bərabərliyi ilə əlaqədar dövlət səviyyəsində öz üzərinə götürdüyü öhdəliklərə hərtərəfli riayət etməkdə davam edir. Qadınların sosial, siyasi və iqtisadi sahələrdə səlahiyyətlərinin genişləndirilməsi üçün əlverişli şərait yaratmaq məqsədilə müvafiq qanunvericilik bazası və siyasət işlənib hazırlanıb. Lakin bir çox başqa ölkələrdə olduğu kimi qanunlar və siyasət yalnız fərdi, müştərək və cəmiyyət səviyyələrində tanındığı, qəbul edildiyi, nəzərə alındığı və tətbiq edildiyi təqdirdə səmərəli olur. Kişilərin gender bərabərliyinə münasibətinə dair tədqiqatın (IMAGES) və keyfiyyət sorğusunun nəticələri göstərir ki, qadınların və qızların cəmiyyətdəki dəyərləri və rolları ilə əlaqədar patriarxal düşüncələrin və təcrübələrin öhdəsindən gəlmək və onları kökündən dəyişmək üçün görüləcək işlər çoxdur. Cəmiyyətin qadınlarla və qızlarla nə cür rəftar etməsi və onları necə dəyərləndirməsi məsələləri ilə qadınların və qızların bilavasitə özlərinə, öz qanuni hüquqlarına, sağlamlığına, qərar qəbul etməyə və bu kimi başqa işlərə nə cür yanaşma bacarığı arasında qarşılıqlı əlaqənin mövcud olması dünya miqyasında gender bərabərliyi ilə bağlı əldə olunmuş nəticələri nəzərə alan "IMAGES" tədqiqatı çərçivəsində bir daha öz təsdiqini tapıb. Bununla yanaşı, kişilərin və oğlanların gender bərabərliyini dəstəkləməyən münasibətləri, təcrübələri və yanaşmaları ilə bağlı dəstəkverici və ya islahedici rol oynaması da böyük əhəmiyyət kəsb edən məsələlərdəndir. "IMAGES" tədqiqatı uşaqların və kişilərin müvafiq olaraq uşaqlıq dövründə və yetkin həyatda gender bərabərsizliyindən çəkməsini bir daha qabardır. Eyni zamanda, əldə olunmuş nəticələr ölkədə gender bərabərliyini təşviq etmək məqsədilə yeni potensial sahələri müəyyən edir.

"IMAGES" tədqiqatı nəticəsində ümümi vəziyyət daha spesifik olaraq aşağıdakı kimi təsvir edilir:

***Gender və gender bərabərliyi ilə bağlı stereotiplər hələ də mövcuddur.*** Kişi və ya qadın olmaqla bağlı ənənəvi gözləntilər Azərbaycan kişi və qadınlarının şüurunda dərin köklər salıb. "IMAGES" tədqiqatının nəticələri göstərir ki, Azərbaycanda gender rolları ilə bağlı ənənəvi və kəskin fikirlər əsasən kişilər tərəfindən dəstəklənir. Ənənəvi olaraq "kişilik" anlayışı kişinin öz ailəsini ilk növbədə maddi cəhətdən təmin etmək bacarığı ilə əlaqələndirilir.

***Kişilərin çoxu gender bərabərliyi və qadınların hüquqlarının təmin olunduğunu vurğulasa da, digərləri gender bərabərliyi üzrə hələ görüləcək çox işin olduğuna inanır.*** Tədqiqatda iştirak etmiş kişi və qadınların böyük bir hissəsi gender bərabərliyinin yetərincə yayıldığını zənn etsə də, əksəriyyət bərabərliyin təşviq edilməsi üçün daha çox işlərin görülməsinin zəruriliyi qənaətindədir. Buna baxmayaraq, bu sahədə kişilərlə daha çox iş aparılmalıdır çünki qadın hüquqlarının təşviqi məsələsinə kişilər daha mənfi münasibət nümayiş etdirir.

***Qayğı göstərmə işinin çox bir hissəsinin hələ də qadınlar tərəfindən yerinə yetirilməsinə baxmayaraq, kişilər məhdud şəkildə olsa da, bu prosesdə iştirak edirlər.*** Kişilər qayğı ilə bağlı işlərdə öz iştirak səviyyəsinin yüksək olması barədə məlumat verməyə meylli olsa da, qadınlar bununla bağlı fərqli fikirləşir və tədqiqat nəticələrinə əsasən qadınlarla müqayisədə kişilərin bütün qayğı işlərində iştirak səviyyəsi daha aşağıdır. Respondentlərin verdiyi cavablara əsasən, qadınlar uşaqlara əsasən fiziki qayğının göstərilməsi ilə əlaqədar işləri yerinə yetirir. Uşaqla vaxt keçirməyi tələb edən işlər isə adətən bərabər əsasda bölüşdürülür və ya birgə edilir.

***Bir çox kişi "kişilik" anlayışının mənfi aspektlərindən uzaqlaşır və bu gender bərabərliyinin təminatları baxımından müsbət dinamikanın olduğunu nümayiş etdirir.*** Kişilərin yarıdan çoxu əmindir ki, kişilər ev işlərinə (məsələn, yemək hazırlamaq, təmizlik və mətbəx işləri) kömək etməlidir. Kişilərin demək olar ki, hamısı razıdır ki, uşaqlar üçün gündəlik qayğının göstərilməsi onların maddi təminatı qədər vacib bir işdir. Eyni zamanda, kişilərin çoxu tərəfindən birmənalı şəkildə qəbul olunur ki, onların bu cür işlərdə ata qismində iştirakı yalnız iqtisadi və ya "produktiv" vəzifələrin yerinə yetirilməsi ilə məhdudlaşmamalıdır. Kişi respondentlərin üçdə birindən çoxu işinə görə uşaqları ilə çox az vaxt keçirdiyini qeyd edib və təxminən elə o qədər kişi öz uşaqları ilə daha çox vaxt keçirmək üçün daha az işləməyə razı olduğunu bildirib.

***Ailə münasibətlərində qərar qəbul etmək səlahiyyətləri baxımından kişilərin üstünlüyü davam etməkdədir.*** Qadınların daha çox iştirakını nəzərdə tutan sahələri, məsələn, uşağın sağlamlıq məsələlərini istisna etməklə, kişilər ənənəvi olaraq qərar qəbuletmənin tələb olunduğu bütün sahələrdə daha böyük təsirə malikdir. Bununla yanaşı, cavabların müqayisəli təhlili qərarların kim tərəfindən qəbul edilməsi ilə bağlı ifadə olunmuş fikirlər arasında uyğunsuzluqların olduğunu göstərir. Belə ki, cinsi və reproduktiv sağlamlıqla bağlı qərar qəbuletmə məsələlərinə gəldikdə, kişilərin çoxu qoruyucu vasitələrdən istifadə etmə qərarını təkbaşına və ya birgə qəbul

etdiyini bildirsə də, sorğuda iştirak etmiş qadınların hamısı sözügedən qərarının onlara məxsus olduğunu və ya birgə qəbul edildiyini qeyd edib.

***Kişilərin müvafiq işlərdə ata qismində iştirakı onların gender bərabərliyinin təşviqi prosesinə cəlb edilməsi məqsədilə geniş şəkildə istifadə edilməlidir.*** Kişilərin əksəriyyəti öz həyat yoldaşlarını antenatal qayğı ilə bağlı tibbi müayinələr zamanı müşayiət etdiyini bildirib və oxşar məlumat müvafiq olaraq qadınlar tərəfindən də verilib. Təxminən beş kişidən biri isə sözügedən tibbi müayinələrin hamısında öz partnyorunu müşayiət etdiyini qeyd edib. Bununla belə, çox az sayda kişi müayinə prosesində faktiki olaraq iştirak edib. Kişilərin çoxu öz həyat yoldaşını müvafiq məntəqəyə gətirdikdən sonra məkanı tərk edib və ya məntəqənin çıxışında və ya gözləmə otağında gözləyib. Bu isə öz növbəsində səhiyyə xidmətlərinin göstərilməsi, habelə anaya və yeni doğulmuş uşağa qayğı, uşağın sağlamlığı və gender bərabərliyinin təşviqi proseslərinə kişilərin mümkün qədər cəlb olunması baxımından həm itirilmiş imkan, həm də giriş nöqtəsi hesab oluna bilər: kişlərin çoxu bu kimi proseslərdən kənarda qalır, halbuki onlar cəlb olunmaq üçün dəvət edilməlidir.

***Ataları qayğının göstərilməsində və ev işlərində iştirak etmiş, habelə gender bərabərliyinə daha müsbət yanaşan kişilər böyük ehtimalla gender məsələlərini dəstəkləməyə daha meyllidir.*** Gender bərabərliyini daha çox dəstəkləyən kişilərin uşaqlara gündəlik qayğının göstərilməsində daha çox iştirak etdiyinə dair məlumat əldə edilib. Atalarının ev işləri ilə məşğul olmasını uşaq ikən müşahidə etmiş kişilərin öz uşaqlarına gündəlik qayğının göstərilməsində yaxından iştirak etməyə daha meylli olması qayğı məsələlərinə dair nəsillərarası dəyişikliklərin baş verdiyini nümayiş etdirir.

***Kişilərin uşaqlıqda zorakılığa məruz qalması ciddi gender fərqlərinin olmasını göstərir.*** Kişilər uşaqlıqda xüsusilə fiziki zorakılığın daha ağır formalarından əziyyət çəkdiklərini qeyd ediblər. Belə ki, kişilər qadınlardan daha çox ağır əşyalarla döyülüb və döyülmə nəticəsində bədənlərində çapıq və zədələrin qalması barədə məlumat verib.

***Kişilər tərəfindən zorakılığın istənilən formasının törədilməsini ardıcıl qaydada bir neçə amillə əlaqələndirmək olar.*** 1) Öz analarına qarşı zorakılığın şahidi olma və uşaqlıqda fiziki zorakılığa məruz qalma halları ilə rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən törədilən zorakılıq arasında bağlılıq müşahidə olunur və bu nəticə dünyanın müxtəlif yerlərində zorakılığın nəsillərarası zərərli təsiri ilə bağlı aparılmış tədqiqatların nəticələri ilə üst-üstə düşür. 2) "GEM" Şkalasına əsasən gender bərabərliyini daha az dəstəkləyən və xüsusilə də qadınlara qarşı zorakılıq barədə bəzi fikirlərin (məsələn, "qadın öz ailəsini qoruyub saxlamaq üçün zorakılığa dözməlidir" və "bəzi hallarda qadın döyülməyə layiqdir") tərəfdarı olan kişilər rəsmi və ya qeyri-rəsmi nikahda olduqları şəxslərə qarşı daha çox zorakılıq törədən şəxslərdir. 3) İqtisadi təzyiq də sözügedən amillər sırasındadır: maliyyə çətinlikləri olan və daimi iş və ya gəlirin olmaması (bəzi hallarda isə işin çox olması) səbəbindən stress və psixoloji sarsıntı keçirən kişilər zorakılığa daha çox meylli olur. 4) Nəhayət, adətən aşağı təhsilli kişilərin ümumilikdə daha çox zorakılıq etməsi müşahidə olunur.

***Tədqiqat seçməsini təşkil edən kişi və qadınlardan heç biri qadınlara qarşı şahidi olduğu zorakılıq halları barədə müvafiq instansiyalara məlumat verməyib.*** Bu nəticə onu göstərir ki, kişi və qadınların böyük əksəriyyəti zorakılığı qınayaraq müdaxilə etməyə hazır olsa da, faktiki olaraq onların çox az bir hissəsi bununla bağlı rəsmi orqanlara müraciət edir. Kişi və qadın respondentlərin 60%-dən az hissəsi məişət zorakılığına qarşı qanunlar barədə məlumatlı idi.

***Qız uşaqları ilə müqayisədə oğlan uşaqlarının sayının çox olmasına üstünlük verən kişi və qadınlar arasında əhəmiyyətli fərqin olması Azərbaycanda kişilərin oğlan uşaqlarına üstünlüyün verilməsi məsələsində nə dərəcədə güclü aparıcı qüvvə olmasını nümayiş etdirir.*** Əldə edilmiş məlumatlara əsasən qeyd etmək mümkündür ki, soyadın gələcək nəsillərə ötürülməsi və nəslin davam etdirilməsi, habelə kişi və qadınların çoxu tərəfindən qız uşaqlarının yük hesab edilməsi oğul övladına verilən üstünlüyün əsas səbəbini təşkil edir. Bu məlumatlar bir sıra Qafqaz ölkəsində keçirilmiş tədqiqatların nəticələri ilə üst-üstə düşür: oğlan uşaqları dəyər və ailənin dayağı kimi qəbul edilir, qızlar isə ailə quracaqları vaxtdan etibarən artıq doğulduqları ailələrinə aid olmayacaq əlavə öhdəlik hesab olunur.

***Kişilərin fiziki və psixi sağlamlıq ilə bağlı səhiyyə xidmətlərinə ehtiyacı olsa da, onlar qadınlarla müqayisədə bunu daha az edirlər.*** Aparılmış tədqiqat göstərir ki, kişi və qadınların öz ümumi sağlamlıq vəziyyətinə nə cür yanaşması ilə bağlı aşkar gender fərqləri mövcuddur. Ümumilikdə qadınlarla müqayisədə kişilər öz sağlamlıq vəziyyətini daha qənaətbəxş qiymətləndirib. Buna baxmayaraq onların səhiyyə xidmətləri, o cümlədən, profilaktik xidmətlər üçün nə vaxtsa müraciət etməsinə dair məlumata çox az təsadüf edilib. Kişi və qadınlar arasında sağlamlığın yaxşılaşdırılması davranışı ilə əlaqədar müşahidə olunan bu fərqlər yaşa dolduqca daha da artır.

# 5. ƏSAS TÖVSİYƏLƏR

Yuxarıda təqdim edilmiş nəticələrə əsasən belə qənaətə gəlmək olur ki, ölkədə gender bərabərliyinin təşviq edilməsi üzrə həyata keçirilən dövlət siyasəti gender bərabərliyini inkişaf etdirmək və kişiləri bu istiqamətdə cəlb etmək üçün müvafiq şəraiti təmin edir. Ümumiyyətlə Azərbaycanda gender normalarını dəyişmək məqsədilə ekoloji yanaşmanın tətbiqi tövsiyə olunur. Ekoloji model kişilərlə gender sahəsində müvafiq işlərin aparılmasına dair müfəssəl yanaşma üçün konseptual çərçivə nəzərdə tutur. Bu modelə əsasən fərdi münasibəti dəyişmək məqsədilə (nəyinki münasibət və düşüncələri) tətbiq edilən yanaşmalar yalnız fərdləri deyil, fərdlərə təsir edən həmyaşıdlardan, ailələrdən, icmalardan, kütləvi informasiya vasitələrindən və siyasətlərdən ibarət sistemləri və qrupları da əhatə etməlidir. Ekoloji yanaşma müxtəlif növ müdaxilələrın çoxsaylı təsiri ilə baş verən dəyişikliklərin sayının artıraraq və fərdlərlə yanaşı onların sosial mühitinin dəyişməsi istiqamətində eyni anda işlər aparmaqla cinsi və reproduktiv sağlamlıq, qadınlara qarşı zorakılıq, ödənişsiz qayğı işlərinin bölüşdürülməsi və genderlə bağlı bir sıra sahələrdə mövcud maneələrin aradan qaldırılmasında davamlı dəyişikliklərin əldə olunmasına şərait yaradaraq faydalı hesab olunur. Bunları nəzərə alaraq aşağıdakı tövsiyələr təklif edilir:

## 5.1. Təxirəsalınmaz tövsiyələr

“IMAGES” tədqiqatının nəticələrini müxtəlif əlaqədar tərəflər, o cümlədən aidiyyəti hökumət qurumları, vətəndanş cəmiyyəti təşkilatları, KİV nümayəndələrini cəlb etməklə ictimaiyyətə təqdim etmək. Bu nəticələri, habelə “cəmiyyətdə kişi və qadın olmaq nə deməkdir” ifadəsi ilə bağlı kişi və qadınların fikirlərini gənclərə, valideynlərə, cəmiyyətin digər üzvlərinə, kütləvi informasiya vasitələrinin nümayəndələrinə, hökumət təşkilatlarına, vətəndaş cəmiyyəti təşkilatlarına və digər aidiyyəti tərəflərə təqdim etmək.

1. Kişilərin gender bərabərliyi məsələlərinə cəlb edilməsi xüsusilə gender məsələlərini sadəcə olaraq qadınların səlahiyyətlərinin genişləndirilməsi kimi qəbul edən tərəflər üçün intuitiv xarakter daşımamalıdır. Müvafiq hökumət təşkilatlarının vəzifəli şəxslərinin “kişilik” anlayışına və gender normalarına fərdi münasibətinin köklü şəkildə dəyişməsi yüksək prioritetli məsələ hesab olunmalıdır. Bu istiqamətdə “IMAGES” tədqiqatının nəticələrini təqdim edərkən həmin nəticələrin ümumi sağlamlıq və rifahın təmin olunması, qadınların səlahiyyətlərinin genişləndirilməsi və gender bərabərliyi sahələrində mövcud olan maneələrin aradan qaldırılması ilə əlaqələndirmələr aparıla bilər. Eyni zamanda, burada kişilərin gender bərabərliyi məsələlərinə cəlb olunması üçün proqramların və siyasətlərin hazırlanmasında daha yaxşı səmərə verən təcrübəni təqdim etmək məqsədilə regiondan olan ekspertlərin dəvət edilməsi də nəzərdə tutula bilər.
2. Məlumatın asanlıqla mənimsənilə bilməsini təmin etmək üçün tədqiqatın nəticələrinə dair cəlbedici infoqrafiklərin və qısametrajlı cizgi filmlərinin hazırlanması məqsədilə müvafiq media şirkətləri ilə birgə iş aparmaq.

## 5.2. Uzunmüddətli tövsiyələr

3. Gender bərabərliyinə dair müddəaları özündə ehtiva edən və qadınların sosial, iqtisadi və siyasi sahələrdə irəliləməsini təşviq edən qanun və proqramlara yenidən baxmaq. “IMAGES” tədqiqatının nəticələrindən istifadə edərək və kişilərin gender bərabərliyi məsələlərinə cəlb edilməsinə dair ən yaxşı təcrübəni araşdıraraq müvafiq perspektivi mövcud proqramlara daxil etmək., Bu proses zamanı mövcud patriarxal münasibətlər və təcrübələrin dəyişdirilməsi və aradan qaldırılmasında kişi və oğlanların tərəfdaş və müttəfiq qismində cəlb olunmasına xüsusi diqqət yetirmək.
4. Atalıq, sağlam münasibətlər, cinsi və reproduktiv sağlamlıq və hüquqlar və s. məsələlərə dair gender yönümlü maarifləndirmə kampaniyalarının hazırlanması sahəsində kişiləri və oğlanları gender bərabərliyi məsələlərinə cəlb edən vətəndaş cəmiyyəti təşkilatları ilə tərəfdaşlıq etmək. Bu cür kampaniyalar xüsusi xarakter daşımalı və konkret sosial və gender normalarını hədəf almalıdır.

5. Valideynlərin müsbət valideynlik təcrübəsində iştirakını stimullaşdırmaq və valideynlərarası münasibətləri gücləndirmək məqsədilə müxtəlif iqtisadi sahələrdə çalışan ataları və anaları valideynlər üçün nəzərdə tutulmuş təlim proqramlarına daxil etmək. Əldə olunmuş nəticələr göstərir ki, qayğı göstərmə işinin yerinə yetirilməsi baxımından kişi və qadınlar arasında böyük bir fərqin mövcud olmasına baxmayaraq, kişilər məhdud şəkildə olsa da belə, bu prosesdə iştirak edirlər. Müxtəlif sahələrdə çalışan ataların bu prosesə cəlb edilməsi və bu prosesdə iştrakı məqsədilə əlavə səylərin göstərilməsi üçün həmin proqramlar valideynlik və qayğı məsələlərinin müvafiq məqsədlər üçün təşkil olunmuş qruplara təlimini nəzərdə tuta bilər. Yoxsulluğun azaldılması, gəlir əldə etmə və məşğulluq üzrə təlim proqramları həm ataların, həm də anaların bu cür təlimlərdə daha geniş iştirakı üçün şəraitin yaradılması baxımından da xüsusi əhəmiyyət kəsb edir.
6. Bütün növ zorakılıqların qarşısını almaq, habelə qeyri-zorakı münasibətləri və qayğı göstərməni dəstəkləyən bacarıqları inkişaf etdrimək məqsədilə oğlanlarla və qızlarla erkən yaşlarından iş aparmaq. Bu iş sosial-emosional məsələlər üzrə təhsil proqramlarının bir hissəsi kimi və ya məktəblərdə tədris olunan hərtərəfli cinsi inkişaf kontekstində və yaxud, icma təşkilatlarının dəstəyilə həyata keçirilən təlimlər vasitəsilə aparıla bilər.
7. Zorakılığın qarşısının alınmasına dair mövcud təşəbbüslər kontekstində kişiləri ata olmağa daha yaxşı hazırlamaq məqsədilə zorakılığın qarşısının alınması üzrə proqramları və digər dəstəkləyici proqramları işləyib hazırlayarkən hamiləlik və atalıq məsələlərini əsas məqamlardan biri kimi nəzərə almaq. Bu fəaliyyət məktəblər, məktəbəqədər təhsil, valideynlər üçün nəzərdə tutulmuş təlim proqramları vasitəsilə həyata keçirilə bilər. Belə bir məqam kişilərin uşaq doğulandan əvvəl, doğulduğu zaman və doğulandan sonra onun sağlamlığı ilə əlaqədar cinsi və reproduktiv sağlamlıq və hüquqlar, habelə ana sağlamlığı və hüquqları sahələrində iştirakını stimullaşdırmaq və dəstəkləmək məqsədilə milli siyasətlərin işlənib hazırlanmsı, tətbiqi və monitorinqi üçün əlavə imkanlar yarada bilər.
8. Kişilərin keyfiyyətli cinsi və reproduktiv səhiyyə xidmətlərinin göstərilməsi prosesində iştirakını təşviq etmək və dəstəkləmək məqsədilə dövlət və özəl səhiyyə sistemlərini gücləndirmək üçün əsas əlaqədar tərəflərlə iş aparmaq. Müvafiq xidmətlərin göstərilməsi prosesinə və vaxtına dəyişikliklər etməklə ataların bu cür proseslərdə iştirakına imkan yaratmaq məqsədilə kişilərin həmin proseslərə cəlb olunduqlarını hiss etmələri üçün mövcud infrastrukturlara dəyişikliklərin edilməsi, məsələn, doğuşun qəbulunda iştirak üçün xüsusi yerlərin yaradılması nəzərdə tutula bilər. Eyni zamada, bu məqsədlə kişilərin müvafiq xidmətlərin göstərilməsində iştirakı üçün onlara xüsusi dəvətlərin edilməsi, iş vaxtından sonra klinikaya təyinat əsasında gəlmələri üçün klinikaların iş vaxtının artırılması, daha çox sayda kişinin işçi personal kimi işə götürülməsi, müvafiq məlumatların verilməsi və müzakirələrin aparılması və qarşılıqlı dəstəyin göstərilməsi üçün yerlərin ayrılması məqsədilə kişilərin və ataların hazırlıq qruplarının təşkil edilməsi nəzərdə tutula bilər.
9. Dövlət və/və ya işəgötürən tərəfindən uşağa və bütövlükdə ailəyə qayğının göstərilməsi işini dəstəkləməklə qadınların iqtisadi səlahiyyətlərinin genişləndirilməsi üçün imkanların yaradılması məsələsini təşviq etmək məqsədilə media da daxil olmaqla əsas əlaqədar tərəflərlə iş aparmaq. Bunun üçün kişilərin ödənişli, çevik və həyat yoldaşına verilməsinə icazə verilməyən məzuniyyətlərlə təmin edilməsi siyasəti nəzərdə tutula bilər.
10. Cəmiyyətdə gender dinamikasına təsir edən amillər, eyni zamanda kişilərin gender bərabərliyinin təbliği və təşviqi işinə cəlb olunmasının nəticələrinə dair məlumatlar əldə etmək məqsədilə tədqiqat mərkəzləri və ali təhsil ocaqları ilə əməkdaşlıq etmək.

Kişilərin qayğı göstərmə işi, habelə ananın, yeni doğulmuş körpənin və uşağın sağlamlığı ilə bağlı rolunu köklü şəkildə dəyişmək üçün bir neçə səviyyədə görülməsi tələb oluna biləcək qısa tədbirlər nümunəsi aşağıda təqdim olunur:

| | |
|---|---|
| Gender bərabərliyini dəstəkləməyən kişiliyə və atalığa dair mənfi **<u>fərdi</u>** fikirləri dəyişmək, habelə rəsmi və ya qeyri-rəsmi nikahda olduqları şəxslərlə daha sağlam münasibətlər qurmaq üçün kişiləri müvafiq bacarıqlarla təmin etmək. | “IMAGES” tədqiqatının nəticələrindən istifadə etməklə atalar üçün kurrikulum əsaslı qrup şəklində təlimin hazırlanması və yerli şəraitə uyğunlaşdırılması üçün yerli vətəndaş cəmiyyəti təşkilatları ilə iş aparmaq. Belə bir tədbir mövcud gender və sosial normaların kişilərin həyatına nə cür təsir etdiyini başa düşməkdə kişilərə kömək edəcək, gender bərabərliyi ilə bağlı münasibətin və inancların dəyişməsinə şərait yaradacaq, müvafiq bacarıqları artıracaq və xüsusi məqsədli davranışları dəyişəcək. |

| | |
|---|---|
| Dəstəkverici **ailə münasibətləri və həmyaşıdlar mühiti** qurmaq. | İntim münasibətlərin keyfiyyətinin yaxşılaşdırılmasına, gender zəminində zorakılığın azaldılmasına, habelə ədalətli gender münasibətləri üçün dəstəkverici həmyaşıdlar və ailə mühitinin yaradılmasına kömək edəcək. |
| İcma yönümlü yanaşma əsasında **icmaları** səfərbər etmək. | Atalıq vəzifəsini yerinə yetirən kişilərin müsbət imicini təşviq edən ictimai maarifləndirmə kampaniyalarının hazırlanması və həyata keçirilməsi üçün hökumət təşkilatları, vətəndaş cəmiyyəti təşkilatları, icma üzvləri və digər əlaqədar tərəflərlə tərəfdaşlıq etmək. |
| **Siyasət və qanunvericilik sahəsində islahatlara** cəmiyyət səviyyəsində təsir göstərmək. | Aidiyyəti nazirliklər və digər əlaqədar tərəflərlə birgə atalıq məzuniyyətinin mövcud olması barədə məlumatlandırma artırmaq, habelə bu cür məzuniyyətin müddətinin artırılması və tam ödənişli olması imkanlarını təbliğ etmək. |

# ƏDƏBİYYAT


- Barker, G. (2000). What About Boys? A Review and Analysis of International Literature on the Health and Developmental Needs of Adolescent Boys. Geneva: World Health Organization.
- Barker, G. (2005). Dying to be Men: Youth, Masculinity and Social Exclusion (Sexuality, Culture and Health). New York, USA and London, UK: Routledge.
- Barker, G., Contreras, J.M., Heilman, B., Singh, A.K., Verma, R.K., & Nascimento, M. (2011). Evolving Men: Initial Results from the International Men and Gender Equality Survey (IMAGES). Washington, DC: International Center for Research on Women (ICRW) and Rio de Janeiro: Instituto Promundo.
- Connell, R.W. (2005). “Change among the Gatekeepers: Men, Masculinities, and Gender Equality in the Global Arena.” Signs. Spring 2005, 30:1801–25.
- Connell. R.W. (1995). Masculinities. Berkeley, CA. University of California Press. Cited in Barker et. al, 2011.
- DHS Azerbaijan - State Statistical Committee [Azerbaijan] & Macro International Inc. (2008). Azerbaijan Demographic and Health Survey 2006, p. 54. Calverton, Maryland, USA: State Statistical Committee & Macro International Inc.
- Fleming P.J., McCleary-Sills J., Morton M., Levtov R., Heilman B., Barker G. Risk Factors for Men’s Lifetime Perpetration of Physical Violence against Intimate Partners: Results from the International Men and Gender Equality Survey (IMAGES) in Eight Countries. Dalal K, ed. PLOS ONE. 2015; 10(3): e0118639.
- Fulu E., Warner X., Miedema S., Jewkes R., Roselli T., & Lang J. (2013). Why Do Some Men Use Violence Against Women and How Can We Prevent It? Quantitative Findings from the United Nations Multi-Country Study on Men and Violence in Asia and the Pacific. Bangkok: UNDP, UNFPA, UN Women, & UN Volunteers.
- Guilmoto, C. Z. (2013). Sex Imbalances at Birth in Armenia: Demographic Evidence and Analysis. Research Institute for Development, CEPED, UNFPA Armenia. Yerevan, 2013.
- Gupta, G. R. (2000). Gender, Sexuality, and HIV/AIDS: The What, the Why, and the How. Canadian HIV/AIDS Policy Law Review, 5(4), 86-93. Cited in Barker et. al, 2011.
- Heilman B., Hebert L., & Paul-Gera N. (2014). The Making of Sexual Violence: How Does a Boy Grow Up to Commit Rape? Evidence from Five IMAGES Countries. Washington, DC: International Center for Research on Women (ICRW) and Promundo.
- Levtov R., van der Gaag N., Greene M., Kaufman M., and Barker G. (2015). State of the World’s Fathers: A Men Care Advocacy Publication. Washington, DC: Promundo, Rutgers, Save the Children, Sonke Gender Justice, and the MenEngage Alliance.
- Levtov R., Barker G., Contreras-Urbina M., Heilman B., Verma R. (2014). Pathways to Gender-equitable Men: Findings from the International Men and Gender Equality Survey in Eight Countries. Men and Masculinities, 17(5).
- Pulerwitz, J. & Barker, G. (2008). Measuring attitudes toward gender norms among young men in Brazil: Development and psychometric evaluation of the GEM Scale. Men and Masculinities 10, 322–338.
- Sideris, T. (2004). 'You Have to Change and You Don’t Know How!': Contesting What it Means to be a Man in a Rural Area of South Africa. African Studies 63:29–49. Cited in Levtov et al. 2014.
- Singh A. K., Verma R., & Barker, G. (2013). Measuring Gender Attitude: Using Gender-Equitable Men Scale (GEMS) in Various Socio-Cultural Settings. Making Women Count, 1–98. http://doi.org/10.1016/S0140-6736(15)60964-3
- United Nations Children's Fund (UNICEF). (2016). The State of the World’s Children 2016: A Fair Chance for Every Child. New York: UNICEF.
- United Nations Development Program (UNDP) Azerbaijan. (2007). Azerbaijan Human Development Report 2007: Gender Attitudes in Azerbaijan: Trends and Challenges. Baku, Azerbaijan: UNDP.
- United Nations Population Fund Eastern Europe and Central Asia Regional Office (UNFPA EECARO). (2014). Child Marriage in Azerbaijan (Overview). Istanbul: UNFPA EECARO.

# ƏLAVƏLƏR

## ƏLAVƏ 1. SEÇMƏ STRATEGİYASI

Kəmiyyət tərkibli məlumatlar 18-59 yaş arası kişi və qadınlardan toplanıb. Seçmələrin planlaşdırılmış ümumi miqdarı, başqa sözlə, tamamlanmış müsahibələrin sayı 900-ə bərabər olub. Kişi seçmələrinin planlaşdırılmış sayı 630, qadın seçmələrinin isə 270 nəfər təşkil edib. Cavab verməmə nəticəsində yarana biləcək itkiləri kompensasiya etmək üçün əvvəlcədən seçilmiş respondentlərin sayı 2.700 nəfər təşkil edib (hədəf müsahibələrin sayından üç dəfə çox).

Əhalisinin sayına görə dörd növ yaşayış məntəqəsində müsahibələr aparılıb: kənd yerlərində, habelə əhalisinin sayı 100.000 nəfərdən az, 100.000 nəfərdən 1.000.000 nəfərədək və 1.000.000 nəfərdən çox olan şəhərlərdə. Bu yaşayış məntəqələri hədəf ərazilərdə müəyyən edilibdir ki, bununla da ümumi hədəf auditoriyası səkkiz strataya bölüşdürülüb (Cədvəl 41-ə baxın). Hər bir hədəf ərazidə otuz planlaşdırılmış seçmə vahidi təsadüfən seçilərək hər bir əhali təbəqəsinin ölçüsünə mütənasib şəkildə səkkiz əhali təbəqəsi arasında bölüşdürülüb. Bundan sonra, hər bir planlaşdırılmış seçmə vahidində 10 müsahibə tamamlamaq planına əsasən hər bir seçmə vahidi üçün 30 potensial respondent sistemli şəkildə seçilib. Həm planlaşdırılmış seçmə vahidləri, həm də potensial respondentlər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi saytında (http://www.msk.gov.az) verilmiş siyahılardan seçilib.

Tamamlanmış müsahibələrin hədəfə götürülmüş ərazilər və ümumi seçmə vahidlərindən ibarət əhali təbəqələri üzrə bölgüsü Cədvəl 30-da təqdim olunur (planlaşdırılmış seçmə vahidlərinin sayı mötərizədə verilir). Tamamlanmış müsahibələrin kişilərdən və qadınlardan ibarət seçmələr üzrə hədəf bölgüsü Cədvəl 31 və 32-də nümayiş olunur (planlaşdırılmış seçmə vahidlərinin sayı mötərizədə verilib).

### *Cədvəl 30. Kəmiyyət sorğusu üçün ümumi seçmə planı*

| Region | Tamamlanmış müsahibələrin yaşayış məntəqələrinin növü üzrə hədəf bölgüsü (planlaşdırılmış seçmə vahidlərinin sayı mötərizədə verilib) | | | | |
|---|---|---|---|---|---|
| | Kənd | Şəhər (<100.000) | Şəhər (100.000 - 1.000.000) | Şəhər (1.000.001+) | Cəmi |
| Bakı-Abşeron | - | 20 (2) | 40 (4) | 240 (24) | **300 (30)** |
| Gəncə-Qazax | 120 (12) | 30 (3) | 150 (15) | - | **300 (30)** |
| Aran bölgəsi | 190 (19) | 110 (11) | - | - | **300 (30)** |
| **Cəmi** | **310 (31)** | **160 (16)** | **190 (19)** | **240 (24)** | **900 (90)** |

### *Cədvəl 31. Kəmiyyət sorğusu üçün kişilər üzrə seçmə planı*

| Region | Kişilərlə tamamlanmış müsahibələrin yaşayış məntəqələrinin növü üzrə hədəf bölgüsü (kişilərdən ibarət planlaşdırılmış seçmə vahidlərinin sayı mötərizədə verilib) | | | | |
|---|---|---|---|---|---|
| | Kənd | Şəhər (<100.000) | Şəhər (100.000 - 1.000.000) | Şəhər (1.000.001+) | **Cəmi** |
| Bakı-Abşeron | - | 10 (1) | 30 (3) | 170 (17) | **210 (21)** |
| Gəncə-Qazax | 80 (8) | 20 (2) | 110 (11) | - | **210 (21)** |
| Aran bölgəsi | 130 (13) | 80 (8) | - | - | **210 (21)** |
| **Cəmi** | **210 (21)** | **110 (11)** | **140 (14)** | **170 (17)** | **630 (63)** |

### Cədvəl 32. Kəmiyyət sorğusu üçün qadınlar üzrə seçmə planı

| Region | Qadınlarla tamamlanmış müsahibələrin yaşayış məntəqələrinin növü üzrə hədəf bölgüsü (qadınlardan ibarət planlaşdırılmış seçmə vahidlərinin sayı mötərizədə verilib) | | | | |
|---|---|---|---|---|---|
| | Kənd | Şəhər (<100.000) | Şəhər (100.000 - 1.000.000) | Şəhər (1.000.001+) | **Cəmi** |
| Bakı-Abşeron | - | 10 (1) | 10 (1) | 70 (7) | **90 (9)** |
| Gəncə-Qazax | 40 (4) | 10 (1) | 40 (4) | - | **90 (9)** |
| Aran bölgəsi | 60 (6) | 30 (3) | - | - | **90 (9)** |
| **Cəmi** | **100 (10)** | **50 (5)** | **50 (5)** | **70 (7)** | **270 (27)** |

Seçmə planı iki mərhələdə həyata keçirilib: 1) müvafiq ərazidə nəzərdə tutulan əhali təbəqəsinin ölçüsünə mütənasib şəkildə hər bir ərazi üzrə 21 kişi və doqquz qadından ibarət planlaşdırılmış seçmə vahidi təsadüfi seçilib və 2) planlaşdırılmış seçmə vahidi çərçivəsində 30 potensial respondent təsadüfi seçilib. Seçilmiş şəxs olmadıqda müsahibəçi geri qayıdaraq müsahibə götürmək üçün başqa vaxt təyin etmiş olurdu. Respondentin müsahibə üçün əlçatan olmamasını hesab etmək üçün onunla ən azı iki görüş baş tutmamalı idi. Yerinə yetirilməsi mümkün olmayan müsahibələrin əvəz edilməsinə icazə verilmirdi.

Sahə işləri 2016-cı il fevralın 29-dan aprelin 17-dək həyata keçirilib. Həyata keçirilmiş sahə işləri nəticəsində 902 müsahibə (Bakı-Abşeron regionunda - 302, Gəncə-Qazax regionunda - 300 və Aran bölgəsində 300 müsahibə) tamamlanıb ki, onların 631-i kişilərlə və 271-i qadınlarla aparılıb. Müsahibələrin hədəfə uyğun sayına nail olmaq üçün əvvəlcədən seçilmiş 887 kişi seçicinin ünvanına səfər edilib: beləliklə, kişilər arasında sorğu zamanı cavab vermə səviyyəsi 71,1% təşkil edib. Bununla yanaşı, əvvəlcədən seçilmiş 336 qadın seçicinin ünvanına da səfər edilib: beləliklə qadınlar arasında cavab vermə səviyyəsi 80,7%-ə bərabər olub. Ümumi cavab vermə səviyyəsi 73,8% təşkil edib. Respondentin xəstə olması, əlçatan olmaması - şəhərdə və ya evdə olmaması, qapını açmaması və ya sorğuda iştirak etməkdən imtina etməsi, habelə sorğunun vaxtından əvvəl başa çatması cavab verməmənin səbəbləri kimi göstərilib. Cavab vermə səviyyəsi ilə əlaqədar rəqəmlər, habelə cavab verməmənin səbəbləri Cədvəl 44-də nümayiş olunur.

### Cədvəl 33. Kəmiyyət sorğusu ilə bağlı cavab vermə göstəriciləri

| | S | % |
|---|---|---|
| **Səfər edilmiş ünvanların sayı** | **1223** | |
| Yaşayışın olmadığı/səhv ünvan | 23 | |
| Evə daxil olmanın mümkün olmaması | 14 | |
| (Üç səfər zamanı) evdə heç kəsin olmaması | 42 | |
| Qapını açmama/sorğuda iştirak etməkdən imtina | 111 | |
| Ev təsərrüfatları arasında cavab vermə səviyyəsi | | 84.5 |
| **Əvvəlcədən seçilərək əlaqə saxlanılmış şəxslərin sayı** | **1033** | |
| Xəstə olanlar | 2 | |
| Şəhərdə/kənddə olmayanlar | 47 | |
| (Üç səfər zamanı) evdə olmayanlar | 17 | |
| Müsahibədə iştirak etməkdən imtina edənlər | 54 | |
| Müsahibəni dayandıranlar | 11 | |
| **Tamamlanmış müsahibələrin sayı** | **902** | |
| **Respondentlər arasında cavab vermə səviyyəsi** | | **87,3** |
| **Ümumi cavab vermə səviyyəsi** | | **73,8** |

## ƏLAVƏ 2. "IMAGES" SORĞU-ANKETİNİN AZƏRBAYCAN ŞƏRAİTİNƏ UYĞUNLAŞDIRILMASI

Azərbaycanda keyfiyyət sorğusu aparmaq üçün əsas sənəd olan "IMAGES" sorğu-anketi ölkə reallıqlarını və kontekstini nəzərə almaq məqsədilə yerli şəraitə uyğunlaşdırılıb.

Kişilər üçün sorğu-anket 13 bölmədən və 288 bənddən ibarət olub:

1. Sosial-demoqrafik xüsusiyyıtlər və məşğulluq
2. Kişilərlə qadınlar arasında əlaqələrə münasibət
3. Qadınların liderliyi
4. Ev təsərrüfatı daxilində əlaqələr
5. Cinsi və reproduktiv sağlamlıq
6. Mədəni baxışlara münasibət
7. Münasibət və zorakılıq
8. Evdən kənarda zorakılığa məruz qalma
9. Sağlamlıq və həyat keyfiyyəti
10. Uşaqlıq təcrübəsi
11. Valideynlik və kişilərin öz uşaqları ilə münasibəti
12. Qanunlar və siyasətlər
13. Yekun bölmə

Qadınlar üçün sorğu-anket 12 bölmədən və 260 bənddən ibarət olduğundan bir qədər qısa idi:

1. Sosial-demoqrafik xüsusiyyətlər və məşğulluq
2. Kişilərlə qadınlar arasında əlaqələrə münasibət
3. Qadınların liderliyi
4. Ev təsərrüfatı daxilində əlaqələr
5. Cinsi və reproduktiv sağlamlıq
6. Mədəni baxışlara münasibət
7. Münasibət və zorakılıq
8. Sağlamlıq və həyat keyfiyyəti
9. Uşaqlıq təcrübəsi
10. Valideynlik və kişilərin öz uşaqları ilə münasibəti
11. Qanunlar və siyasətlər
12. Yekun bölmə

Sorğu-anketinin yerli şəraitə uyğunlaşdırılması prosesi onun ilkin sınaqdan keçirilməsini nəzərdə tutub ki, bu da ilkin uyğunlaşdırma işləri başa çatdıqdan sonra həyata keçirilib: Azərbaycan kontekstindən aidiyyəti az olan suallar çıxarılıb və bəzi yeni suallar əlavə edilib. Müxtəlif sosial-demoqrafik qruplara aid olan 20 nəfər - 10 kişi və 10 qadın ilkin sınaqda iştirak edib. Onlardan on altısı evli, dördü isə subay olub. On dörd respondent orta və ya daha aşağı təhsilli, altı respondent isə ali təhsilli olub. Onlar Bakı-Abşeron regionunun üç şəhərində yaşayır.

İlkin sınaq sorğusunun aparılması üçün tələb olunan vaxt, sualların dürüst ifadə olunması və təfsir olunması və verilən cavab variantlarının uyğunluğu baxımından sorğu-anketi qiymətləndirmək məqsədi daşıyırdı. İlkin sınağın nəticələri əsasında sorğu-anketinə cüzi düzəliş və əlavələr edilib.

## ƏLAVƏ 3. KEYFİYYƏT SORĞUSUNUN MƏZMUNU

Keyfiyyət sorğusunun məqsədləri üçün respondentlərdən ailənin planlaşdırılması və qoruyucu vasitələrdən istifadə, habelə ailənin geniş mənada formalaşması ilə bağlı öz şəxsi təcrübə və münasibətini şifahi şəkildə bildirmək xahiş olunub. Keyfiyyət sorğusu ilə əhatə olunmuş mövzular bunlardan ibarət olub:

- Ailə planlaşdırılması və qoruyucu vasitələrdən istifadə;
- Qoruyucu vasitələrə münasibət;
- Qoruyucu vasitələrdən istifadə;
- Qoruyucu vasitələrdən istifadə ilə bağlı qərar qəbuletmə;
- Abort;
- Qoruyucu vasitələrdən istifadə imkanları;
- Erkən nikahlara münasibət;
- Ər-arvad arasında dinamika və münasibətlər;
- Uşaqların sayı;
- Oğlan və ya qız uşağına verilən üstünlük;

- Nikahdan gözləntilər;
- Gündəlik həyatda uşaqlara valideynlik etmə və qaygı göstərmə; və
- Uşaqlıqda zorakılığa məruz qalma.

## ƏLAVƏ 4. QANUNLARA MÜNASİBƏT

Respondentlərin müxtəlif qanunlarla (o cümlədən, digər məsələlərlə yanaşı atalıq məzuniyyəti, boşanma, nikah, himayə və gender bərabərliyi məsələləri ilə) bağlı bilikləri, məlumatlılıq səviyyəsi və münasibətləri barədə məlumatlar aşağıda təqdim olunur.

***Atalıq məzuniyyəti***

Müsahibədə iştirak etmiş kişilərin yarıdan, qadınların isə 60%-dən çoxu "arvadları doğuşla əlaqədar kişilərə atalıq məzuniyyəti kimi tanınan istirahət günlərinin verilməsini nəzərdə tutan qanunun" ölkədə mövcud olmadığını bildirib. Kişilərin yalnız 5,9, qadınların isə 7,4%-nin belə bir qanunun mövcud olduğunu qeyd etməsi, çoxlu sayda kişi və qadının (müvafiq olaraq 40,6 və 31,4%-nin) bu barədə heç nə bilmədiyini deməsi insanların həmin qanun barədə çox az məlumatlı olmasına işarə edir.

### *Diaqram 12. "Arvadlarının doğuşlu ilə əlaqədar kişilərə atalıq məzuniyyəti kimi tanınan istirahət günlərinin verilməsini nəzərdə tutan qanun sizin ölkədə mövcuddurmu?" sualına respondentlər tərəfindən verilmiş cavabların faiz nisbəti*




***Nikah, boşanma və himayə***

Kəmiyyət sorğusunda iştirak etmiş kişi və qadınların yarıdan çoxu nikah məsələlərinə dair yerli qanunların "nə kişilərin, nə də ki, qadınların xeyrinə olmadığını və onlara bərabər yanaşdığını" bildirib. Kişilərin 27,1 və qadınların 20,7%-i bu qanunların qadınların xeyrinə olduğunu hesab edib. Müqayisə üçün qeyd etmək lazımdır ki, qadınların 15,1, kişilərin isə cəmi 2,5%-i sözügedən qanunların kişilərin xeyrinə olduğunu düşünür. Boşanma məsələlərinə aid yerli qanunlara gəldikdə isə, kişilərin və qadınların təqribən yarısı bu qanunların "nə kişilərin, nə də ki qadınların xeyrinə olmadığını və onlara bərabər yanaşdığını" diqqətə çatdırıb. Bununla belə, kişilərin 34,4 və qadınların 29,9%-i bu qanunların qadınların xeyrinə olduğunu qeyd edibsə, qadınların 13,7, kişilərin isə cəmi 2,9%-i həmin qanunların kişilərin xeyrinə olduğunu hesab edib.

### *Cədvəl 34. Nikah, boşanma və himayə məsələlərnə dair qanunların kişi və ya qadınların xeyrinə olması barədə respondentlərin düşüncələrinin faiz nisbəti*

| | | | | | |
|---|---|---|---|---|---|
| Siz Azərbaycanda nikah məsələlərinə dair qanunların kişilərin və ya qadınların xeyrinə olduğunu hesab edirsiniz? | Kişilər | 2,5 | 27,1 | 54,8 | 15,4 |
| | Qadınlar | 15,1 | 20,7 | 53,9 | 10,3 |
| Siz Azərbaycanda boşanma məsələlərinə dair qanunların kişilərin və ya qadınların xeyrinə olduğunu hesab edirsiniz? | Kişilər | 2,9 | 34,4 | 49,8 | 12,8 |
| | Qadınlar | 13,7 | 29,9 | 49,1 | 7,4 |
| Siz Azərbaycanda boşandıqdan sonra uşaq üzərində himayə məsələlərinə dair qanunların kişilərin və ya qadınların xeyrinə olduğunu hesab edirsiniz? | Kişilər | 1,9 | 40,7 | 44,5 | 12,7 |
| | Qadınlar | 8,9 | 56,1 | 24,4 | 10,7 |

Ümumi nəticələrə əsasən respondentlərin böyük əksəriyyəti nikah və boşanma məsələlərinə dair qanunların nə kişilərin, nə də ki, qadınların xeyrinə olması qənaətindədir. Azərbaycanda boşandıqdan sonra uşaq üzərində himayə məsələlərinə dair qanunların kişi və ya qadınların xeyrinə olması barədə fikirlərlə bağlı yaranmış mənzərə bir qədər mürəkkəb və ziddiyətli görünür. Kişilərin 40,7%-i ilə müqayisədə qadınların yarısından çoxu (56,1%-i) boşandıqdan sonra uşaq üzərində himayə məsələlərinə dair yerli qanunların əsasən qadınların xeyrinə olduğunu hesab edir. Eyni zamanda, qadınların 24,4%-i və onlardan təxminən iki dəfə çox kişi (44,5%) bu qanunların “nə kişilərin, nə də ki qadınların xeyrinə olmadığını və onlara bərabər yanaşdığını” düşünür. Sözügedən qanunların kişilərin xeyrinə olması barədə düşünən kişilərin sayı qadınların sayı ilə müqayisədə əhəmiyyətli dərəcədə az olub(müvafiq olaraq 1,9 və 8,9%). Eyni zamanda, qeyd etmək yerinə düşər ki, bu suala “bilmirəm” cavabı verən respondentlərin sayının nəzərəçarpacaq dərəcədə (təxminən 7-15%) olması faktının insanların həmin qanunlar barədə çox az məlumatlı olmasına işarə etməsi mümkündür.

## *Diaqram 13. Uşaqlar üzərində himayənin ata ilə ana arasında bölüşdürülməsinin yaşadıqları cəmiyyətdə adi hal olması barədə sorğu respondentlərinin məlumatlı olması*




Keyfiyyət sorğusunda iştirak etmiş qadınların 58,3 və kişilərin 44,4%-i uşaqlar üzərində himayənin ata ilə ana arasında bölüşdürülməsinin yaşadıqları cəmiyyətdə adi hal olduğunu qeyd etmişdir (Diaqram 5-ə baxın). Təxminən eyni sayda qadın və kişi (müvafiq olaraq 20,3 və 22,3%) bununla razılaşmamışdır. Qeyd etmək lazımdır ki, bu məsələ ilə bağlı “bilmirəm” cavabı verən qadınların və kşilərin sayının kifayət qədər olması (müvafiq olaraq 21,4 və 33,1%) insanların uşaqlar üzərində himayənin ana və ata arasında bölüşdürülməsi barədə çox güman ki, bəsit məlumatlara malik olduqlarını üzə çıxarır.

## *Cədvəl 35. Uşaqların müdafiəsi məsələlərinə dair qanunların kişi və ya qadınlar, və yaxud həm kişi, həm də qadınlar üçün ədalətli olması barədə fikirlər bildirmiş respondentlərin faiz nisbətləri*

| | | Həm kişilər, həm də qadınlar üçün | Kişilər üçün | Qadınlar üçün | Bilmirəm |
|---|---|---|---|---|---|
| Siz uşaqların müdafiəsi məsələlərinə dair qanunların həm kişi, həm də qadınlar üçün ədalətli, kişi və ya qadınlar üçün ədalətsiz olduğunu hesab edirsiniz? | Kişilər | 36.8 | 17.4 | 14.7 | 30.9 |
| | Qadınlar | 37.3 | 4.8 | 32.8 | 25.1 |

Təxminən eyni sayda kişi və qadın (müvafiq olaraq 36,8 və 37,3%) Azərbaycanda uşaqların müdafiəsi məsələlərinə dair qanunların həm kişi, həm də qadınlar üçün ədalətli oduğunu düşünür. Qadınların təxminən üçdə biri bu qanunların qadınlar üçün, kişilərin isə 17,4%-i kişilər üçün ədalətli olduğunu hesab edirlər. Qeyd etmək lazımdr ki, çox sayda respondentin (kişilərin 30,9 və qadınların 25,1%-nin) bu suala “bilmirəm” cavabını verməsi onların bu cür qanunlar barədə biliklərinin olmamasına işarə edir.

Respondentlərin böyük əksəriyyəti – 63,1% qadın və 58,6% kişi – uşaqlara baxmaq üçün kişilərə və qadınlara eyni müddətdə məzuniyyətin verilməsinin tərəfdarı olduğunu bəyan edib. Kişilərin təxminən dörddə biri, qadınların isə üçdə biri bu fikirlə razılaşmayıb. Nəzərəçarpacaq sayda kişinin (16,3%) və qadının (6,3%) bu məsələyə “bilmirəm” cavabı verməklə münasibət bildirməsi insanların müvafiq qanun barədə yetərincə məlumatlı olmamasının göstəricisidir.

# ƏLAVƏ 5. QADINLARA QARŞI ZORAKILIQ

Nə vaxtsa və son il ərzində əsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən zorakılığın konkret formalarının tətbiq edilməsi və bu cür zorakılıqlara məruz qalma barədə müvafiq olaraq kişi və qadınların məlumatlarına dair təfərrüatlar  Cədvəl 36-da öz əksini tapıb.

***Cədvəl 36. Nə vaxtsa və son il ərzində rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən zorakılığın müxtəlif formalarını tətbiq etmiş və bu cür zorakılıqlara məruz qalmış sorğunun kişi və qadın respondentləri***

| | | Nə vaxtsa | Ötən 12 ay ərzində |
|---|---|---|---|
| Emosional/psixoloji zorakılıq | | | |
| Partnyoru təhqir etmə və ya özü barədə pis düşünməyə biləkdən məcbur etmə | Kişilər (törədən) | 23,2 | 36,6 |
| | Qadınlar (məruz qalan) | 37,2 | 14,6 |
| Partnyoru başqalarının qarşısında hörmətdən salma və ya alçaltma | Kişilər (törədən) | 13,7 | 27,3 |
| | Qadınlar (məruz qalan) | 18,1 | 22,5 |
| Partnyoru məqsədli şəkildə qorxutmaq və ya ona hədə-qorxu gəlmək üçün müəyyən hərəkətlər etmə (məsələn, ona sərt baxma, səs ucaltma və ya əşya qırma) | Kişilər (törədən) | 62,4 | 49,6 |
| | Qadınlar (məruz qalan) | 51,1 | 25,7 |
| Partnyora onun vurulacağı barədə hədə-qorxu gəlmə | Kişilər (törədən) | 35,7 | 33,8 |
| | Qadınlar (məruz qalan) | 35,8 | 15,2 |
| Partnyora onun qayğısına qaldığı insanlara pislik etməklə və ya onlara məxsus olan əşyalara ziyan vurmaqla əzab vermə | Kişilər (törədən) | 5,5 | 19,4 |
| | Qadınlar (məruz qalan) | 8,1 | 22,2 |
| İqtisadi zorakılıq | | | |
| Partnyora işə düzəlməyi, işə getməyi, alış-veriş etməyi və ya pul qazanmağı qadağan etmə | Kişilər (törədən) | 22,6 | 27,6 |
| | Qadınlar (məruz qalan) | 26,7 | 20,3 |
| Partnyorun evin məsrəflərini qarşılamaqda çətinlik çəkdiyini bildiyi halda, əldə etdiyi gəlirlərdən spirtli içki, tütün/siqaret və özünün şəxsi istifadəsi üçün olan bu kimi digər şeylərə pul ayırma | Kişilər (törədən) | 2,9 | 43,8 |
| | Qadınlar (məruz qalan) | 5,4 | 16,7 |
| Partnyoru evdən küçəyə atma | Kişilər (törədən) | 7,1 | 12,5 |
| | Qadınlar (məruz qalan) | 5,9 | 15,4 |
| Partnyorun razılığı olmadan qazancını mənimsəmə | Kişilər (törədən) | 7,0 | 56,4 |
| | Qadınlar (məruz qalan) | 5,5 | 33.3 |

| | | Nə vaxtsa | Ötən 12 ay ərzində |
|---|---|---|---|
| **Fiziki zorakılıq** | | | |
| Partnyora sillə vurma və ya xəsarət yetirə biləcək əşya atma/Partnyorunuz sizə nə vaxtsa sillə vurub və ya xəsarət yetirə biləcək əşya atıb? | Kişilər (törədən) | 31,5 | 11,3 |
| | Qadınlar (məruz qalan) | 31,7 | 15,7 |
| Partnyoru itələmə/Partyorunuz sizi nə vaxtsa itələyib? | Kişilər (törədən) | 6,4 | 19,4 |
| | Qadınlar (məruz qalan) | 8,6 | 10,5 |
| Partnyoru yumuruqla və ya ona xəsarət yetirə biləcək əşya ilə vurma/Partnyorunuz sizi nə vaxtsa yumuruqla və ya sizə xəsarət yetirə biləcək əşya ilə vurub? | Kişilər (törədən) | 2,8 | 18,8 |
| | Qadınlar (məruz qalan) | 6,4 | 21,4 |
| Partnyoru təpiklə vurma, sürümə, döymə, boğma və ya dağlama/Partnyorunuz sizi nə vaxtsa təpiklə vurub, sürüyüb, döyüb, boğub və ya dağlayıb? | Kişilər (törədən) | 1,3 | 14,3 |
| | Qadınlar (məruz qalan) | 2,7 | 33,3 |
| Partnyora qarşı tapancadan, bıçaqdan və ya başqa silahdan istifadə etməklə hədə-qorxu gəlmə və ya silahdan faktiki istifadə etmə | Kişilər (törədən) | 0,4 | 0,0 |
| | Qadınlar (məruz qalan) | 0,5 | 0,0 |
| **Cinsi zorakılıq** | | | |
| Hazırkı və ya keçmiş həyat yoldaşınızı və yaxud partnyorunuzu onun istəyinə zidd olaraq sizinlə cinsi əlaqəyə məcbur etmə | Kişilər (törədən) | 25,4 | 30,8 |
| | Qadınlar (məruz qalan) | 20,8 | 17,4 |
| Hazırkı və ya keçmiş həyat yoldaşınızı və yaxud partnyorunuzu onun istəyinə zidd olaraq pornoqrafik materiallara baxmağa məcbur etmə | Kişilər (törədən) | 3,1 | 35,3 |
| | Qadınlar (məruz qalan) | 1,8 | 25,0 |
| Hazırkı və ya keçmiş həyat yoldaşınızı və yaxud partnyorunuzu onun istəyinə zidd olaraq seksual hərəkətlər etməyə məcbur etmə | Kişilər (törədən) | 4,4 | 36,0 |
| | Qadınlar (məruz qalan) | 5,0 | 18,2 |

## ƏLAVƏ 6. PSİXİ SAĞLAMLIQ

“CES-D” depressiya və narahatlıq şkalası üzrə hər bir məsələ ilə bağlı məlumat vermiş respondentlərin faiz nisbətləri ilə tanış olmaq üçün aşağıda verilmiş Cədvəl 38-ə baxın.

## Cədvəl 37. Son həftə ərzində konkret simptomlardan əziyyət çəkdiklərini bildirən kişi və qadınların faiz nisbəti

| | | Nadir hallarda və ya heç vaxt | Bəzi hallarda | Müəyyən vaxtlarda | Əksər vaxtlarda və ya hər zaman |
|---|---|---|---|---|---|
| Adətən məni narahat etməyən şeylər məni artıq narahat edirdi. | Kişilər | 62,4 | 27,9 | 7,9 | 1,7 |
| | Qadınlar | 46,1 | 34,3 | 15,5 | 4,1 |
| Nəsə yediyimi hiss etmirdim: iştaham pis idi. | Kişilər | 77,0 | 19,8 | 2,5 | 0,6 |
| | Qadınlar | 64,6 | 24,4 | 8,1 | 3,0 |
| Hiss edirdim ki, hətta ailə üzvləri və tanışlarımın köməyi ilə belə kefimi heç nə açmır. | Kişilər | 89,5 | 7,8 | 1,6 | 1,1 |
| | Qadınlar | 75,3 | 14,8 | 7,7 | 2,2 |
| Sadəcə olaraq başqa insanlar kimi olduğumu düşünürdüm. | Kişilər | 6,8 | 6,3 | 34,5 | 52,3 |
| | Qadınlar | 5,5 | 7,4 | 19,6 | 67,5 |
| Nə etdiklərim barədə fikirləşməkdə çətinlik çəkirdim. | Kişilər | 74,8 | 21,4 | 2,5 | 1,3 |
| | Qadınlar | 56,1 | 32,8 | 8,5 | 2,6 |
| Mən depressiya hissi keçirirdim. | Kişilər | 71,9 | 21,2 | 4,9 | 1,9 |
| | Qadınlar | 55,4 | 26,2 | 13,3 | 5,2 |
| Etdiklərimin hamısını bir cəhd kimi qəbul edirdim. | Kişilər | 78,0 | 18,9 | 2,7 | 0,5 |
| | Qadınlar | 64,9 | 26,2 | 7,2 | 1,8 |
| Mən gələcəyə ümidlə baxırdım. | Kişilər | 21,2 | 14,1 | 36,3 | 28,4 |
| | Qadınlar | 18,5 | 15,5 | 22,9 | 43,2 |
| Həyatımın uğursuz olduğunu düşünürdüm. | Kişilər | 85,4 | 10,9 | 1,3 | 2,4 |
| | Qadınlar | 70,5 | 18,1 | 7,0 | 4,4 |
| Mən qorxu hissi keçirirdim. | Kişilər | 91,4 | 7,3 | 1,0 | 0,3 |
| | Qadınlar | 74,9 | 16,6 | 6,3 | 2,2 |
| Yuxum çox narahat idi. | Kişilər | 49,6 | 40,6 | 9,0 | 0,8 |
| | Qadınlar | 32,5 | 41,3 | 21,4 | 4,8 |
| Mən məmnun idim. | Kişilər | 10,1 | 16,6 | 44,4 | 28,8 |
| | Qadınlar | 12,5 | 21,8 | 36,9 | 28,8 |
| Adi hallardan fərqli olaraq mən nisbətən az danışırdım. | Kişilər | 78,9 | 17 | 2,5 | 1,6 |
| | Qadınlar | 70,8 | 21,4 | 6,6 | 1,1 |
| Özümü tənha hiss edirdm. | Kişilər | 89,9 | 6,5 | 2,1 | 1,6 |
| | Qadınlar | 74,5 | 14,4 | 8,1 | 3,0 |
| İnsanların mənə soyuq olduğunu düşünürdüm. | Kişilər | 93,0 | 4,8 | 1,0 | 1,3 |
| | Qadınlar | 84,5 | 9,6 | 5,2 | 0,7 |
| Mən həyatdan həzz alırdım. | Kişilər | 24,1 | 27,1 | 32,6 | 16,2 |
| | Qadınlar | 29,5 | 26,9 | 30,3 | 13,3 |
| Mən ağlaya-ağlaya and verirdim. | Kişilər | 83,8 | 11,4 | 3,5 | 1,3 |
| | Qadınlar | 67,9 | 19,9 | 11,1 | 1,1 |
| Özümü xəstə hiss edirdim. | Kişilər | 71,2 | 22,7 | 5,2 | 1,0 |
| | Qadınlar | 45,4 | 35,4 | 15,9 | 3,3 |
| İnsanların məni sevmədiyini düşünürdüm. | Kişilər | 92,9 | 5,1 | 1,4 | 0,6 |
| | Qadınlar | 83,0 | 10,7 | 4,8 | 1,5 |
| Mən yeriyə bilmədiyimi zənn edirdim. | Kişilər | 50,4 | 39,6 | 8,4 | 1,6 |
| | Qadınlar | 29,2 | 46,1 | 19,6 | 5,2 |

Respondentlərdən 28% kişi və 44,7% qadın son həftə ərzində ən azı bir dəfə depressiya hissi keçirdiyini bildirsə də, 14,6% kişi və 29,5% qadın həyatlarının ümumiyyətlə uğursuz olduğunu hesab edirdi.  Bundan başqa, kişilərin 50,4 və qadınların 67,5%-i son həftə ərzində ən azı bir dəfə narahat yatdığını qeyd edib.

Eyni zamanda, kişilərin 52,3 və qadınların 67,5%-i son həftə ərzində sadəcə olaraq başqa insanlar kimi olduğunu tez-tez düşündüyünü bildirib. Kişilərin 73,2 və qadınların 65,7%-i son həftə ərzində ən azı üç dəfə məmnunluq hissi keçirdiyini bildirməklə yüksək səviyyədə məmnunluqlarını qeyd ediblər.